# Akademik Tarih ve Düşünce Dergisi
# Azerbaycan Kültür Başkenti Şuşa’nın 270. Yılı Armağan Sayısı

# Academic Journal of History and Idea the 270th-anniversary special issue of Şuşa, the cultural capital of Azerbaijan

**ISSN: 2148-2292**




**Cilt/ Volume**
**9**

**Yıl / Year/ Год**
**2022**

# Akademik Tarih ve Düşünce Dergisi

# Academic Journal of History and Idea
# Академическая История и Мысль

**Cilt/ Volume**
**9**

**Yıl / Year/ Год**
**2022**



**ATDD ©**



**Tel/Tel/ Тел**
+90 533 310 2773

**E-posta / E-mail /E- сообщение**
akademiktarihvedusunce@gmail.com,
akademiktarihvedusunce@yandex.com

**Web /Веб-Сайт**
http://dergipark.gov.tr/atdd,
http://www.akademiktarihdusuncedergisi.org/



CC BY



Türkiye / Turkey / Турция



# ATDD

**ISSN: 2148-2292**


## İmtiyaz Sahibi / Published By/ Держатель Концессии

Hakan Yılmaz

## Başeditör/Editor in Chief/главный редактор

Hakan Yılmaz

## Editörler / Editors / Редакторы

Doç. Dr. İrade Memmedova, AMİA, Azerbaijan
Dr. Öğretim Üyesi Ferdi Çiftçioğlu, MCBÜ, Turkey
Dr. Güneş Quliyeva, Azerbaijan
Dr.Raqim Qasanov

## Dil Editörleri/Language Editors/ ЯЗЫКОВЫЕ РЕДАКТОРЫ

Veysel Karani Gülersoy
Dr. Ahmad Jabbari
Dr. Huriye Şen

**Yayın Kurulu / Editorial Board / Редакционная Коллегия Журнала**

Prof. Dr. Yagub Mahmudov, AMİA, Azerbaijan
Prof. Dr. Tofig Necefli, AMİA, Azerbaijan
Prof. Dr.Kerim Şükürov, AMİA, Azerbaijan
Prof. Dr. Ayşe Kayapınar, Tekirdag Univ., Turkey
Prof.Dr. Peter Golden, Rutgers Univ., USA.
Prof.Dr. Ercan Haytoğlu, PAU, Turkey
Prof. Dr. Alfina Sibgatulina, Moscov Univ. Russsia
Prof.Dr. Yusuf Kılıç, PAU., Denizli, Turkey
Prof. Dr.Juliboy Eltazarov, S.R.I. Univ. Uzbekistan
Prof. Dr. Selma Ünlü, AU., Turkey
Prof. Dr. Shohistahon Uljaeva,Uzbekistan
Doç. Dr. Güntekin Necefli, AMİA, Azerbaijan
Doç. Dr. İrade Memmedova, AMİA, Azerbaijan
Doç. Dr. Elnur Ağayev, LAU, Cyprus
Doç. Dr. Emin Kırkıl, CBU., Turkey
Ayten Dirier, Turkey
Dr. Mileushe Gaynanova, Kazan S.U., Tataristan

**İNDEX VE VERITABANLARI/ IDEX AND DATABASES/НДЕКС И БАЗЫ ДАННЫХ**

# Akademik Tarih ve Düşünce Dergisi

## Academic Journal of History and Idea
## Академическая История и Мысль

### Hakemlere Teşekkür / Reviewer Acknowledgement

*Yagub Mahmudov*
*Sami Tekin*
*Hande Kılıçarslan*
*Biray Çakmak*
*Fatma İnci*
*Nezahat Belen*
*Ayşegül Koyuncu*

*Tofig Necefli*
*Namık Musalı*
*Selma Yel*
*Fatma Pınar*
*Cevdet Teke*
*Bülent Yıldırım*
*Mübariz Ağalarlı*

*İrade Memmedova*
*Alfina Sibgetullina*
*Seadet Şıhıyeva*
*İbrahim Üngör*
*İhsan Burak Birecikli*
*Fatma Sedes*

*Nurettin Gülmez*
*Yusuf Kılıç*
*Namık Musalı*

*Kamil Veli Nerimanoğlu*
*Nilgün Nurhan Kara*
*Fatih Uslu*
*Abbas Karaağaçlı*

*Tattigul Kartayeva*
*Ahmad Jabbari*
*Metin Eren*
*Hilal Şahin*
*Ozan Yılmaz*

*Mithat Aydın*
*Ercan Haytoğlu*
*Talat Koçak*
*Ferhat Berber*
*Erdem Çanak*

*Besire Azizaliyeva*
*Süleyman Tüzün*
*Hacı Çoban*
*Ayşegül Karakelle*

*Juliboy Eltazarov*
*Xuraman Hummatova*
*Elif Aksoy*
*Aslan Hebibov*
*Aylin Doğan*

*Fatma İnce*
*Minara Aliyeva Çınar*
*Faig Elekberov*
*İnci Türkoğlu*
*Cavid Qasımov*
*Abdullah Sami Tekin*

*Terane Turan Rehimli*
*Hikmet Çiçek*
*Mileushe Gaynanova*
*Şinasi Sönmez*
*Yılmaz İnce*

*Emin Kırkıl*
*Orhan Yazıcı*
*Ahmet Aksın*
*Abdurrahim Tufantoz*
*Shokir Gofforov*
*Levent Merçin*

# İçindekiler / Contents / Содержание

## 1. Bölüm


1 ***Şuşa-270: Tarixi Yubiley*** **1-15**
*Shusha -270: Historical Anniversary*
*Шуша-270: Исторический Юбилей*

***Kərim Şükürov***

2 ***Vətən(II. Qarabağ) Müharibəsinin İnformasiya Təminatinda Azərbaycan Respublikasinin Prezidenti İlham Əliyevin Rolu*** **16-38**
*The Role of the President of Azerbaijan İlham Aliyev in the Provision of Inform*
*During the Patriotic War (II. Karabakh)*
*роль президента азербайджанской республики ильхама алиева в информационном обеспечении отечественной (ii карабахской) войны*

***Tofiq Mustafasadə***

3 ***Türk Araştırmalarında Kafkas İslam Ordusunun Şuşa Zaferi***
*Shusa's victory of Caucasian Islamic Army in Turkish Studies* **39-56**
*Триумф Кавказской Исламской Армии в Шуше в Турецкой историографии*

***Mehman Süleymanov- Bahtiyar Ersay***

4 ***Vətən savaşı dönəmində Azərbaycan poeziyasında Şuşa mövzusu***
*The theme of Shusha in Azerbaijani poetry during the Patriotic War* **57-68**
*Тема Шуши в азербайджанской поэзии периода Отечественной войны*

***Mətanət Saraçlı***

5 ***Azərbaycan şəhəri Şuşa XIX-XX əsr ABŞ mətbuatında*** **69-84**
*The Azerbaijani city of Shusha in the 19th and 20th century USA Press*
Азербайджанский город Шуша в прессе США в XIX-XX вв

***Elnur Nəciyev***

6 ***Kars-Iğdır Yöresinde Bulunan Geometrik Motifli Halılar ile Azerbaycan Halılarının Karşılaştırılması Üzerine Bir İnceleme*** 85-113
A Review on Comparison of Geometric Motif Carpets Found ın Kars-Iğdır Region and Azerbaijan Carpet
«Исследование и сравнение ковров с геометрическими узорами в КарсИгдырском районе с азербайджанскими коврами»

***Esen Baydemir-Lütfiye Gül Gündüz***

7 ***Albaniyanın Şəki Vilayətinin Qəbir Abidələri (III-VIII Əsrlər)*** 114-141
*Grave Monuments of Sheki Province Of Albania (The III-VIII Centuries)*
*Надгробные памятники Шекинской Провинции Албании (III-VIII века)*

***Elşən Abdurahmanov***

8 ***Ermәni Vandalizminә Mәruz Qalmiş Xocali-Gәdәbәy Mәdәniyyәti abidәlәrinin Naxçıvanda İzlәri*** 142-151
Khojaly-Gadabay Exposed To Armenian Vandalism Traces Of Cultural Monuments In Nakhchiva
Ходжалы-Кедабек Подвергавщихся Армянскому Вандализму Дорожки Культурных Памятников Нахчывана

***Toğrul Xəlilov***

9 ***Karabağla İlgili Türk Basınında Yapılan Haberlerin Muhteva Analizi ve Bu haberlerin Değerlendirilmesi*** 152-165
*Content Analysis of the News in the Turkish Press About Karabakh and Evaluation of These News*
*Контент-анализ сообщений турецкой прессы о Карабахе и оценка этих сообщений*

***Könül Hüseynova***


## 2. Bölüm


1 ***Göz yaşı*** 1-4

***Mirnamik Bəşirov***

2 ***Şuşa –Türk Dünyasının Mədəniyyət Paytaxtı*** 5-11

***Günəş Quliyeva***

3 ***8 noyabr - Zəfər tariximiz!*** 12-15

***Simnarə Alqayeva***

| | | |
|---|---|---|
| 4 | *Şuşa Azərbaycanın Musiqi Beşiyidir*<br>*Səkinə Bağışova* | **16-21** |
| 5 | *Şuşa-Azərbaycanın Təhsil və Mədəniyyət Beşiyidir*<br>*Rəna Rzayeva* | **23-31** |
| 6 | *Hər Naxış Bir Tarixdir*<br>*Kəmalə Qayıbova* | **32-39** |
| 7 | *Şuşa Öz Tarixi Simasını Bərpa Edır*<br>*Minayə Orucova* | **40-45** |
| 8 | *"Xarıbülbül" Şuşanın Rəmzidir Azərbaycan Florasının Nadir Bitkisi Xarı Bülbül Qarabağın Maddi İrsi Kimi...*<br>*Vüsalə Sadıqova* | **46-49** |
| 9 | *Şuşa Fatehi Mixaylo*<br>*Türkan Hüseynova* | **50-53** |





# Azerbaycan Kültür Başkenti

# ŞUŞA




***Azerbaycan'ın Kültür Başkenti Şuşa***
***https://www.google.com/search?***



***Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan ve Azerbaycan Cumhurbaşkanı İlham Aliyev***

***https://www.google.com/search?***



***Şuşa Zaferi***

***https://www.google.com/search?***



***Şuşa Beyannamesi***

***https://www.google.com/search?***



***Şuşa***

***https://www.google.com/search?***



***Yalnız Şuşa'da yetişen nadir çiçek Xarıbülbül***
***https://www.google.com/search?***



***Xarıbülbül uğruna can veren şehitler***

# Aziz şehir, aziz kale, aziz anıt Şuşa !

Tarih, özgürlük, insan ve vatan kavramlarının bütünsel olarak iç içe geçtiği Türk tarihi, dinamik bir bütündür. Bu bağlamda Türk tarihi, insanlık tarihinin de bileşkesidir. Çoklu coğrafyada köklü geçmişiyle insanlık tarihine yön veren Türkler, asırlarca mazlum milletler içinde de birer kurtarıcı rolü üstlenmişlerdir. Bu anlamda kadim Türk yaşam tarzından neşet eden Türk kültürü, dinamik kodlar taşımaktadır. Bu kodlar arasında yer alan özgürlük, insan ve vatan kavramları, aynı zamanda Türk tarihinin de başat hareket noktalarıdır. Tarihin zamansallığında bu kodların devinimiyle özgürlükler hep muhafaza edilmiş, sosyal devlet anlayışıyla insana en üst seviyede değer verilmiş ve coğrafyanın vatanlaşması düsturuyla da tarihi Türk devletinin dinamizmi oluşturulmuştur. Türkler tarih boyunca daima özgürlüklerini muhafaza etmişler ve vatan topraklarını kanları pahasına savunmuşlardır.

Büyük mütefekkir *Ziya Gökalp*, "*Vatan ne Türkiyedir Türklere, ne Türkistan, Vatan, büyük ve müebbet bir ülkedir Turan*" derken Türk tarihinin de panoramasını çizmekteydi. Bu panorama esasen bir ideal ve ülkü idi. Bu anlamda vatan toprağı olan her yer bu ülkünün bir parçası ve kadim kodların kök saldığı sahalardı. İşte Azerbaycan ve toprakları da Türkistan'ın kapısı ve Türk tarihinin de bütünleyicilerinden birisidir. Azerbaycan'ın kadim toprakları arasında yer alan Şuşa ise tarihi ve kültürel bir merkez olarak Türk tarihinin bir incisidir.

Tarihsel ve jeopolitik olarak Karabağ bölgesinin merkezi konumunda bulunan Şuşa, hanlıklar dönemi Azerbaycan'ında Karabağ Hanlığı'nın başkenti olarak ön plana çıkmıştır. Tarihte süregelen bir devinim olarak merkezi yerlerin daima ön plana çıkması özelliği Şuşa'yı da bölge ve Türk tarihi bakımından olmazsa olmaz kılmıştır. Bu anlamda Şuşa'dan Karabağ'a, Karabağ'dan Azerbaycan'a olan uzamda bir bütünsellik ve tarihsellik verdır. Bu tarihselliği Azerbaycan'ın ulusal önderi Haydar Aliyev, *"Şuşasız Karabağ, Karabağsız Azerbaycan olmaz"* sözleriyle özetlemekte ve Şuşa'nın hem Azerbaycan hem de Türk dünyası için önemini bir kez daha akıllarımıza kazımaktadır.

Karabağ Hanlığı'nın kurucusu *Penah Ali Han* tarafından *Penahabad* adı ile adlandırılan Şuşa, *İbrahim Halil Han* tarafından da genişletilerek güçlendirilmiş ve bölgenin merkezi konumuna getirilmiştir. Doğal olarak Azerbaycan'ın toprağı olan Şuşa, 19. asırda Çarlık Rusya'nın denetimine geçse de Karabağ'da dahil olmak üzere Azerbaycan Türk kültürünün merkezi konumlarından birisi olmaya devam etmiştir.

Çarlık Rusya'nın yıkılmasından sonra bölgede yaşanan Azerbaycan-Ermanistan savaşları için temel hareket noktası yine Karabağ ve Şuşa olmuştur. 8-9 Mayıs 1992'de Rus destekli Ermeniler tarafından bölgenin işgal edilmesi bir kırılma noktası yaratmış ve deyim yerindeyse bölgede Azerbaycan Türkleri için bir varlık mücadelesi başlamıştır. Bu süreçte 26 Şubat 1992 tarihinde Karabağ bölgesindeki Hocalı'da Ermenilerin Azerbaycan Türklerine yönelik giriştiği katliam yüz yılın en büyük soykırımı olarak ön plana çıkmıştır. İnsan Hakları İzleme Örgütü'nün de verileri bu yönde olup, Karabağ'ın Ermeni işgalinden beri gerçekleşen en büyük sivil katliamı olarak tarihe geçmiştir.

Azerbaycan Türklerinin vatanlarına sahip çıkma adına verdikleri mücadelede başlayan 2020 Karabağ Savaşı ise tarihte İkinci Karabağ Savaşı olarak yerini almıştır. Bu çatışmalarda yine Şuşa muharebesi ön plana çıkmaktadır. Azerbaycan-Ermanistan çatışmalarında Türk dünyasının grur duyduğu Azerbaycan ata topraklarına sahip çıktığını tüm dünyaya göstermiş ve yıllardır Ermeni işgali altında bulunan Türk dünyasının payitaht merkezi Şuşa, 8 Kasım 2020'de Azerbaycan Silahlı Kuvvetleri tarafından adeta verilen bir milli mücadele ve kurtuluş savaşıyla ele geçirilmiştir. Ve 9 Kasım 2020 tarihinde Azerbaycan Cumhuriyeti Savunma Bakanlığı, Şuşa'da Azerbaycan bayrağının çekildiğini tüm dünyaya ilan etmiştir. Dolayısıyla bu tarihten itibaren Türk dünyasının ve tarihinin incisi olan Şuşa, tekrar bağımsız bir Türk yurdu olmuştur.

Azerbaycan Cumhurbaşkanı hürmetli *İlham Aliyev*'in 44 günlük vatan muharebesi'nde bir gün bile geri adım atmadıklarını ifade ettiği açıklamalarında *" Şuşa, Azerbaycan halkının kalbidir, hepimiz için kutsal bir yerdir, 44 gün içinde bir gün bile geri adım atmadık. Şuşa'nın kurtarılması Ermenistan ordusunun belini kırmıştır"* ifadeleri 44 günlük vatan muharebesinin adeta özeti gibidir.

Bu süreçte Türkiye Cumhuriyeti Cumhurbaşkanı hürmetli *Recep Tayyip Erdoğan*'ın kardeş ülke Azerbaycan'a yönelik yaklaşımları da kayda değerdir. Esasen iki kardeş Türk liderinin ele ele tarihe not düştükleri zaferin adıdır Şuşa. Cumhurbaşkanı Erdoğan'ın da

kalbinin attığı yer olan Şuşa, Azerbaycan Silahlı kuvvetlerinin tarih yazdığı zaferle yine ebedi Türk yurdu olmanın onurunu yaşamıştır.

Kültür merkezi Şuşa, hürmetli Azerbaycan Cumhurbaşkanı Aliyev'in 7 Mayıs 2021 tarihli kararnamesiyle Azerbaycan'ın kültür başkenti ilan edilmiş ve yine Cumhurbaşkanı kararnamesiyle 2022 yılı da Şuşa Yılı ilan edilmiştir.

15 Haziran 2021 tarihinde Türkiye Cumhuriyeti Cumhurbaşkanı *Recep Tayyip Erdoğan* ile Azerbaycan Cumhurbaşkanı *İlham Aliyev* arasında imzalanan *Şuşa Beyannamesi* ise kardeş iki Türk devletinin derin köklerle birbirine bağlı kardeşlik duygularının Şuşa'da resmen mühürlenmesidir. Tarihi, siyasi ve kültürel olmak üzere iki kardeş Türk ülkesinin devlet başkanları nezdinde tüm dünyaya ilan ettikleri bu mühür, esasen bir Türklük mühürüdür ve Şuşa'da imzalanmıştır. Şuşa'nın adıyla tarihe geçen bu kardeşlik ittifakı, eşi benzeri olmayan Türkiye- Azerbaycan kardeşlik bağlarının da en üst perdeden bir kez daha ilanıdır.

İşte bu ilandan ilham alan *Akademik Tarih ve Düşünce Dergisi*, hürmetli Aliyev'in ilan ettiği 2022 Şuşa yılında Azerbaycan Kültür Başkenti Şuşa anısına *Azerbaycan Kültür Başkenti Şuşa'nın 270. Yılı Armağan Sayısı* yayınlamayı tarihi bir görev kabul etmiş ve büyük bir heyecanla sayıyı tamamlamıştır. Bu süreçte bizlere destek veren başta Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü nezdinde tüm Azerbaycan Üniversitelerine, Türkiye Cumhuriyeti Üniversiteleri ve değerli akademisyenlerine ve tüm Türk dünyasının bilim ve kültür merkezlerine şükranlarımı sunuyorum.

Bu bağlamda hacmi küçük ama manevi değeri çok büyük olan bu tarihsel sayımız, Şuşa'da vatan olan aziz şehit ve gazilerimize, şanlı Azerbaycan ordusuna, iki büyük Türk lideri, 44 Günlük vatan muharebesinin baş mimarı Azerbaycan Cumhurbaşkanı *İlham Aliyev* ve Türkiye Cumhurbaşkanı *Recep Tayyip Erdoğan* cenaplarına büyük Şuşa zaferinin anısı olarak armağan edilmiştir.

Hakan Yılmaz
Akademik Tarih ve Düşünce Dergisi
Genel Yayın Yönetmeni

*Azerbaycan Kültür Başkenti  Şuşa'nın 270. Yılı Armağan Sayısı*




2022
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.

# Şuşa-270: Tarixi Yubiley

**Kərim Şükürov***
**ORCID: 0000-0001-6121-4182**

**Xülasə**

Azərbaycan qədim şəhər ənənəsinə malikdir. Tarix boyunca burada ölkə və dünya tarixində mühüm rol oynayan şəhərlər yaranmışdır. Bu şəhərlər sırasında Şuşa şəhəri özünəməxsus yer tutur. Şuşa şəhəri Qarabağ xanlığının paytaxtı kimi meydana gəlsə də, qısa bir dövr ərzində Azərbaycanın əsas şəhərlərindən biri olmuşdur. Azərbaycanın İkinci Qarabağ müharibəsində Ermənistan üzərində qələbəsi nəticəsində Şuşa şəhərinin işğaldan azad edilməsi, şəhərin salınmasının 270 illiyi və ölkədə 2022-ci ilin "Şuşa ili" elan edilməsi Şuşa tarixinin öyrənilməsini daha da aktuallaşdırmışdır. Bu baxımdan, Şuşa tarixi tədqiqat obyektinə çevrilmişdir. Qarşıya qoyulan problemin həlli məqsədi ilə tarixi-müqayisə, genetik və digər metodlardan istifadə edilmişdir. Müəyyən edilmişdir ki, Şuşa şəhəri tarixi Azərbaycan ərazisində, məhz Azərbaycan şəhərsalma təcrübəsi əsasında salınmışdır. Şuşanın bütün tarixi Azərbaycan tarixinin tərkib hissəsi olmuşdur.İkinci Qarabağ müharibəsində qələbə nəticəsində Şuşanın Ermənistan işğalından azad edilməsi, Şuşanın yenidən Azərbaycan şəhərləri ailəsinə qovuşması onun tarixində yeni bir mərhələ açmışdır.

**Açar sözlər:** Azərbaycan, Şuşa, Pənah xan, Kürəkçay müqaviləsi, İkinci Qarabağ müharibəs

**Gönderme Tarihi: 20/10/2022** **Kabul Tarihi:18/11/2022**

---

*Professor, Tarix Elmləri Doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Baş Direktoru, Bakı - Azərbaycan, shukurovkk@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsini***
ŞÜKÜROV, K., "Şuşa-270: Tarixi Yubiley", *Akademik Tarih ve Düşünce Dergisi Azerbaycan Kültür Başkenti Şuşa'nın 270. Yılı Armağan Sayısı*, 2022, s. 1-15.

# Shusha -270: Historical Anniversary

**Karim Shukurov***
**ORCID: 0000-0001-6121-4182**

**Abstract**

Azerbaijan has an ancient city tradition. Throughout history, cities that played a significant role in the history of the country and the world were formed here. Shusha occupies a special place among these cities. Although Shusha was founded as the capital of the Karabakh Khanate, it soon became one of the main cities of Azerbaijan. As a result of the victory of Azerbaijan against Armenia in the second Karabakh War, the independence of Shusha, and the declaration of 2022 as the year of Shusha in the country, depending on the 270th anniversary of the establishment of the city, enabled studies on Shusha and the history of Shusha to be learned better. From this point, Shusha has become an object of historical research. Historical comparison, genetic, and other methods were used to solve the problem. It was determined that Shusha was built on the historical territory of Azerbaijan, based on the experience of city planning in Azerbaijan. The entire history of Shusha has been a part of the history of Azerbaijan. As a result of the victory in the Second Karabakh War, the liberation of Shusha from the Armenian occupation, the return of Shusha to the family of Azerbaijani cities opened a new era in its history.

**Keywords:** Azerbaijan, Shusha, Panah Khan, Kurekchay treaty, second Karabakh War

**Received Date: 20/10/2022** **Accepted Date: 18/11/2022**

* *Doctor of Historical Sciences, Professor, General Director of the Institute of History of the Azerbaijan National Academy of Sciences, E-mail: shukurovkk@gmail.com, +994502901026*

# Шуша-270: ИсторическийЮбилей

**Керим ШУКЮРОВ[*]**
**ORCID: 0000-0001-6121-4182**

**Резюме**

Азербайджанимеетдревнююгородскую традицию. На протяжении всей истории здесь формировались города, сыгравшие важную роль в истории страны и мира. Среди этих городов особое место занимает и город Шуша. Хотя город Шуша образовался как столица Карабахского ханства, за короткий период времени он стал одним из важных городов Азербайджана. Освобождение города Шуши от оккупации в результате победы Азербайджана над Арменией во Второй Карабахской войне, 270-летие со дня основания города и объявление 2022 года в стране «Годом Шуши» ознаменует актуальность исследований истории Шуши. В связи с этим история города Шуша стала объектом исторического исследования.Для решения задачи использовались историко-сравнительный, генетический и другие методы. Исследования показывают, что город Шуша был построен на исторической территории Азербайджана именно на основе опыта азербайджанского градостроительства. Вся история Шуши была частью истории Азербайджана. В результате победы во Второй Карабахской войне, освобождения Шуши от армянской оккупации, возвращения Шуши в семью азербайджанских городов открылся новый этап в ее истории.

**Ключевые слова:** Азербайджан, Шуша, Панах-хан, Куракчайский договор, Вторая Карабахская война

**Получено: 20/10/2022** **Принято: 18/11/2022**

---

[*] *Профессор, доктор исторических наук, генеральный директор Института истории Национальной академии наук Азербайджана, Баку-Азербайджан, shukurovkk@gmail.com*

**Giriş**

Azərbaycan ilk şəhər sivilizasiyasının formalaşdığı coğrafiyaya daxil olub, tarixinin bütün dövrlərində çoxsaylı şəhərlərə malik olmuşdur. Belə geniş şəhər ənənəsinə malik olan Azərbaycanda Şuşa şəhərinin meydana gəlməsi yeni səhifə açmışdır. Belə ki, ölkə tarixində ilk dəfə olaraq siyasi mərkəz kimi bu və ya digər mövcud şəhər müəyyən edilməmiş, məhz yeni siyasi mərkəz salınmışdır. Bu faktı Rusiya çarı I Pyotr tərəfindən 1703-cü ildə Sankt-Peterburq şəhərinin salınması ilə müqayisə etmək olar. Bununla eyni zamanda, Şuşanın salınması özünəməxsus xüsusiyyətə malik idi. Belə ki, Şuşa birdən-birə salınmamış, bunun üçün şəhər salınması ərəfəsindəki konkret tarixi təcrübə əsas götürülmüşdür.

Əfşarlar dövlətinin banisi Nadir şah (1736-1747) sui-qəsd nəticəsində öldürüldükdən sonra, imperiya dağıldı. Azərbaycan ərazisində meydana gələn xanlıqlardan biri də Qarabağ xanlığı idi. Digər xanlıqlar mövcud şəhərlər ətrafında yarandığı halda, Qarabağ ərazisindəki tarixi şəhərlərdağıldığından, bu imkana malik deyildi. Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir Şəkixanlığı ilə Bayat döyüşündə qələbədən sonra, 1748-ci ildə Bayat qalasını tikdirir. Bu qalanın, müdafiə imkanlarının tələblərini ödəmədiyi nəzərə alınaraq, yeni bir siyasi mərkəz – Şahbulağıqalası tikildi. Bu qalaların tikintisi təcrübəsi hədər getmədi və daha bir siyasi mərkəzin – Şuşanınsalınmasında mühüm rola malik oldu.

**1-Şuşa Şəhərinin Salınmasına Dair PənahXan: Şuşanın Banisi**

Mirzə Camal Cavanşir "Qarabağ tarixi" adlı əsərində Şuşanın salınması barədə yazır ki, "Hökumət işlərini bir an belə unutmayan mərhum Pənah xanın işgüzar və bacarıqlı adamları, xanın əmrinə görəməsləhət üçün yığışıb dedilər: "…Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir"… Xanın bir neçə nəfər bilici və məlumatlı adamı gedib qalanın yerini və ətrafını yoxladı. … İki-üç bulaqdan başqa axar su yox idi. Bu bulaqların sayı isə qala camaatına kifayət etməzdi. Ona görə, güman gələn yerlərdə quyu qazdırıb, müəyyən elədilər ki, buranın bir çox yerlərində su quyuları qazmaq mümkündür. Bu xəbəri mərhum Pənah xana çatdırdılar. (Xan) sevinərək, bir neçə nəfər öz yaxın adamı ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını

qoydu".[1] Şuşanın salınmasına dair məlumatların ümumiləşdirilməsindən aydın olur ki, şəhər yeri Qarabağ xanının konkret hərbi-siyasi və humanitar proqramı əsasında müəyyənləşdirilmişdi. Şuşa şəhərinin salınması tarixinə gəldikdə, bu barədə müəyyən mülahizələr vardır. Həmin mülahizələrə görə qeyd edilən hadisənin 1750-1751, yaxud 1756-1757-ci ildə baş verdiyi iddia olunur. Şəhərin əsasının 1750-ci ildə qoyulduğu və 1756-1757-ci illərdə onun tikintisinin, əsasən, başa çatması da söylənilir.[2] Əslində, şəhərin məhz 1752-ci ildə salındığı faktı üstünlük təşkil edir.

Şəhərin adı ilk vaxtlar xanın şərəfinə Pənahabad adlandırılmışdır. Xalq arasında "Qala" adı ilə də tanındığı məlumdur.[3] Az sonra isə şəhər Şuşa adlandırılmağa başladı. Bu yaxınlıqdakı kəndin adı ilə eyniləşdirilir. Bununla birgə, belə bir adın əmələ gəlməsində şəhərin təbii-coğrafi göstəricilərinin də rolu olduğunu istisna etmək olmaz. Bütün hallarda hökmdarın adının Qala və Şuşa ilə əvəz edilməsindən aydın olur ki, Pənah xan və varisləri də demokratik yol tutaraq bu məsələdə israrlı olmamışdır. Qarabağ xanlığının siyasi nüfuzu və iqtisadi potensialı qısa bir müddətdə Şuşanın rolunun artmasını təmin edə bildi. Şuşa şəhəri də hərbi-strateji mövqeyilə Qarabağ xanlığının vəziyyətini xeyli möhkəmləndirdi. Beləliklə, Şuşanın yüksəlişilə qədim tarixə malik olan Qarabağın həyatında yeni bir dövr başlandı. Şuşanın Azərbaycan şəhərləri ailəsinə (Təbriz, Bakı, Gəncə, Ərdəbil, Urmiya və b.) daxil olması da böyük hadisə oldu.

## 2-Şuşa İlk Hərbi-Siyasi Sınaqlar Qarşısında

Şuşanın Qarabağ xanlığının paytaxtı kimi inkişafa başladığı ilk illərdə parçalanmış Əfşarlar dövlətində mərkəzi hakimiyyət uğrunda mübarizə gedirdi.Burada urmiyalı Fətəli xan, Məhəmmədhəsən xan Qacar (1750-1770) və Kərim xan Zənd (1750-1779) daha çox fəallıq göstərirdi.[4]Bu mübarizədə Qarabağ xanlığı ilə münasibətlərin aydınlaşdırılması önəmli yer tuturdu. 1758-ci ildə Şuşa ilk sınaq qarşısında qaldı. Məhəmmədhəsən xan Şuşanı ələ keçirmək məqsədilə hücum etdi. Pənah xan ciddi müdafiə tədbirləri gördü, lakin 1762-ci ildə urmiyalı Fətəli xan Qarabağa hücum etdi. Pənah xan oğlu İbrahimi girov kimi Fətəli xanın yanına göndərdi.[5] Bu zaman xeyli güclənən Kərim xan Zənd urmiyalı Fətəli xana qarşı mübarizəyə başladı. Bu mübarizədə

---

[1] Mirzə Camal Cavanşir Qarabaği, *Qarabağ tarixi-Qarabağnamələr,* Birinci kitab, Yazıçı, Bakı 1989, s. 115-116.
[2] M. C. C. Qarabaği, *a.g.e.,* s. 41; Mirzə Adıgözəlbəy, *Qarabağnamə*-Qarabağnamələr, Birinci kitab, Yazıçı, Bakı s. 40; M. C. Cavanşir, *a.g.e.,* s. 116; Camal Mustafayev, "Şuşa şəhərinin əsasının qoyulması tarixi haqqında bəzi mülahizələr", *Tarix və onun problemləri,* №1, Bakı 1998, s. 57-61; *Azərbaycantarixi*, Üç cilddə, C. I, Bakı, 1961, s.361.
[3] *Azərbaycan toponimləri*, Ensiklopedik lüğət, Şərq-Qərb, Bakı 1999, s.583.
[4] Saleh Aliyev, "Mejdusobnıe voynı i borba za verxovnuyu vlast v İrane posle raspada imperii Nadir şaxa", *İran, İstoriya i kultura v srednie veka i novoe vremya*, Moskva 1980, s. 27-66.
[5] S. Aliyev, *a.g.e.* , s. 41.

Kərim xan Zəndin müttəfiqi kimi çıxış edən Pənah xan Urmiya xanlığının asılılığından çıxmağa nail oldu.

**3-Şuşa Qarabağın İkinci Hökmdarı İbrahim Xanın Dövründə Siyasi Tarix**

Kərim xan Zənd hiylə ilə Pənah xanı Şiraza apardı.[6] Bu hadisəni şərti olaraq "Şiraz qonaqlığı" adlandırmaq olar.[7] Xanlıqda hakimiyyət İbrahim xana (1763-1806) keçdi. İbrahim xanın dövründə Şuşa güclü mərkəzi hakimiyyətin simvoluna çevrildi. Bu zaman Qarabağda əslən alban olan beş məliklik (Vərəndə, Çiləbörd, Xaçın, Dizaq, Gülüstan) var idi. İbrahim xan Vərəndə məliyi Məlik Şahnəzər və Xaçın məliyi Ulubabı tabe etdi. Dizaq, Çiləbörd və Talış məlikləri isə separatist fəaliyyətini davam etdirdi. Regiona daxil olmağa çalışan Rusiya məliklərin separatizminə yardım etməyə, burada "xristian dövləti" təşkil etmək planını həyata keçirməyə başladı. İbrahim xan böyük dövlətçilik məharəti nümayiş etdirərək separatçı məlikləri Şuşaya topladı və sənədlər əsasındaonların Qarabağ xanlığına xəyanətini sübut etdi. 1787-1791-ci illər rus-türk müharibəsinin başlanması ilə Rusiya başda olmaqla anti-Qarabağ qüvvələrin "xaç yürüşü" planı boşa çıxdı.

Məhəmmədhəsən xanın oğlu Ağa Məhəmməd şah Qacar (1795-1797) atasının siyasi xəttini davam etdirdi. Bir tərəfdən mərkəzi hakimiyyət uğrunda mübarizədə qalib gəldi, digər tərəfdən Cənubi Qafqaz uğrunda mübarizədə əsas strateji obyekt kimi Şuşanın ələ keçirilməsinə çalışdı. 1795-ci ildə Şuşanı mühasirəyə alan Ağa Məhəmməd Qacar İbrahim xana, necə deyərlər diplomatik təzyiq göstərməyə başladı. Xana aşağıdakı məzmunda bir beyt şeir göndərildi: "Fələkin mancağından fitnə daşı yağır, Sən axmaqcasına Şişə içərisinə sığınmısan". Buradan göründüyü kimi Şuşa-Şişə, Şüşə kimi qələmə verilir. İbrahim xan şeirlə yazılmış məktuba cavab verməyi, xanlığın vəziri, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifə (1717-1797) həvalə etdi. "Əgər məni qoruyan, mənim bildiyimdir, O, şişəni daşın qoltuğunda mühafizə edər", - beyti ilə Qacara cavab verildi. Mirzə Adıgözəlbəy yazır: "Ağa Məhəmməd şah məktubunun cavabını nəzərdən keçirdi. Qəzəbinin buxarı başına vurub, ağlı başından çıxdı. Əmr etdi ki, od səpən toplar şərarələr saçmağa, ildırım yayan qumbaralar atəş yağdırmağa başlasınlar".[8] Şuşa belə bir hücumu dəf edə bildi. Ağa Məhəmməd Qacar Şuşanın mühasirəsindən əl çəkib Tiflisə yürüş etdi və onu tutdu. Şuşanın 33 günlük mühasirəyə tab gətirməsi və Tiflisdən fərqli olaraq, təslim olmaması Qarabağ xanlığında və onun mərkəzi Şuşa şəhərində güclü siyasi birlik və iradə olduğunu göstərir.

[6] Hüseyn Dəlili, "Qarabağ xanlığının banisi Pənahəli xan haqqında yeni məlumatlar", *Azərbaycan SSR EA Xəbərləri*, Tarix, fəlsəfə və hüquq seriyası, №1, Bakı 1991.
[7] Kərim Şükürov, *Azərbaycan xanlıqları. Dövlət müstəqilliyi uğrunda mübarizə*, Azərbaycan tarixi, Təhsil, Bakı 2009, s. 516.
[8] M. Adıgözəl bəy, *a.g.e.*, s. 51.

Ağa Məhəmməd şah Qacar növbəti, 1797-ci il hücumu zamanı Şuşanı tutmağa nail oldu. Mirzə Camal Cavanşirə görə Ağa Məhəmməd şah Qacarın hücumu ərəfəsində Şuşada qəhətlik baş verir. Qacarın hücumu ilə vəziyyət daha da kəskinləşir. "Əlacsız qalan (İbrahim xan) arvad-uşağı, qohumları, məruf bəylərin ailəsivə sədaqətli xidmətçiləri ilə birlikdə qaladan köçüb, Car və Tala tərəfə getdi ki, orada dayanıb, Dağıstan, Gürcüstan və başqa vilayətlər kömək edərlərsə, tədarük görüb, müharibəyə hazırlaşsın, əks təqdirdə oradan Dağıstana, öz qohumu avar hakimi Ümmə xanın evinə gedərək Ağa Məhəmməd şahın əziyyətindən qorunsun".[9] Bu şəraitdə Ağa Məhəmməd şah Qacar Şuşaya daxil ola bilir. Bu zaman Şuşa şəhəri faktik olaraq, Qacarlar dövlətinin mərkəzinə çevrildi. Lakin az sonra sui-qəsd nəticəsində Qacar öldürüldü. Qəflətən, heç kimin gözləmədiyi halda baş verən bu hadisə siyasi böhrana səbəb oldu. İbrahim xan qısa müddətdən sonra Şuşada hakimiyyətini bərpa etməyə nail oldu.

**4-Şəhər Quruculuğu, Sosial-İqtisadi və Mədəni Həyat**

Şuşanın hərbi-siyasi həyatı kimi, şəhər quruculuğu, sosial-iqtisadi və mədəni həyatı da qaynar günlər keçirirdi. Şuşa şəhərinin meydana gəlməsinin ən əsas xüsusiyyətlərindən biri ondan ibarət idi ki, o ilk yaşayış evlərinin tikintisindən başlamış, getdikcə böyümüşdü. Mirzə Camal Cavanşir Pənah xanın və İbrahim xanın apardığı irimiqyaslı tikinti işlərinin yadigarları üzərində xüsusi dayanır. Pənah xanın dövründə tikilən Şuşa qalasının sabiq divarı, İbrahim xan dövründə tikilən böyük camaat məscidi (1768/69), Şuşa qalasının hasar divarı (1783/84) və b. adları çəkilir.[10]Şuşa şəhərsalmanın bütün xüsusiyyətlərinə görə Azərbaycan şəhəri kimi təşəkkül tapmış və inkişaf etmişdir.[11]Şəhər qurulduqca burada əhalinin sayı da sürətlə artırdı. XVIII əsrin sonlarında şəhər və onun ətrafında 3 mindən çox ailə yaşadığı qeyd edilir ki, bu da 15 min nəfər təşkil edirdi.[12] 1795 və 1797-ci il hadisələri şəhər əhalisinin sayına təsir göstərsə də, əhalinin sayı tezliklə bərpa edilmişdi.Şuşa Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi. Şuşa tacirləri Təbriz, Tehran, İsfahan, Moskva və digər şəhərlərlə ticarət əlaqələri saxlayırdılar. Şəhərdə gümüş pul-pənabadi (pənahabadi) zərb olunurdu.[13] Şuşanın Azərbaycan şəhəri kimi ən böyük tarixi rolundan biri xalqın mədəni həyatına verdiyi töhvəsində idi. Onun ən görkəmli nümunələri Molla Pənah Vaqifə məxsusdur. Görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərli yazırdı: "Azərbaycan

---

[9] M. C. Cavanşir, *a.g.e.*, s. 126.
[10] M. C. Cavanşir, *a.g.e.*, s. 143.
[11] Elturan Avalov, *Arxitektura qoroda Şuşi i problemı soxraneniya eqo istoriçestkoqo oblika*, Elm, Baku 1977, s. 112; Abdul Salamzadə, Elturan Avalov ve Roza Salayeva, *Problemı soxraneniya i rekonstrukcii istoriçeskix qorodov Azerbaydjana*, Elm, Baku 1979, c. 22-46; Şamil Fətullayev, *Qradostroitelstvo i arxitektura Azerbaydjana XIX- naçala XX veka*, Leninqrad 1986, c. 99.
[12] Fuad Əliyev, *XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri*, Az.SSR, EA nəşriyyatı, Bakı 1960, s. 50.
[13] İqrar Əliyev, "Şuşa", *Dirçəliş XXI əsr*, 2000, №10 (32), s. 46.

türklərinin məşhur və müqtədir şairi Molla Pənah hesab olunur ki, bizim ədəbiyyatımızın banisi və müəssisi adlanmağa onun haqqı vardır. Molla Pənah öz zamanında bir çox ülum və fününa Vaqif olduğu üçün özünə "Vaqif" təxəllüsü ittixaz etmişdir"[14].Məhz Qarabağ və Şuşa mühitinin təsirinin nəticəsində yaranan Vaqif yaradıcılığı Azərbaycan ədəbi dili tarixində yeni mərhələ hesab olunur.

### 5-Rusiyanın Cənubi Qafqazda İşğalçılıq Siyasəti. Qarabağ Xanlığı İlə Rusiya Arasında Kürəkçay Müqaviləsi

Rusiyanın Cənubi Qafqazda işğalçılıq siyasəti 1801-ci ildə bir sıra Azərbaycan torpaqları ilə (Borçalı, Qazax, Şəmşədil) birlikdə Şərqi Gürcüstanın ilhaqına yol açdı. Azərbaycanın Car-Balakən camaatlığı (1803) və Gəncə xanlığı (1804) işğal olundu. Qafqazdakı rus qoşunlarının baş komandanı P. D. Sisianov (1802-1806) Qarabağ xanlığı uğrunda mübarizəyə başladı. 1805-ci il mayın 14-də tərəflər arasında Kürəkçay müqaviləsi imzalandı.[15]

Müqavilə preambula və on bir artikuldan ibarət idi. Müqavilənin preambulasında Şuşalı və Qarabağlı İbrahim xanın Rusiya imperiyasının təbəəliyinə keçməsi təsbit olunur, artikullarda bundan irəli gələn şərtlər müəyyənləşdirildi. Kürəkçay müqaviləsinin 1, 4, 6, 8 və 9-cu artikullarında İbrahim xanın, 2, 3, 5 və 7-ci maddələrində Rusiya imperatorunun öhdəlikləri əks olunurdu. Rusiya birmənalı şəkildə Qarabağ xanlığını müstəqil dövlət kimi qəbul edir, İbrahim xanın və onun varislərini xanlığın yeganə sahibi kimi təsdiq edirdi. Ən mühüm məqamlardan biri İbrahim xanın adı keçən bütün artikullarda onun Şuşalı və Qarabağlı İbrahim xan kimi təqdim edilməsidir. Digər vacib məsələ Qarabağ xanlığının bütövlüyünün saxlanmasına imperator tərəfindən zəmanət verilməsi idi. Müqavilənin onuncu maddəsində qeyd edilirdi ki, bu müqavilə əbədi müddətə bağlanır və bundan belə heç bir dəyişikliyə uğramamalıdır. Kürəkçay müqaviləsində Qarabağ məlikləri və ya ermənilərin xanlığa hər hansı iddia və münasibətindən bir kəlmə belə yoxdur.[16]

### 6-Qarabağ Xanlığı Kürəkçay Statusunda: 1805-1822-ci illər Xanlığın Ləğv Edilməsi

Kürəkçay müqaviləsinin bağlanması ilə bütövlükdə Qarabağ xanlığının, o cümlədən onun mərkəzi olan Şuşa şəhərinin statusunda ciddi dəyişiklik baş verdi. Rusiya imperiyasının Kürəkçay müqaviləsinin şərtlərinə əməl etməməsi ilə vəziyyət daha da mürəkkəbləşdi. İş o yerə çatdı ki, 1806-cı ildə Şuşada yerləşdirilmiş rus qarnizonunun rəisi mayor Lisaneviç İbrahim xanı və onun ailə

[14] Firudin bəy Köçərli, *Azərbaycan ədəbiyyatı*, İki cilddə, C. 1, Elm, Bakı 1978, s.159.
[15] *Aktı sobrannıye Kavkazskoy Arxeoqrafiçeskoy Komissiey*, C. II, Tiflis 1868, s. 705.
[16] Karim Şukurov, "Kyurekçayskiy doqovor: ob osnovnıx polojeniyax, pretvorenii v jizn i posledstviyax uprazdneniya", *Kyurekçayskiy doqovor – 200*, Bakı 2005, c.148.

üzvlərini qətlə yetirdi. Rus tarixşünaslığı da bu faktı pisləməyə məcbur olmuşdu.[17] Çar I Aleksandrın 1806-cı il 10 sentyabr fərmanı ilə İbrahim xanın oğlu Mehdiqulu xan Qarabağ xanı (1806-1822) təsdiq edildi. Qafqazdakı rus qoşunlarının baş komandanı A. P. Yermolov (1816-1827) 1822-ci ildə Kürəkçay müqaviləsinin ziddinə olaraq Qarabağ xanlığını tamamilə ləğv etdi.

### 7-Rusiya İdarə Üsulunun Yaradılması

Qarabağ xanlığının ləğv edilməsilə əlaqədar Rusiyanın həyata keçirdiyi 1823-cü il təsvirinə görə Şuşa şəhərində 1050-yə yaxın azərbaycanlı ailəsi (70 %-dək) yaşayırdı.[18] 1917-ci il Qafqaz təqviminin məlumatına görə isə Şuşa şəhərində 43.869 nəfər qeydə alınmışdı. Onlardan 19.121 nəfəri (43,6 %) azərbaycanlılar, 23.396 nəfəri (53,3 %) ermənilər idi.[19] Ermənilərin Şuşada say etibarı ilə artmasının digər səbəbi onların azərbaycanlılara qarşı törətdikləri soyqırımı idi. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1905-1906-cı il soyqırımı Şuşada daha geniş miqyas almışdı. Çar hakim dairələrinin müdafiə etdiyi ermənilər burada yüzlərlə azərbaycanlını qətlə yetirmişdi.[20] Azərbaycanlı və ermənilərin eyni zamanda Rusiya imperiyası tərkibində olduğu dövrdə (XIX-XX əsrin əvvəlləri) ermənilər azərbaycanlılara qarşı soyqırımı vasitəsilə regionda mövqelərini möhkəmləndirməyə çalışırdılar.

### 8-Azərbaycan Cümhuriyyəti. Şuşa Qarabağ General-Qubernatorluğunun Mərkəzi Kimi

1918-ci ilin mayında Azərbaycan torpaqlarında Ermənistan adlı dövlətin yaradılmasından sonra ermənilərin azərbaycanlılara qarşı soyqırımları ərazi iddiaları ilə müşahidə olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bunun qarşısını almaq məqsədilə 1919-cu il yanvarın 15-də mərkəzi Şuşa olan Qarabağ general-qubernatorluğu təşkil etmişdi.[21]

### 9- Sovet Dövrü: Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinə Dair Planda

Ermənistanda sovet hökuməti qurulduqdan sonra (1920, noyabr) o daşnak hökumətinin siyasətini davam etdirdi. Sovet Rusiyasının yaxından köməyiilə Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi uğrunda mübarizə başladı. Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz

---

[17] Xadji İbraqimbeyli, *Rossiya i Azerbaydjan v pervoy tretu XIX veka (İz voenno-politiçeskoy istorii)*, Moskva 1969, s.79-80.
[18] *Opisaniye Karabaqskoy provintcii*, Sostavl. v 1823 qodu po rasporyajeniyu qlavnoupravlyayuşeqo v Qruzii Yermolova, Tiflis 1866, Pereizd, Baku 2003, s.4-1; İ. Əliyev, *a.g.e.*, s. 47.
[19] *Kavkazskiy kalendar na 1917 q.* Otdel statisticestkiy, s. 192-193.
[20] Məmməd Səid Ordubadi, *Qanlı illər*, Bakı 1991; Mir Möhsün Nəvvab, *1905-1906-cı illərdə erməni-müsəlman davası,* Azərbaycan nəşriyyatı, Qarabağa Xalq Yardımı Komitəsi, Bakı 1993.
[21] Həvva Məmmədova, *Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920),* Nağıl Evi, Bakı 2006.

bürosunun 1921-ci il 5 iyul tarixli qərarı ilə Dağlıq Qarabağa muxtariyyət verilməsi qərara alındı. Maraqlıdır ki, qərarda muxtariyyətin inzibati mərkəzinin Şuşa şəhəri olması nəzərdə tutulurdu.[22] Lakin 1923-cü il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Dağlıq Qarabağa muxtariyyət verildikdən sonra mərkəz Xankəndinə (1923-cü ilin sentyabrından Stepanakert adlandırıldı. Hazırda tarixi adı bərpa edilib) keçdi. Şuşa şəhəri isə sonradan, 1923-cü il iyulun 16-da Dağlıq Qarabağ Muxtar vilayətinin tərkibinə daxil edildi.

Şuşanın Qarabağın mərkəzi kimi muxtar vilayət tərkibində də Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında layiqli yerinin davam etdirməsi, erməni şovinizmi və separatizminə qarşı qətiyyətlə dayanması ermənilərin ona qarşı düşmənçilik fəaliyyətini daha da artırırdı. Ermənistanın Azərbaycana qarşı ərazi iddialarında Şuşa da hədəfə çevrilmişdir. Belə ki, Ermənistan K(b)P MK-nın katibi Qr.Arutinov1945-ci ilin noyabrında İ. Stalinə müraciət edərək Azərbaycan SSR-in DQMV-nin Qarabağ vilayəti adı altında Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələ qaldırdı. Bu müraciətin mətni ÜK(b)P MK-nın katibi G. M. Malenkov tərəfindən noybrın 28-də rəyini bildirmək üçün Azərbaycan K(b)P MK katibi M. C. Bağırova göndərildi. O, dekabrın 10-da Moskvaya cavabında bu məsələ barəsində mövqeyini ifadə edərkən, Şuşa şəhərinin Azərbaycan tarixindəki yerinə xüsusi diqqət yetirərək yazırdı ki, "Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır…Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır…"[23] Ermənistanın bu müraciəti cavabsız qalsa da, bu cür təxribatlar sonralar da davam etdirildi.

Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövründə (1969-1982) DQMV-nin Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qalmasında, o cümlədən Şuşa şəhərinin ölkənin mədəniyyət mərkəzi inkişafında büyük tarixi xidməti olmuşdur. Heydər Əliyevin göstərişi ilə 1977-ci il avqustun 10-da Şuşa şəhəri Tarixi-Memarlıq Qoruğu elan olunmuşdur. Heydər Əliyev Şuşa şəhərinə səfərlərə də xüsusi önəm verirdi. O, 1979-cu il 12 yanvarda vilayətə, o cümlədən Şuşaya səfər etdi. Bu səfərlər üç il sonra, 1982-ci ildə də davam etdirildi. Heydər Əliyev yanvarın 14-də Vaqifin Şuşada muzey-məqbərə kompleksinin açılışında, iyulun 29-da isə Poeziya evinin açılışı və "Vaqif poeziya günləri"ndə iştirak etmişdir.

---

[22] *K istorii obrazovaniya Naqorno-Karabaxskoy Avtonomnoy Oblasti Azerbaydjanskoy SSR.* Dok. i materialı, Baku 1989, s. 92.
[23] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Sənədlər Arxivi, fond.1, siyahı 169, iş 249, vv. 8-12.

## 10-SSRİ-nin Süqutu. Birinci Qarabağ Müharibəsi Şuşanın İşğalı

1980-cı illərin ortalarından Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində güclənən erməni separatizmi faktik olaraq Azərbaycana qarşı geniş miqyaslı işğalçı müharibəyə çevrildi. Birinci Qarabağ müharibəsi başlandı. 1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal edildi. Ermənilər Şuşanın işğalında rollarını hər vəchlə artırmağa çalışsalar da, əslində tarix yenə təkrar olundu. 1797-ci ildə olduğu kimi şəhər bu dəfə də heç bir məntiqə sığmayan şərait üzündən ermənilərin əlinə keçdi.[24] Erməni işğal ordusu və ona qoşulan qarətçi mülki dəstə Şuşada qalan azərbaycanlılara və Azərbaycanın bu tarixi şəhərinə amansız divan tutdular. Şəhərdə erməni işğal rejimi yaradıldı. Erməni vandalları Şuşadakı nadir tarixi memarlıq abidələrini dağıtdılar.[25] Şəhəri erməniləşdirmək üçün Ermənistan və xaricdə yaşayan ermənilərin buraya köçürülməsi təşkil edildi, uydurma təbliğata ("Şuşa xeyriyyə marafonu" və s.) əl atıldı və s. Azərbaycan xalqı və dövləti Şuşa işğal altında olduğu bütün dövr ərzində şəhər əhalisinin ölkənin digər yerlərində yerləşdirilməsinə, işğaldan xilas edilmiş maddi-mədəni irsinin qorunmasına böyük qayğı göstərmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Üzeyir Hacıbəyovun, Natəvanın və Bülbülün ermənilər tərəfindən Şuşada güllələnmiş heykəlləri Bakıya gətirilmiş və İncəsənət muzeyinin həyətində nümayiş etdirilmişdir.Prezident İlham Əliyev də işğal dövründə Şuşanın əhalisi, xilas edilmiş maddi-mədəni irsinin qorunması sahəsində siyasəti davam etdirmiş, əsas hədəf isə işğal altında olan bütün torpaqların azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi olmuşdur.

## 11-İkinci Qarabağ Müharibəsi Böyük Zəfərin Təntənəsi: "Əziz Şuşa, sən azadsan!"

İkinci Qarabağ müharibəsi-Vətən müharibəsi ilə (2020, 27 sentyabr-10 noyabr) Azərbaycan tarixində yeni dövr açılmışdır. Azərbaycan Respublikaının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan üzərində Böyük Zəfər qazanılmışdır. Bu qələbənin əldə edilməsində tarixi Şuşa əməliyyatı böyük rola malik olmuşdur. İlham Əliyev Şuşanın azad edilməsi ilə əlaqədar Şəhidlər xiyabanında xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğalaltında olan Şuşa azad edildi!Şuşa indi azaddır!Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq.2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq." Bu müraciət aşağıdakı möhtəşəm sözlərlə bitmişdir: " ...Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ

[24] *Şuşanın süqutu,* Ayna qəzeti 1992, may.
[25] *Müharibə və tarixi-mədəniyyət abidələrimiz, İşğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar,* Bakı 2006, s. 17-22.

Azərbaycandır!"[26] Şuşa işğaldan azad edildikdən sonra, onun bərpası və quruculuq işlərinin təşkili və həyata keçirilməsi dövlətin diqqət mərkəzində olmuşdur. Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı, 5 yanvar 2022-ci il tarixli sərəncam ilə 2022-ci il "Şuşa ili" elan olunmuşdur. Şuşa şəhərinə səfərlər də Böyük qayıdış proqramında xüsusi yer tutur. Prezident İlham Əliyev 2021-ci il yanvarın 14-də Şuşaya səfəri zamanı demişdir:"Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Ermənistan saxtakarlıq edərək bütün dünyaya Şuşa haqqında uydurmalar çatdırırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilərdi? Axı bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhərləri hesab edirlərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə üçün bütün bunları dağıtdılar? Daş üzərində daş qalmayıb 30 il ərzində...Biz bu şəhəri bərpa edəcəyik..."[27] Bu proqram səciyyəli fikirlər uğurla reallaşdırılır. ŞuşaAzərbaycanın mədəni paytaxtı kimi ənənəvi tədbirlər ilə birgə, yeni layihələrə həyat verir.

## 12-Şuşa Bəyannaməsi

Şuşa şəhəri azad edildikdən sonra Azərbaycanın tarixində mühüm bir hadisəyə də ev sahibliyi etdi. 15 iyun 2021-ci il tarixində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi" imzalandı.[28]

[26] *Zəfər yolu: Qarabağ savaşından Şuşa bəyannaməsinədək,* Elm, Bakı 2021, s. 57.
[27] *Böyük qayıdış*, Bakı 2021, s. 58.
[28] *Zəfər yolu, a.g.e.,* s. 859-874.

**Nəticə**

Şuşa Azərbaycan şəhəri kimi meydana gəldi. Bütün tarixi dövrlərində Azərbaycanın ayrılmaz tərkib hissəsi oldu. Ermənistanın Şuşanı ələ keçirməsi, burada otuz ilədək dövr ərzində yaradılan işğal rejimi Azərbaycan ordusunun qələbəsi ilə süqut etdi. Şuşa Azərbaycanın şəhərlər ailəsinə qayıtdı. Hazırda Şuşa tarixi inkişafının unikal bir dövrünü yaşayır. Bu dövrün verdiyi yeni stimullar şəhərin gələcəkdə daha da inkişafından və tərəqqisindən xəbər verir.

**Ədəbiyyat siyahısı**

"Şuşanın süqutu", *Ayna qəzeti*, Bakı 1992, may.

*Aktı sobrannıye Kavkazskoy Arxeoqrafiçestkoy Komissiey*, C. II, Tiflis 1868.

ALİYEV, S., "Mejdusobnıe voynı i borba za verxovnuyu vlast v İrane posle raspada imperii Nadir şaxa", *İran, İstoriya i kultura v srednie veka i novoe vremya*, Moskva 1980.

AVALOV, E., *Arxitektura qoroda Şuşi i problemı soxraneniya eqo istoriçestkoqo oblika*, Elm, Baku 1977.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Sənədlər Arxivi. f.1, siyahı 169, iş 249, vv. 8-12.

*Azərbaycan tarixi,* Üç cilddə, C. I, Bakı 1961.

*Azərbaycan toponimləri***,** Ensiklopedik lüğət, Şərq-Qərb, Bakı 1999.

*Böyük qayıdış,* Şərq-Qərb, Bakı 2021.

DƏLİLİ, H., **"**Qarabağ xanlığının banisi Pənahəli xan haqqında yeni məlumatlar", *Azərbaycan SSR EA Xəbərləri*, Tarix, fəlsəfə və hüquq serriyası, 1991, №1.

ƏLİYEV, F., *XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri,* Az.SSR, EA nəşriyyatı, Bakı 1960.

ƏLİYEV, İ., "Şuşa", *Dirçəliş XXI əsr*, 2000, №10 (32), s. 46-53.

FƏTULLAYEV, Ş., *Qradostroitelstvo i arxitektura Azerbaydjana XIX- naçala XX veka,* Leninqrad, 1986.

İBRAQİMBEYLİ, X., *Rossiya i Azerbaydjan v pervoy tretu XIX veka (İz voenno-politiçeskoy istorii),* Moskva 1969.

*K istorii obrazovaniya Naqorno-Karabaxskoy Avtonomnoy Oblasti Azerbaydjanskoy SSR*. Dok. i materialı, Baku 1989.

*Kavkazskiy kalendar na 1917* q. Otdel statisticestkiy

KÖÇƏRLİ, F., *Azərbaycan ədəbiyyatı*, İki cilddə, C. I, Elm, Bakı 1978.
*Qarabağnamələr*, Birinci kitab, Yazıçı, Bakı 1989.

MƏMMƏDOVA, H., *Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920),* Nağıl Evi, Bakı 2006.

MİR MÖHSÜN, N., *1905-1906-cı illərdə erməni-müsəlman davası*, Azərbaycan nəşriyyatı, Bakı 1993.

MİRZƏ, A., Qarabağnamə, *Qarabağnamələr*, Birinci kitab, Yazıçı, Bakı 1989.

MİRZƏ, C.C., *Qarabağ tarixi, Qarabağnamələr*, Birinci kitab, Yazıçı, Bakı 1989.

MUSTAFAYEV, C., "Şuşa şəhərinin əsasının qoyulması tarixi haqqında bəzi mülahizələr",*Tarix və onun problemləri*, 1998, №1.

*Müharibə və tarixi-mədəniyyət abidələrimiz. İşğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar*, Bakı 2006.

*Opisanie Karabaqskoy provincii*, Sostavl. v 1823 qodu po rasporyajeniyu qlavnoupravlyayuşeqo v Qruzii Yermolova, Tiflis 1866, Pereizd, Baku 2003.

ORDUBADİ, M. S., *Qanlı illər*, Qarabağa Xalq Yardımı Komitəsi, Bakı 1991.

SALAMZADƏ, A., AVALOV,E.ve SALAYEVA,R., *Problemı soxraneniya i rekonstruktcii istoriçeskix qorodov Azerbaydjana*, Elm, Baku 1979.

ŞUKUROV, K., "Kyurekçayskiy doqovor: ob osnovnıx polojeniyax, pretvorenii v jizn i posledstviyax uprazdneniya*". Kyurekçayskiy doqovor – 200*, Bakı, 2005.

.........................., *Azərbaycan xanlıqları. Dövlət müstəqilliyi uğrunda mübarizə,* Azərbaycan tarixi, Təhsil, Bakı 2009.

*Zəfər yolu: Qarabağ savaşından Şuşa bəyannaməsinədək*, Bakı 2021.




*Akademik Tarih ve Düşünce Dergisi*
2022
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.272

# Vətən(II. Qarabağ) Müharibəsinin İnformasiya Təminatinda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rolu

**Tofiq Mustafasadə***
**ORCİD: 0000-0002-9674-9096**

**Xülasə**

Azərbaycanın erməni işğalçılarına qarşı Vətən Müharibəsində cəbhədə olduğu kimi, informasiya müharibəsində də mübarizənin əsas ağırlığını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çiyinlərində daşımışdır. O, Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq,düşmən dezinformasiyasını ifşa etmək,erməni və ermənipərəst dairələrin dünya ictimaiyyatı,dünya liderlərinə təsirini azaltmaq üçün müharibə dövründə dünyanın müxtəlif kütləvi informasiya vasitələrinə 30-a qədər dərin məzmunlu müsahibə vermişdir. Məqalədə Prezidentin müsahibələr verdiyi kütləvi informasiya vasitələri şərti olaraq qruplara bölünmüş və təhlil edilmişdir.Göstərilir ki,Türkiyə televiziya kanallarına,"Əl-Cəzirə"və "Əl-Ərəbiyyə" kimi tanınmış ərəb  telekanallarına müsahibələrində Azərbaycan Prezidenti hər şeydən əvvəl müharibə ilə bağlı həqiqətlərin,Azərbaycanın haqq səsinin dünya ictimaiyyatına çatdırılmasına çalışırdı. İlham Əliyevin Rusiya media qurumlarına müntəzəm müsahibələri isəRusiya ictimaiyyətində Azərbaycanın xeyrinə ovqatların formalaşmasına böyük təsir göstərdi. O, Qərb dövlətlərinin ermənipərəst və antitürk ovqatlı aparıcı media qurumlarının nümayədələrinin  bilərəkdən verdikləri çaşdırıcı,qərəzli və fitnəkar suallara təmkinini pozmadan cavab verir, polad məntiqi ilə onların ittihamlarını puça çıxarır, aparcıların qərəzli mövqeyini  ifşa edərək özlərini çətin və gülünc duruma salırdı. Bu müsahibələr əsil " master dərsləri"nə çevrilirdi.

**Açar sözlər:** İlham Əliyev, Informasiya Təminatı, KİV-Lər, 44 Günlük Müharibə

**Gönderme Tarihi: 20/08/2022** **Kabul Tarihi:18/11/2022**

---

* *Prof. Dr., Azerbaycan Milli İlimler Akademisi.  A. Bakihanov adına Tarih Enstitüsü, Bakı- Azerbaycan tofiq.mustafazade@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
MUSTAFAZADƏ T, "Vətən (II Qarabağ) müharibəsinin informasiya təminatında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rolu'', *Akademik Tarih ve Düşünce Dergisi  Azerbaycan Kültür Başkenti  Şuşa'nın 270. Yılı Armağan Sayısı*, 2022, s. 16-38.

# The Role of the President of Azerbaijan İlham Aliyev in the Provision of Information During the Patriotic War (II. Karabakh)

**Tofig Mustafazadeh***
**ORCİD: 0000-0002-9674-9096**

**Abstarct**

During the Patriotic (II Karabakh) War against the Armenians, the President of the Azerbaijan Republic Ilham Aliyev was on the front in the war and had another war that calls - the informational war. He gave more than 30 interviews to the world's mass media. In this article, the President's interviews are divided into the groups. Showed the Turkish TV channels and famous Arabian channels like "Al-Jazeera" and "Al-Arabia" Ilham Aliyev, above all, tried to convey the truth about the war and the right voice of Azerbaijan to the world public. He gave regular interviews to Russian media organizations. Ilham Aliyev's interviews with Russian media organizations had a material impact on the formation of opinions in favor of Azerbaijan in the Russian public. He calmly answered confusing, biased, and seditious questions from representatives of leading pro-Armenian and anti-Turkish media outlets in Western countries, refuting their accusations and exposing the biased position of the announcers, putting them in a scrape and ridiculous situation.These interviews turned into a real "master classes".

**Keywords:** Ilham Aliyev, information provision, Mass Media, 44 days war

**Received Date: 20/08/2022** **Accepted Date: 18/11/2022**

* *Prof. Dr., Azerbaijan National Academy of Sciences. Institute of History named after A. Bakihanov, Baku-Azerbaijan tofiq.mustafazade@mail.ru*

# РОЛЬ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИЛЬХАМА АЛИЕВА В ИНФОРМАЦИОННОМ ОБЕСПЕЧЕНИИ ОТЕЧЕСТВЕННОЙ (II КАРАБАХСКОЙ) ВОЙНЫ

**Тофиг Мустафазаде***
**ORCİD: 0000-0002-9674-9096**

**Резюме**

Во время Отечественной(IIКарабахской) войны Азербайджана с армянскими оккупантами и на информационной войне как и на фронте, основная тяжесть лежала на плечах Президента Азербайджанской Республики Ильхама Алиева. Чтобы довести голос истины азербайджанского народа до мировой общественности, разоблачить армянскую дезинформацию, уменьшить влияние армянских и проармянских кругов на мировых лидеров, Президент Азербайджана в период войны дал около 30 интервью различным средствам массовой информации. В статье средства массовой информации,которым Президент давал интервью условно поделены на группы и вск интервью проанализированы. Показывается,что в беседах спредставителями турецких телеканалах и арабских каналах «Эль-Арабия», «Эль-джазира» Ильхам Алиев прежде всего старался довести до мировой общественности справедливый голос Азербайджана.Его интервью российским средствам массовой информации оказали большое влияние на формирования настроений в пользу Азербайджана. В беседах с проармянскими и антитюркскими медийными образованиями Президент Азербайджана, проявляя выдержку и спокойствие выслушивал тенденциозные и провокационные вопросы, а затем своей стальной логикой обличал предвзятую позицию ведущих, ставя их трудное положение. Эти интервью превращались в настоящие «мастер-классы».

**Ключевые слова:** Ильхам Алиев, информационное обеспечение, СМИ, 44-дневная война

**Получено: 20/08/2022** **Принято: 18/11/2022**

* *Профессор, доктор медицинских наук, Национальная академия наук Азербайджана. Институт истории имени А.Бакиханова, Баку-Азербайджан tofiq.mustafazade@mail.ru*

**Giriş**

Düşmən üzərində qələbənin qazanılmasında şanlı ordumuzun göstərdiyi qəhrəmanlıqlarla bərabər müharibənin diplomatik və informasiya təminatı da mühüm rol oynamışdır.Bu işdə isə Müzəffər Ali Baş Komandan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əvəzedilməz rolu xüsusi qeyd edilməlidir. Vətən müharibəsi dövründə inrormasiya savaşının əsas ağırlığını təkbaşına öz çiyinlərində daşımış İlham Əliyevin müstəsna rolunu açıb göstərməyə qələmimizin gücü çatmasa da hər halda biz mövzunun işıqlandırılmasına kiçik də olsa öz töhvəmizi vermək üçün bu məqaləni yazmağı qərara aldıq.

1. **Azərbaycan və dünya ictimai rəyinin Azərbaycanın xeyrinə hazırlanması yönündə fəaliyyət**

Məlumdur ki, Birinci Qarabağ savaşında Azərbaycan döyüş meydanında olduğu kimi, ölkəmizin beynəlxalq səviyyəli mətbu orqanları və informasiya agentlikləri olmadığından, dünya informasiya vasitələrinə çıxış imkanları məhdud olduğundan informasiya müharibəsində də uduzmuşdu. Təsadüfi deyil ki, Azərbaycan təcavüzə məruz qaldığı, ermənilər azərbaycanlılara qarşı soyqırım cinayətləri törətdikləri halda aparıcı qərb dövlətlərinin rəhbərləri Azərbaycanı qınayır, ona qarşı sanksiyalar tətbiq edirdilər. Dünya erməni diasporunun geniş imkanları haqlı Azərbaycanın dünyada haqsız, ədalətsiz kimi, işğalçı Ermənistanın isə "zavallı", "vəhşi müsəlmanlar tərəfindən əzilən və hüququ tapdanan millət" kimi təqdim edilməsinə səbəb olmuşdu.[1] I . Qarabağ müharibəsini uduzsa da mübarizə əzmi qırılmayan Azərbaycan xalqı öz torpaqlarını düşmən tapdağından xilas etmək üçün mübarizəni davam etdirirdi. İlk növbədə ölkə ətrafında yaradılmış informasiya blokadasını yarmaq lazım idi. 1993-cü il iyunun15-də yenidən respublikanın ali rəhbərliyinə gətirilən dünya şöhrətli müdrik siyasətçi Heydər Əliyevin titanik işi sayəsində bu vəzifə yerinə yetirildi, Qarabağ həqiqətləri dünyaya çatdırıldı.

Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev düşmənin sülh yolu ilə işğal olunmuş torpaqlarımızdan çıxmayacağını, xeyli dərəcədə ermənipərəst mövqedə duran dünya liderlərinin təcavüzkara lazımi təzyiq göstərməyəcəyini, problemin yalnız hərb yolu ilə həll olunması zəruriyyətini anladığından ölkəni addım-addım müharibəyə hazırlayır, ordunun qüdrətini artırır, müdafiə sənayesini gücləndirirdi. O, eyni zamanda qarşıdakı müharibənin taleyinin yalnız hərbi əməliyyatların gedişindən deyil, həm də informasiya cəbhəsində aparılan savaşdan asılı olduğunu anlayırdı. Buna görə də ölkənin müdafiə qüdrətini yüksəltməklə yanaşı diplomatiya və informasiya cəbhəsində də illər idi ki, hazırlıq görürdü.

[1] Bəxtiyar Sadıqov, *İlham Əliyev informasiya müharibəsinin də qalibidir,* Vətən müharibəsi tarixi, Şəxsiyyət faktoru (27 sentyabr-10 noyabr 2020-ci il), Şərq-Qərb, Bakı 2021, s. 249-250.

İlham Əliyev hələ 3 oktyabr 2014-cü ildə müasir dünyanın aktual məsələlərinin müzakirə edildiyi və əməkdaşlığın dərinləşməsi üçün tövsiyələr verilən ən mühüm beynəlxalq məkanlardan biri olan "Valday" diskussiya klubunun XVI illik iclasının plenar iclasında çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinin daimi diskussiyaların mövzularından biri olduğuna toxunaraq Dağlıq Qarabağ və Azərbaycanın digər 7 rayonunda 25 ildən çox erməni işğalının davam etdiyini nəzərə çatdırıb, Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu vurğuladı. O, Dağlıq Qarabağın kimə məxsusluğu ilə bağlı çox vaxt reallığı əks etdirməyən geniş fikir müxtəlifliyi olduğunu qeyd edərək məsələyə aydınlıq gətirmək üçün tarixə qısa ekskurs edərək demişdir ki, 1921-ci ildə RK (b) P(Rusiya Kommunist(bolşeviklər)Paryiyası Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın erməni tərəfinin interpretasiya etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir. Prezident münaqişə nəticəsində Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhalinin – 700 mindən çox adamın qovulduğunu qeyd etmiş, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsini və 25 ildən çox müddət keçməsindən baxmayaraq qətnamələrin yerinə yetirilmədiyini bildirmişdir. Azərbaycan Prezidenti haqlı olaraq qeyd etdi ki, əgər 25 ildən çox müddətdə ali beynəlxalq orqan olan BM TŞ-nın qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu həmin təşkilatın səmərəliliyi ilə bağlı bir sıra suallar doğurur. Halbuki, TŞ-nın qərarları bəzən bir neçə gün ərzində, bəzən isə müəyyən hərbi əməliyyat keçirilməsi yolu ilə yerinə yetirilir. Azərbaycanla bağlı qətnamələr isə kağız üzərində qalır.[2] Ermənistan Baş nazirinin son vaxtlar tez-tez təkrarladığı "münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağ xalqı üçün məqbul olmalıdır" kimi fikrinin əsassızlığını sübut edən cənab İlham Əliyev "Dağlıq Qarabağ xalqı" məfhumunun mövcud olmadığını, yalnız Dağlıq Qarabağın əhalisi olduğunu, bu əhalinin də münaqişə başlayana qədər azərbaycanlılardan və ermənilərdən ibarət olduğunu, münaqişənin Azərbaycan üçün həll variantının Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarət olduğunu bəyan etdi.[3]

Daha sonra Ermənistan Baş nazirinin "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" barədə bəyanatına toxunaraq Cənab İlham Əliyev bunun aşkar yalan olduğunu, dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi tanındığını qeyd edərək bəyan etdi: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".[4]

---

[2] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Valday" beynəlxaq Diskussiya klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı, Zəfər salnaməsi, Şərq-Qərb, Bakı 2021, s. 10-11.
[3] Zəfər salnaməsi, s. 11.
[4] Zəfər salnaməsi, s. 13.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhəddinin Tovuz rayonu istiqamətində 2020-ci il iyulun 12-də başlamış hərbi təxribatı ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 iyul 2020-ci il tarixdə Azərbaycan Respublikası Təhlükəsizlik Şurasında etdiyi çıxışda düşmənin növbəti təxribatı nəticəsində bir neçə hərbçimizin, eyni zamanda mülki şəxslərin həlak olduğunu, düşmən təxribatının qarşısının qətiyyətlə alındığını qeyd edib, Ermənistanın hərbi-siyasi rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətini ifşa edərək bütün məsuliyyətin onun üzərinə düşdüyünü sübut etdi. Respublika Prezidenti Ermənistan rəhbərliyinin bir tərəfdən beynəlxalq ictimaiyyətə müraciət edərək Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejimini möhkəmləndirmək üçün kömək xahiş etdiyini, digər tərəfdən də hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək, mövqelərimizi zəbt etmək istədiyini, mülki əhalini, kəndlərimizi atəşə tutduğunu bildirdi, eyni zamanda bu çirkin və məkrli siyasətin Ermənistanı uçuruma aparacağı barədə xəbərdarlıq etdi.[5] Prezident bəyan etdi: "… mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin."[6] Bu əslində Ermənistan rəhbərliyinə ünvanlanmış bir mesaj, xəbərdarlıq idi. Ermənistan rəhbərliyinə öz çirkin, məkrli siyasətindən, təxribatlardan əl çəkib məsələni dinc yolla nizamlamağa son çağırış idi və belə hərəkətlərinə davamın onun sonunu gətirəcəyi haqqında xəbərdarlıq idi.

Ermənistanda daxili vəziyyət böhran həddinə çatmışdı, eyni zamanda Azərbaycanın son vaxtlar əldə etdiyi beynəlxalq uğurlar erməniləri çox narahat edir, onlarda paxıllıq hisslərini daha da gücləndirirdi. Xüsusilə Azərbaycan Respublikası Prezidentinin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyətini, son müddət ərzində bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi Ermənistanın münaqişə ilə bağlı mövqelərinə ciddi zərbə vurmuşdu. Azərbaycan rəhbərinin mötəbər kürsülərdən müntəzəm olaraq həm müharibənin tarixi ilə, həm bölgənin tarixi ilə bağlı gətirdiyi konkret faktlar ermənilərin təbliğatını alt-üst edirdi.Azərbaycan Prezidenti qeyd etdi ki, bütün dünya Dağlıq Qarabağın əzəli, tarixi Azərbaycan torpağı olduğun bilir və Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bir müddət əvvəl burada keçirilmiş qondarma "seçkilər" nəinki heç bir ölkə tərəfindən tanınmamışdır, hətta bütün aparıcı beynəlxalq təşkilatlar, qonşu ölkələr və bu məsələ ilə bağlı olan ölkələr həmin seçkiləri pisləmişdir.[7] Son vaxtlar Azərbaycanın beynəlxalq arenada çox böyük uğurlar qazanması, onun təşəbbüsü ilə beynəlxalq təşkilatların zirvə görüşlərinin keçirilməsi, BMT

---

[5]Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında çıxışı.13.072020//https:president.az/articles/40969(10.10.2022) ; Zəfər salnaməsi, s. 15.
[6] https://president.az/articles/40969 (10.10.2022); Zəfər salnaməsi, s. 15
[7] https://president.az./articles/40969(10.10.2022); Zəfər salnaməsi, s. 16.

Baş Assambleyasının xüsusi sessiyasının baş tutması, Ermənistanın isə beynəlxalq arenada bütün dayaqlarını itirməkdə olması da Ermənistan rəhbərliyini qıcıqlandırır, özündən çıxarır təxribatlara sövq edirdi.

**2. Müharibənin informasiya təminatı sahəsində fəaliyyətin əsas istiqamətləri**

2020-ci il sentyabrın 27-də Ermənistan .silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini, eyni zamanda hərbi mövqeləri atəşə tutması ilə II Qarabağ (Vətən) müharibəsi başlayan kimi Azərbaycan Prezidenti informasiya müharibəsində təşəbbüsü ələ aldı.

Hamıya məlumdur ki,müharibə dövründə rəqiblər hər vasitə ilə,ilk növbədə dezinformasiya yolu ilə qarşı tərəfdə çaşqınlıq və vahimə yaratmağa çalışır.Bunu nəzərə alan İlham Əliyev elə döyüşlər başlayan gün-2020-ci il sentyabrin 27-də televiziya ilə xalqa müraciət etdi və Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə Azərbaycanın yaşayış məntəqələrini,Azərbaycan Ordusunun mövqelərini atəşə tutduğunu, mülki əhali və hərbçilər arasında itkilər olduğunu bildirdi.[8] Müraciətinin sonunda Prezident Azərbaycanın haqq yolunda olduğunu vurğulayaraq qələbəyə inamını ifadə etdi. “Qarabağ bizimdir. Qarabağ Azərbaycandır!”[9] Sonuncu kəlmələr bütün xalq arasında geniş yayılan,hamı tərəfindən təkrarlanan bir zərb-məsələ çevrildi. Sonralar da Prezidentin xalqa müraciətləri oldu.İlham Əliyevin cəbhədə vəziyyət,qazanılan qələbələr haqqında doğru-dürüst məlumatlar verməsi düşmənin Azərbaycan xalqı içərisində çaşqınlıq və vahimə yaratmaq cəhdlərini tamamilə puça çıxartdı. Hamı yalnız Prezidentinə inanır və axşamlar televiziya qarşısında oturub səbrsizliklə Prezidentin verəcəyi məlumatı, qələbə müjdələrini gözləyirdi.

Xalqa müraciətlərində cənab İlham Əliyev aparılan müharibənin Azərbaycan xalqının beynəlxalq hüquq normalarından irəli gələn haqqı olduğunu əsaslandıraraq xalqını,eləcə də dünyanın obyektiv düşünən adamlarını müharibənin Azərbaycan üçün ədalətli müharibə olduğuna inandırdı. İlham Əliyev böyük liderlik keyfiyyətləri nümayiş etdirərək xalqı öz ərafında biləşdirməyi bacardı. Xalqda görünməmiş bir coşqu vardı, hamı qələbə üçün nə isə etmək istəyirdi. Beləliklə də əks-hücum əməliyyatları sözün əsil mənasında Vətən müharibəsinə çevrildi.

Prezident İlnam Əlievin xalqa müraciətləri ardıcıl və sistemli xarakter daşımış,mənasına, informasiya bazasına,təsir qüvvəsinə görə Vətən müharibəsində Azərbaycan dövlətinin və xalqının mövqeyini açıq və aydın şəkildə əks etdirmiş,xalqı qələbə ətrafında birləşdirmiş, onun birliyini təmin etmişdir.[10] Müasir müharibələr hibrid müharibələr olduğundan, yəni müharibə yalnız döyüş meydanında deyil, digər müstəvilərdə, o cümlədən

---

[8] Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti, 27.09.2020-ci il//https://president.az/articles/40968. (10.10.2022).
[9] Yenə orada; Zəfər yolu: *Qarabağ savaşından Şuşa Bəyannaməsindək*, Elm, Bakı 2021, s. 16.
[10] Zəfər yolu, s. 4.

informasiya müstəvisində də aparıldığından Azərbaycanın Müzəffər Ali Baş Komandanı İlham Əliyev düşmənə qarşı informasiya savaşında hamıdan öndə gedir, erməni yalanlarının ifşa olunmasında, xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynayırdı.

II Qarabağ (Vətən) müharibəsinin getdiyi 44 gün ərzində İlham Əliyev Türkiyə, Rusiya ABŞ, Fransa, İtaliya, Almaniya, İngiltərə, İspaniya, Yaponiya və Qətərdən olan tanınmış, on milynyonlarla, yüz milyonlarla auditoriyası olan nəhəng media qurumlarının əməkdaşlarına 30-a yaxın müsahibə verərərək xalqının haqq səsini dünyaya çatdırdı, dünya ictimai fikrində dövlətimizə qarşı mənfi reaksiyanın yaranmasına imkan vermədi.İlham Əliyev müsahibələrində jurnalistlərin müxtəlif səpkili suallarına səlist, məntiqli cavablar verir, dünya ictimaiyyətinə Ermənistanın işğalçı üzünü tanıdır, Azərbaycanın haqq işi uğrunda mübarizə apardığını nəzərə çatdırırdı.

Tədqiqatçılar hesablamışlar ki,bu müharibə zamanı Azərbaycan Prezidenti 600-dan çox sualı cavablandırmışdır.[11] Azərbaycan Prezidenti öz müsahibələrində konkret dəlillərə, beynəlxalq təşkilatların qərarlarına, beynəlxalq hüquq prinsiplərinə, tarixi faktlara istinad edirdi. İlham Əliyev xarici media qurumları nümayəndələrinə verdiyi müsahibələrdə həm Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırır, ATƏT-in Minsk qrupunun, xüsusən də həmsədrlərin hərəkətsizliyini, təcavüzkarı işğal etdiyi əraziləri boşaltmaq üşün heç bir təsirli vasitəyə əl atmadığını, BMT Təhlükəsislik Şurasının işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz boşaldılmasını nəzərdə tutan 4 qətnaməsinin yerinə yetirilmədiyini diqqətə çatdırırdı. İlham Əliyev Ermənistanın Baş naziri Nikol Paşinyanın danışıqları pozduğunu, üstəlik Azərbaycana qarşı açıq təxribatlar törətdiyini, müharibənin Ermənistan tərəfindən başladıldığını, Azərbaycanın adekvat cavablar verdiyini, Ermənistan ordusununAzərbaycandakı mülki əhaliyə və mülki obyektlərə ballistik raketlərlə zərbələr endirdiyini bildirirdi.

Azərbaycan Respublikası Prezidentinin müsahibə verdiyi media qurumları nümayəndələrini şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Azərbaycana dost münasibətdə olanlar-Türkiyə və Qətər telekanallarının nümayəndələri;

2.Bitərəf mövqedə duran media qurumlarının nümayəndələri;

3.Rusiya KİV-lərinin nümayəndələri;

4.Azərbaycana qarşı qərəzli mövqedə olan media qurumları nümayəndələri.

Azərbaycan Prezidenti müsahibə verdiyi hər bir şəxsin nə məqsəd güddüyünü anlayır və buna uyğun cavablar verirdi.

[11] Zəfər yolu, s. 7.

### 3. Türkiyə tele kanallarına müsahibələr Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasının bir vasitəsi kimi

Azərbaycanın haqq səsinin dünya ictimayyətinə çatdırılmasında Türkiyə kütləvi informasiya vasitələrinin böyük iş gördüyünü də qeyd etmək lazımdır. Hər gün gecə-gündüz Türkiyənin aparıcı televiziya kanalları, digər mətbu orqanları II Qarabağ müharibəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırırdılar.

Bunu nəzərə alan Prezident İlham Əliyev II Qarabağ müharibəsi dövründə Türkiyə media qurumlarına dəfələrlə müsahibələr vermişdir. Oktyabrın 5-də «TRT Haber» televiziya kanalına, 7-də SNN televiziya kanalına, 12-də "Haber Global" kanalına, 13-də "Haber Türk televiziya kanalına, 16-da A Haber" kanalına müsahibələr vermişdir.

Oktyabrın 7-də "CNN-Türk" televiziyasına verdiyi müsahibədə Prezident İlham Əliyev Türkiyə media mənsublarının fəaliyyətini yüksək qiymətləndirərək demişdir:

"Bir çox hallarda bizim səsimiz eşidilmir. Bizə beynəlxalq platforma verilmir. Beynəlxalq media qurumları daha çox Ermənistanın tərəfini tuturlar və münaqişə ilə bağlı yalan məlumatlar yayırlar. Ona görə fürsətdən istifadə edərək qardaş Türkiyənin media mənsublarına təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu günlərdə bütün dünyaya bu savaşla bağlı həqiqətləri çatdırır, canlı efirdə məlumatlar verirlər".[12]

Türkiyə media nümayəndələrinə müsahibələrində Azərbaycan Prezidenti dünya liderlərinin atəşkəs çağırışlarına münasibət bildirərək qeyd etdi ki, sadəcə atəşkəsin bərpa edilməsi məsələsi müzakirə oluna bilməz,çox ciddi zəmanətlər verilməlidir, bu zəmanətləri beynəlxalq vasitəçilər təsdiq etməlidirlər. Yalnız Ermənistan işğal edilmiş torpaqlardan çıxmaq qrafiki, yəni cədvəli verməlidir, hansı gün, hansı bölgədən çıxacaq, o zaman müharibə dayanacaq. Azərbaycanara versə qarşı tərəf toparlanacaq, əlavə qüvvə yığacaq.[13] CNN Türk kanalına yuxarıada adını çəkdiyimiz müsahibəsində İ.Əliyev bu məqama da diqqəti cəlb etdi ki, Ermənistan mono etnik ölkə olduğu halda Azərbaycan multikultural ölkədir,"tolerantlıq,milli,dini dözümlülük məkanıdır", burada müxtəlif xalqların nümayəndələri bir ailə kimi mehriban yaşayır.[14] "Haber Global" televiziya kanalına müsahibəsində yalvarışla atəşkəs arzulayan Ermənistanın atəşkəsi pozmasına münasibət bildirən İlham Əliyev dedi ki, bu ilk növbədə Ermənistanın terror mahiyyətindən irəli gəlir. Bütün cəbhə boyu istiqamətlərdə məğlubiyyətə uğrayan Ermənistan öz heyfini mülki

---

[12] Azərbaycan Prezidenti İlham Əliyevin «CNN-Türk" televiziyasına müsahibəsi, 07 oktyabr 2020-ci il, Xalq qəzeti, 2020-ci il, 10 oktyabr, № 208 (29473), s. 8; Zəfər yolu, s. 205.
[13] Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibəsi, 05.10.2020, https://president.az/articles/41763(10.10.2022); Zəfətr salnaməsi, s. 74.
[14] Azərbaycan Prezidenti İlham Əliyevin CNN Türk televiziya kanalına müsahibəsi, 07 oktyabr 2020-ci il, Zəfər salnaməsi, s. 102.

şəxslərdən çıxır. Prezident həm də qeyd etdi ki, onda olan məlumata görə Paşinyan hazırda çox ağır sarsıntılar keçirir və buna görə qeyri-adekvat qərarlar verir.[15]

Türkiyə telekanalları vasitəsilə Azərbaycan Prezidenti ermənilərin Azərbaycanın mülki əhalisinə qarşı terror əməlləri haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırırdı."Haber Türk" televiziya kanalına müsahibəsində Moskvada 11 saat yarıma qədər davam edən görüşdə atəşkəs haqqında razılıq əldə ediləndən dərhal sonra Ermənistanın xüsusi qəddarlıqla Gəncə şəhərini atəşə tutması, mülki şəxsləri hədəfə almasından bəhs edərək Ermənistanın bu çirkin syasətinin anlaşılan olduğunu, onların hər zaman döyüş meydanında məğlubiyyətə uğrayan zaman belə çirkin əməllərə əl atdıqlarını qeyd edib, Ermənistanın bu xain hücumunun səbəbinin münaqişənin coğrafiyasını genişləndirmək, Ermənistan ərazisindən Azərbaycan ərazisini, mülki şəxsləri atəşə tutmaqla Azərbaycan tərəfini Ermənistan ərazisinə atəş açmağa təhrik etmək,bununla üzv olduğu KTMT-ni münaqişəyə cəlb etmək istəyi olduğunu söylədi.[16] Türkiyəli aparıcıların Azərbaycan Prezidenti ilə söhbətlərində toxunduqları məsələlərdən biri-Türkiyənin danışıqlar masasının arxasında olması məsələsinə münasibət bildirən İlham Əliyev demişdi ki, Türkiyə de-fakto artıq bu masanın arxasındadır, R.T.Ərdoğan Qarabağ məsələsi ilə bağlı Putinlə dəfələrlə görüşmüş, danışmışdır. Türkiyənin iştirakı olmasa Qarabağ məsələsi həll edilə bilməz.[17]

Prezident İlham Əliyev Türkiyənin "NTV" televiziya kanalına müsahibəsində də münaqişədə Türkiyənin roluna toxunaraq demişdir ki, reallıqlar, həqiqi vəziyyət ondan ibarətdir ki, bu gün Türkiyənin iştirakı olmadan bu bölgədə hər hansı bir məsələ həll edilə bilməz. Türkiyə prosesdə mütləq olmalıdır. Hansı statusda olacaq, bu texniki məsələdir. De-fakto artıq Türkiyə var.[18] İlham Əliyevin "A Haber" televiziya kanalına müsahibəsində diqqəti çəkən məqamlardan biri dövlət başçımızın Ermənistanın faşizm siyasəti ilə bağlı söylədikləridir. Prezident dedi: "Ermənistan faşizm siyasəti aparır, Türkiyəyə, Azərbaycana nifrəti aşılayır, uşaqlara türkləri düşmən kimi qələmə verir. Öz əhalisinin beyinlərini zəhərləyir. Yəni Ermənistanın işğalçılıq siyasətinin təməlində bu dayanır."[19] Prezident bu müsahibəsində Paşinyan və onun komandasının qatı antiRusiya mövqeyini açıb göstərməklə Rusiyada onu dəstəkləyən qüvvələrin gözlərini açmağa cəhd etdi. Prezident dedi: "... o, (Paşinyan – T.M) ruspərəst qüvvələrə qarşı inqilab etdi, ruspərəst prezidentləri həbsə atdı, ruspərəst ana müxalifət partiyasının sədrini həbsə atdı. Hər şeyi Rusiyanın əleyhinə etdi. Rusiyanın "Qazprom" şirkətinə, dəmir yolu şirkətinə cinayət işi açdı. Kollektiv Təhlükəsizlik

---

[15] Azərbaycan Prezident İlham Əliyevin Türkiyənin "Haber Global" kanalına müsahibəsi, 12.10.2020, Zəfər salnaməsi, s. 144.
[16] Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsi, 13.10.2020, Zəfər salnaməsi, s. 152; Zəfər yolu, s. 257; https://president.az./articles/42869.(10.10.2022).
[17] Zəfər salnaməsi, s. 158; Zəfər yolu, s. 263.
[18] Azərbaycan Prezidenti İlham Əliyevin NTV televiziya kanalına müsahibəsi. 15.10.2020, https://president.az/articles/43149(10.10.2022); Zəfər salnaməsi, s. 172; Zəfər yolu, s.280.
[19] Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsi, 16.10.2020., https://president.az/articles/43250(10.10.2022); Zəfər salnaməsi, s.196; s.312.

Müqaviləsi Təşkilatının, hansı ki, NATO tipli bir təşkilatdır, erməni əsilli sədrini həbsə atdı. Yəni bu, Sorosun sözü ilə oturub-duran bir adamdır. Bir də ki, onun komandasına baxın onların hamısı Soros Fondunun, Açıq Cəmiyyət Təşkilatının "Amnesty İnternational"ın nümayəndələridir. Yəni Soros Ermənistanda hakimiyyətə gəldi, amma iflasa uğradı."[20]

**4. Ərəb auditoriyasına müraciət**

Türkiyə televiziya kanalları ilə yanaşı Prezident İlham Əliyevin Ərəb aləmində böyük nüfuzu olan ərəb ölkələri telekanallarına müsahibələr verməsi də çox önəmli idi.O, "Əl-Cəzirə" televiziya kanalına 2 oktyabr 2020-ci il tarixli müsahibəsində bu kanalın islam aləminin ən aparıcı telekanallarından olduğunu nəzərə alaraq ermənilərin işğal etdikləri ərazilərdə bütün məscidləri dağıtdıqlarını, məscidlərdə donuz və inək saxlamaqla bütün müsəlmanları təhqir etdiklərini nəzərə çatdırdı.[21]

Ərəb aparıcıların qaldırdığı məsələlərdən biri ermənilərin çox əsaslandıqları xalqların öz müqəddəratını təyin etmə hüququ ilə bağlı məsələyə toxunan Prezident qeyd etdi ki, erməni təbliğatçıları beynəlxalq hüquq üzrə mütəxəssis olmayan sadə insanlardan ibarət beynəlxalq ictimai rəyi çaşdırmaq üçün tez-tez bu prinsipə əsaslanırlar. Lakin beynəlxalq hüququn Helsinki Yekun aktında əks olunan əsas prinsiplərə və BMT nizamnaməsinə görə öz müqəddəratını təyin etmə ölkələrin ərazi bütövlüyünə zərər vurmamalıdır, həm də erməni xalqı artıq öz müqəddəratını təyin etmişdir və müstəqil Ermənistan dövləti var. Bu gün dünyanın müxtəlif yerlərində ermənilər yaşayırlar. Onlar bu prinsipdən həmin ölkələrdə istifadə edə bilərlərmi? Prezident dedi: "Qoy Dağlıq Qarabağa öz müqəddəratını təyin etmə vermək istəyən ölkələr öz torpaqlarının bir hissəsini Dağlıq Qarabağdan olan ermənilərə versinlər, onları qəbul etsinlər və orada onlara öz müqəddəratını təyin etmə hüququ versinlər. Onda baxarıq onların reaksiyası necə olacaq".[22]

Prezident İlham Əliyev 4 oktyabr 2020-ci ildə "Əl-Ərəbiyyə" televiziya kanalına verdiyi video müsahibədə yenə də müharibənin başlanmasının günahkarının Ermənistan olduğunu, münaqişədən əvvəl Dağlıq Qarabağ əhalisinin 25 faizinin azərbaycanlılardan ibarət olması, Dağlıq Qarabağ ətrafındakı rayonlardan 700 mindən çox azərbaycanlının məcburi köçkünə çevrildiyini, evlərinin hamısının dağıdılması faktını telekanal izləyicilərinin diqqətinə çatdırdı.[23] Prezident guya Suriyadan gələn muzdluların Azərbaycan tərəfindən hərbi əməliyyatlarda iştirak etməsi barədə yayılan şaiyələri qətiyyətlə təkzib edərək Fransa prezidenti Emmanuel Makronun bir neçə dəfə ona zəng edərək hərbi əməliyyatların dayandırılmasını tələb etməsinə toxundu və dedi: "əgər Fransa Dağlıq Qarabağ üçün öz

---

[20] Zəfər salnaməsi, s.198; Zəfər yolu, s.313; https://president.az./articles/43250 (10.10.2022).
[21] Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Cəzirə" televiziya kanalına müsahibəsi, 02 oktyabr 2020-ci il, Zəfər salnaməsi, s. 54;https://president.az/ articles/41429(10.10.2022).
[22] Zəfər salnaməsi, s. 55; https://president.az/articles/41429(10.10.2022); Zəfər yolu, s. 166.
[23] Prezident İlham Əliyevin "Əl-ərəbiyyə" televiziya kanalına videomüsahibəsi, 4 oktyabr 2020-ci il, Zəfər salnaməsi, s. 64; Xalq qəzeti, 6 oktyabr, 2020-ci il, № 204.; https:president.az/articles/41712(10.10.2022); Zəfər yolu, s. 174.

müqəddəratını təyin etmə istəyirsə, qoy onlar (yəni fransızlar-T.M.) demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər. Qoy Korsikaya müstəqillik versin, qoy basklara müstəqillik versin. Niyə onlar bizdən Dağlıq Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var?"[24]

**5. Bitərəf KİV-lərlə iş**

Azərbaycan Prezidentinin Yaponiya və Qərbin nisbətən bitərəf mövqedə duran media qurumlarına müsahibələri xüsusi əhəmiyyət daşıyırdı.

Belə müsahibələrdən Yaponiyanın "Nikkei" qəzetinə müsahibəni (21 oktyabr), İtaliyanın "RAİ-1" telekanalına videomüsahibəsini (26 oktyabr), yenə İtaliyanın "La Republika" qəzetinə müsahibəsini (22 noyabr), İspaniyanın "Efe" agentliyinə müsahibəsini (04 noyabr) qeyd etmək lazımdır.

Yaponiyanın "Nikkei" qəzetinə verdiyi müsahibəsində müxbirin "Ermənistan desə ki, onlar, ilkin olaraq, beş rayonu boşaltmağa hazırdır, siz danışıqlara getməyə razı olarsınızmı?" sualının cavabında Prezident dedi ki, Azərbaycanın bütün rayonları boşaldılmalıdır, hansı mərhələdə hansı rayonun birinci, hansısa rayonun ikinci mərhələdə boşaldılması haqqında müzakirə aparmaq olar. [25]

"RAİ-1" telekanalının aparıcısı oktyabrın 26-da, sayca üçüncü, Vaşinqtonda razılaşdırılmış humanitar atəşkəsin qüvvədə qalıb-qalmayacağı barədə soruşduqda Prezident bunun Ermənistanın özünü necə aparacağından asılı olduğunu bildirdi. Çünki iki əvvəlki atəşkəsi məhz Ermənistan pozmuşdu.[26] Müsahibənin gedişində İtaliyada regional separatizmin dinc yolla nizamlanmasına dair Alto-Adic (Ziyudtirol) nümunəsinin olduğunu bildirən aparıcı, İtaliya Qarabağ münaqişəsinin həll edilməsi üçün öz təcrübəsi ilə konkret kömək edə bilərmi? sualını verdi. Prezident bu sualın cavabında qeyd etdi ki, Minsk qrupu yaradılan zaman onun ilk sədri İtaliya olub. Həmsədrlər təsisatı yaradıldıqdan sonra Minsk qrupu, əslində ölkələr qrupu kimi heç bir fəaliyyət göstərməyib, çünki həmsədrlər bu fəaliyyəti özlərinin inhisarına götürüblər.[27]

«La Repubblica» qəzetinin müxbiri onunla söhbətində N.Paşinyanın Dağlıq Qarabağda guya yeni soyqırım olmasından qorxduğunu söylədikdə Prezident bunun tamamilə yalan olduğunu, Azərbaycanda minlərlə erməninin yaşadığını, Ermənistanda və ya Dağlıq Qarabağda isə bir nəfər də azərbaycanlının qalmadığını qeyd etdi.[28]

---

[24] https://president.az/ articles/41712(10.10.2022); Xalq qəzeti, 6 oktyabr 2020-ci il; Zəfər yolu, s.175.
[25] Azərbaycan Prezidenti İlham Əliyevin Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsi, 21 oktyabr 2020-ci il, https:president.az//articles/43836(10.10.2022); Zəfər salnaməsi, s. 233; Zəfər yolu, s. 331.
[26] Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyanın "RAİ"1"televiziya kanalına müsahibəsi, 26 okryabr 2020-ci il//https:president.a./articles/44279(10.10.2022); Zəfər salnaməsi, s. 287; Zəfər yolu, s. 369.
[27] Zəfər salnaməsi, s. 350; Zəfər yolu, s. 372.
[28] Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyanın" La Repubblica" qəzetinə müsahibəsi, 02.11.2020-ci il//https:president.az/articles/453399(10.10.2022); Zəfər salnaməsi, s. 340-341; Zəfər yolu, s. 415.

Noyabrın 4-də İlham Əliyev İspaniyanın EFE agentliyinə videomüsahibə vermişdir. Aparıcının əgər ermənilər Dağlıq Qarabağın müstəqilliyini tanıyarlarsa, Prezidentin buna reaksiyasının necə olacağını soruşanda İlham Əliyev dedi ki, o, bundan qorxmur, həm də Paşinyanın bunu etməyə cürəti çatmaz.[29] Regionun muxtariyyətini qəbul etməyə hazırsınızmı? sualının cavabında Prezidentimiz söylədi ki, hərbi əməliyyatlar başlananadək Azərbaycan rəhbərliyi həmişə bəyan etmişdir ki, Avropada, Skandinaviyada, Aland adaları timsalında, İtaliyada Cənubi Tirol timsalında və bir çox başqa yerlərdəki nümunələr timsalında Dağlıq Qarabağa muxtariyyət verməyə hazır idi, onlar isə bunu rədd etmişlər. İndi isə Ermənistan işğal altındakı qalan əraziləri qaytarmaq barədə təsdiqlənmiş təqvim verməlidir və sonra gələcəkdə nə baş verəcək – onun haqqında danışmaq olar, bu məsələ ilə bağlı heç nə deyə bilməz.[30] Bununla da İlham Əliyev faktiki olaraq dünyaya bəyan etdi ki, regionun muxtariyyəti məsələsi artıq keçmişdə qalmışdır.

**6. Rusiya auditoriyasına erməni təbliğatının təsirinin azaldılması**

Hərbi-siyasi qüdrətinə və regiona təsir imkanlarına görə Vətən müharibəsi zamanı Rusiyanın tutacağı mövqenin böyük önəmi vardı. Ədalət naminə demək lazımdır ki, RF Prezidenti V.Putin müharibənin əvvəlindən təmkinli, bitərəf mövqe tutmuş, Paşinyanın onu münaqişəyə qoşulmaq çağışırlarına məhəl qoymamışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, Rusiyada mühüm mövqelərə malik olan ermənipərəst qüvvələr Azərbaycan əleyhinə qara piyar apararaq Rusiya ictimaiyyətini aldatmağa, beləliklə də Putinə ictimai təzyiq göstərilməsinə nail olmaq istəyirdilər. Buna görə də Prezident İlham Əliyev Rusiya media qurumlarına müntəzəm müsahibələr verirdi.

44 günlük müharibə ərzində Prezident İlham Əliyev Rusiyanın “Rossiya-1” telekanalının “60 dəqiqə proqramında çıxış etmiş, “Pervıy Kanal” telekanalına (6 oktyabr 2020-ci il), 10 oktyabr 2020-ci il tarixində Rusiyanın “RBK” televiziya kanalına, oktyabrın 15-də Rusiyanın Ria Novosti agentliyi üçün “Rossiya Seqodnya” Beynəlxalq informasiya agentliyi media qrupunun baş direktoru Dmitri Kiselyova, oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə müsahibələr vermişdir.

Müharibənin elə üçüncü günündə “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında Prezident İlham Əliyev öz məntiqi, qətiyyəti fikrini sərrast ifadə etməsi ilə Ermənistan baş nazirinin miskin, məntiqsiz çıxışı ilə müqayisə olunmaz dərəcədə yüksək intelektini sübut etdi və beləliklə on milyonlardan ibarət auditoriya qarşısında ölkəmizin haqlı mövqeyini müdafiə edərək Rusiya ictimaiyyətində Azərbaycanın xeyrinə ovqatların formalaşmasına böyük təsir göstərdi.

---

[29]Azərbaycan Prezidenti İlham Əliyevin İspaniyanən EFE informasiya agentliyinə videomüsahibəsi, 04.11.2020-ci il, https:president.az./articles/45475/ s.350(10.10.2022); Zəfər yolu, s. 425.
[30] https://president.az/articles/45475(10.10.2022); Zəfər salnaməsi, s. 350; Zəfər yolu, s. 425-426.

Telekanal aparıcısının hərbi münaqişədə Türkiyənin iştirakı barədə sualının cavabında prezident qeyd etdi ki, Türkiyə regionda sabitləşdirici rol oynayır. Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini bildirib. Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu feyk-nyusdur. Azərbaycan ordusu öz xalqının və ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır. Aparıcı, prezidentin danışığına müdaxilə edib guya Türkiyə Hərbi Hava qüvvələrinin Ermənistan Hərbi Hava qüvvələrinə məxsus təyyarəni vurduğunu söylədikdə İlham Əliyev Türkiyə HHQ-yə məxsus "F-16" təyyarələrinin döyüş əməliyyatlarında heç bir halda iştirak etmədiyini, müasir texnologiyaların bunu təsdiq etmədiyini söyləyərək, erməni tərəfin bu cür yalan xəbərlər yaymaqda məqsədinin əvvəla, Azərbaycan ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaqdan, həmçinin münaqişənin genişlənməsi barədə təsəvvür yaratmaqdan ibarətdir ki, öz təxribatına mümkün qədər çox ölkə cəlb edə bilsin.[31]

Müsahibədə İlham Əliyev qeyd etdi ki, Azərbaycan tərəfi Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prosesinə sadiqdir, Ermənistan isə qeyri-konstruktiv mövqeyi ilə danışıqlar prosesini pozur. Ermənilər təxribata şüurlu surətdə gedirlər. Prezident bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən Ermənistanın müharibəyə hazırlaşdığını və onu dayandırmaq lazım gəldiyini demişdir.[32]

Dövlət başçısı müsahibəsində ermənilərin ardıcıl hərbi təxribatlarından, nümayişkaranə şəkildə Livandan olan ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində, Şuşa şəhərində məskunlaşmasını elan etməsindən bəhs edərək bunun da müharibə cinayəti olması, Cenevrə Konvensiyasının pozulması demək olduğunu dedi.Ermənilərin Şuşada-Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma innuqurasiyasını keçirdiyini və bununla da Azərbaycan xalqının heysiyyətinə toxunduqlarını diqqətə çatdırdı.[33]

Videogörüş zamanı İlham Əliyev suallara sərrast,məntiqi cavabları iləəksər izləyicilərin rəğbətini qazandığı halda, Ermənistan Baş naziri Nikol Paşinyan qırıq-qırıq,məntiqsiz cavabları ilə öz cılızlığını, misginliyini nümayiş etdirərək gülünc vəziyyətə düşürdü.Təsadüfi deyil ki, tanınmış rusiyalı politoloq, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko dedi: "Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim.İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqi,düzgün,ardıcıl çıxış etdi..."[34]

---

[31] Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-1" telekanakının "60 dəqiqə" proqramında, 29 sentyabr 2020-ci il, Zəfər salnaməsi, s.30-31;https://president.az/articles/41172(10.10.2022); Zəfər yolu, s. 149.
[32] Zəfər salnaməsi, s. 31; https://president.az/articles/41172(10.10.2022), Zəfər yolu, s. 151.
[33] Zəfər salnaməsi, s. 32-33; Zəfər yolu, s. 151; https://president.az/articles/41172 (10.10.2022).
[34] https://president.az/articles/41172(10.10.2022); Zəfər yolu, s. 155.

6 oktyabr 2020-ci ildə Prezident İlham Əliyev Rusiyanın “Pervıy Kanal” televiziya kanalına müsahibəsində Fransa prezidentinin guya müharibədə Azərbaycan tərəfindən muzdluların iştirak etməsi haqqında ittihamına cavab verərək söylədi ki, E.Makron ilə telefon danışığında o, Azərbaycanın mövqeyini kifayət qədər əsaslandırılmış şəkildə müdafiə etmiş, sübutlar təqdim etməsini, əgər belə sübutlar yoxdursa, onda Azərbaycan xalqından üzr istəməsini xahiş etmişdir. Azərbaycan Prezidenti Makrona demişdir ki, bizim muzdlulara ehtiyacımız yoxdur, çünki Azərbaycan ordusu beynəlxalq reytinqlərə görə dünyanın 50 ən güclü ordusunun biridir, ehtiyatda olanlar, döyüşə hazır olan digər hərbiləşdirilmiş dəstələr nəzərə alınmasa Azərbaycanın nizami ordusunda 100 min döyüşçü var.[35]

Prezident İlham Əliyev TASS İnformasiya agentliyinə müsahibəsində,aparıcı, yeddi rayonun mərhələli şəkildə Azərbaycana qaytarılması, Dağlıq Qarabağın qəti statusu müəyyənləşdirilənədək Laçın dəhlizinin Ermənistanın nəzarəti altında saxlanılması şərti ilə nizamlamağa Azərbaycanın razı olub-olmaması barədə soruşduqda İlham Əliyev bildirdi ki, Laçın dəhlizi baza prinsiplərinin tərkib hissəsidir, lakin təkcə Laçın dəhlizi deyil, bütün kommunikasiyalar, həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiyalar açılmalı və Ermənistan bu dəhlizin təhlükəsizliyinə zəmanət verməlidir.[36]

Oktyabrın 28-də İlham Əliyevin Rusiyanın İnterfaks agentliyinə müsahibəsi zamanı aparıcı maraqlı bir sual verdi: «Bakı yalnız Dağlıq Qarabağın ətrafındakı yeddi rayonla kifayətlənməyə hazırdırmı?».[37] Sualın cavabında Prezident bildirdi ki, azərbaycanlılar Dağlıq Qarabağın ətrafındakı 7 rayona qayıtmaqla bərabər, Dağlıq Qarabağın özünə də qayıtmalıdırlar.[38]

Azərbaycan Prezidentinin yaxın vaxtlarda verdiyi açıqlamasında Dağlıq Qarabağda heç bir referendum olmayacağını deməsi Azərbaycanın öz mövqeyini dəyişməsi, yaxud ilkin mövqeyinin sərtləşməsi kimi qiymətləndirmək kimi başa düşülməlidirmi barədə aparıcının sualına cavabında İlham Əliyev dedi ki, o, həmişə bu mövqedə olmuşdur: «…biz Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəyik. Əgər kimsə ermənilər üçün ikinci dövlət yaratmaq istəyirsə, qoy öz ərazisinin bir hissəsində yaratsın”.[39]

**7. Azərbaycan Prezidenti qərəzli media nümayəndələrini susdurur və Azərbaycanin mövqeyinin haqlı olduğunu sübut edir**

Qərbin ermənilərin təsiri altında olan və ya hansı səbəbdənsə antiAzərbaycan,antiTürkiyə mövqeyində duran media qurumları nümayəndələrinə Prezident

---

[35] Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın “Pervıy kanal” televiziya kanalına müsahibəsi, 6 oktyabr, 2020-ci il, Zəfər salnaməsi, s. 88; Zəfər yolu, s. 196; https://president.az/articles/41881(10.10.2022).
[36] Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın TASS İnformasiya Agentliyinə müsahibəsi, 19.10.2020-ci ill, Zəfər salnaməsi, s. 216-217; Zəfər yolu, s. 321-322; https;//president.az/articles/43547(10.10.2022).
[37] Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın İnterfaks Agentliyinə müsahibəsi, 28.10.2020-ci il//https: president.az/articles/44692(10.10.2022); Zəfər salnaməsi, s. 296; Zəfər yolu, s. 375.
[38] Zəfər salnaməsi, s. 296; Zəfər yolu, s. 375; https://president.az/articles/44692(10.10.2022).
[39] Zəfər salnaməsi, s. 309; Zəfər yolu, s. 383-384; https://president.az/articles/44692(10.10.2022).

İlham Əliyevin verdiyi müsahibələr informasiya müharibəsində göstərilən yüksək ustalığın,fitri istedadın bariz nümayişi idi.

Belə müsahibələrdən "Evronews" telekanalına müsahibəni (07 Oktyabr), "CNN İnternational" telekanalının "Conncekt the Word" verilişinə videomüsahibəni(09 oktyabr),Fransanın "Franse 24" telekanalına videomüsahibəni (14 oktyabr), "Sky news" telekanalına vidtomüsahibəni(9 oktyabr),Fransanın "Figaro" qəzetinə müsahibəni(24 oktyabr),ABŞ-ın "Fox News" telekanalına videomüsahibəni(25 oktyabr),Almaniyanın "ARD" telekanalına müsahibəni(28 oktyabr), "BBC News" agentliyinə müsahibəni(06 noyabr) qeyd etmək olar.

Qərbin aparıcı media qurumlarının bir çox nümayəndələri təxribatçı suallar verməklə İlham Əliyevi çətin vəziyyətə salmaq istəyirdilər. Prezidentimiz isə bu sualları onların özlərinə yönəldərək aparıcıları və müxbirləri çətin vəziyyətə salır, öz ismarıcını sərt şəkildə çatdırırdı.

Müsahibələrdə Prazident ilk növbədə müharibənin Azərbaycan xalqının seçimi olmadığını, beynəlxalq təşkilatlar BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yetirmək istəmədiyindən Azərbaycanın öz haqqını hərbi yolla reallışdırmağa məcbur olduğunu bildirirdi.[40]

2020-ci il oktyabrın 9-da Prezidentin "CNN İnternational" televiziya kanalının "Connect the World" verilişinə videomüsahibəsi zamanı guya Türkiyənin Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana öz zabitlərini, generallarını, muzdluları, terrorçu cihad döyüşçülərini gətirməsi[41] haqqında iddialara münasibət bildirən İlham Əliyev həmin informasiyanın tamamilə yanlış olduğunu, Türkiyənin Azərbaycana yalnız siyasi dəstək göstərdiyini qeyd etdi, həm də vurğuladı ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil. Türkiyə Azərbaycanın yanındadır" kimi açıq və qəti bəyanatı olmasaydı, çox güman ki, Ermənistan münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb edilməsinə, onların döyüş meydanında ermənilərə yardım göstərməsinə nail olardı.[42]

9 oktyabr 2020-ci il tarixdə "Sky News" televiziya kanalı ilə video müsahibəsində[43] aparıcının təxribat səciyyəli "25 faiz azərbaycanlı əhalinin Dağlıq Qarabağa qaytarılmasına icazə verilsə, siz Dağlıq Qarabağın müstəqilliyini tanıyarsız?" sualına cavabında Azərbaycan

---

[40]Azərbaycan Prezidenti İlham Əliyevin "Evronews" televiziya kanalına müsahibəsi, 07.10.2021-ci il , https://president.az/articles/42101(10.10.2022); Zəfər salnaməsi, s.106; Zəfər yolu, s. 212.

[41] Azərbaycan Prezidenti İlham Əliyevin "CCN İnter National" televiziya kanalının "Connect the World" verilişinə video müsahibəsi, 09 oktyabr 2020-ci il.//https://president.az/articles/42434(10.10.2022); Zəfər salnaməsi, s. 118; Zəfər yolu, s. 216.

[42] Zəfər salnaməsi, s. 118; Xalq qəzeti, 2020-ci il, 19 oktyabr, № 208) (29473), s. 2; Zəfər yolu, s. 216.

[43] Azərbaycan Prezidenti İlham Əliyevin "Sky News" televiziya kanalına video müsahibəsi, 09.10.2020, https:president.az/articles/42435(10.10.2022); 09.10.2020; Zəfər salnaməsi, s. 126; Zəfər yolu, s. 226.

Prezidenti qətiyyətlə bildirdi:” Xeyr, heç vaxt. Bu məsələ heç vaxt danışıqlar masasında olmamışdır”.[44]

Qərbin aparıcı media qurumları ilə mühasibələrində Azərbaycan prezidenti bir sıra dünya liderlərinin artıq müharibənin əvvəlindəki ittihamçı mövqeyindən nisbətən geri çəkilərək, daha təmkinli mövqe sərgilədiklərini diqqətə catdırırdı. Məsələn, 2020-ci il oktyabrın 14-də prezident İlham Əliyev “France 24” televiziya kanalına müsahibəsində aparıcının münaqişədə Fransanın rolu ilə bağlı sualına cavabında dedi: “Bilirsiniz ki, toqquşmanın əvvəlindən biz bəzi ziddiyətli bəyanatlar və bəzi mesajlar alırıq. Lakin düşünürəm ki, qarşılıqlı diplomatik səylərimiz sayəsində vəziyyəti nəzarət altında saxlamağa müvəffəq olmuşuq. Bildiyiniz kimi prezident Makron mənə bir neçə dəfə zəng edib və bizim sonuncu söhbətimiz çox müsbət idi. Biz münaqişənin siyasi həll yolunun tapılması səylərinə sadiqik”.[45]

Bir çox hallarada xüsusi qərəzlə hazırlanmış suallarla Azərbaycan Prezidentini çaşdırmaq, çətin duruma salmaq məqsədi güdən aparıcıları, prezident təmkinlə dinləyəndən sonra onların ittihamlarını qətiyyətlə təkzib edir, onların özünü çətin vəziyyətə salır,pərt edirdi.Belə müsahibələri əsil “master-klas” dərsləri adlandırsaq heç də şişirtmə olmazdı. Biz belə müsahibələrdən biri -2020-ci il oktyabrın 24-də Fransanın “Figaro” qəzetinə Prezidentin müsahibəsini xüsusi qeyd etmək istərdik. Aparıcı qərəzlə soruşanda ki, Azərbaycan sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçəndə hansı siyasi məqsədlər güdmüşdür?, Prezident qeyd etdi ki, sentyabrın 27-də Azərbaycan hücuma keçməmişdir, əksinə Ermənistan Azərbaycana qarşı hücuma keçmiş, mülki şəxslər və hərbi qulluqçular öldürülmüşdür.[46]

Aparıcı yenə də təxribatçı bir fikir söylədi: “Onlar (ermənilər-T.M.) Gəncəni ona görə bombardman ediblər ki, Gəncədə Türkiyənin bir neçə “F-16” qırıcı təyyarəsi var idi və bu “F-16” qırıcı təyyarələrdən biri erməni təyyarəsini vurmuşdur”. Prezident ittihamı qətiyyətlə təkzib edərək bunun feyk xəbər olduğunu bildirdi.[47] Həm də əsaslı surətdə təkzib etdi. Bildirdi ki,texnologiyaların çox yüksək inkişaf etdiyi bugünkü gündə “F-16”təyyarəsinin havaya qalxması hökmən sübut olunardı.

Aparıcı öz ampulasında idi. O, “Türkiyənin müdaxiləsi və Türkiyədən müxalif Suriya döyüşçülərini qəbul etməklə siz yerli bir münaqişənin regional bir müharibəyə çevrilməsindən qorxmursunuz?”sualını verdikdə Prezident yenə də Türkiyənin münaqişəyə cəlb olunmasına dair heç bir sübut olmadığını bildirib, Azərbaycanın müasir avadanlığı olan 100 minlik nizami ordusu olduğunu, 30 ildir işğaldan əziyyət çəkən motivasiyalı insanların olduğunu söylədi. Bildirdi ki, o, hətta tam səfərbərlik elan etməmişdir, Azərbaycanın xaricdən döyüşçü

---

[44] Zəfər salnaməsi, s. 126; Xalq qəzeti, 2020-ci il, 10 oktyabr, № 208 (29473), s. 3; Zəfər yolu, s. 226-227.
[45]Azərbaycan Prezidenti İlham Əliyevin” Franse 24”televiziya kanalına müsahibəsi, 14.10.2020-ci il., https://president.az/articles/43037(10.10.2022); Zəfər yolu, s. 275-276; Zəfər salnaməsi, s.166.
[46]Azərbaycan Prezidenti İlham Əliyevin Fransanın “Figaro” qəzetinə müsahibəsi, 24.10.2020, https://president.az/articles/44170(10.10.2022); Zəfər salnaməsi, s. 249; Zəfər yolu, s. 344.
[47] Zəfər salnaməsi, s. 251; Zəfər yolu, s. 346; https://president.az/articles/44170(10.10.2022).

gəlməsinə heç bir ehtiyacı yoxdur.[48] Daha sonra aparıcı soruşanda ki, İsraildən alınan hərbi avadanlıqlar sizin üçün önəmlidirmi və onlar sizə hərbi irəliləyişi əldə etməyə imkan verirmi?, Prezident Azərbaycanı hərbi avadanlıqla ən çox təchiz edən Türkiyə və İsrail deyil, Rusiya olduğunu vurğuladı.[49]

2020-ci il oktyabrın 25-də Prezidentin ABŞ-ın «Fox News» televiziya kanalına videomüsahibəsində də diqqəti çəkən məqamlar çoxdur. Aparıcı əvvəlcə etiraf etdi ki, müsahibələrini dinlədiyinə görə bilir ki, İlham Əliyev regionun üzləşdiyi mürəkkəb məsələləri təfərrüatı ilə səlis izah edir.[50] Sonra isəaparıcı,Azərbaycan qoşunları Dağlıq Qarabağa daxil olarsa ermənilləri oradan qovub çıxaracaq və yenə məcburi köçkünlər olacağını iddia edərək dedi ki, Dağlıq Qarabağın «müstəqilliyi» saxlanıla və ermənilər 7 ətraf rayonu qaytara bilər, çünki masada bu diplomatik həll var. Prezident cavabında aparıcının söylədiyinin yalan olduğunu qeyd edib, bildirdi ki, vasitəçilər heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməsi ilə bağlı təklif irəli sürməyiblər, hətta muxtariyyətlə bağlı da təklif olmayıb.[51]

Müsahibənin gedişində aparıcı guya Azərbaycanın iki atəşkəsi pozduğunu söyləyəndə Prezident qətiyyətlə bunu təkzib edib, atəşkəsin Ermənistanın pozduğunu qeyd edərək, Azərbaycanın yenə də atəşkəsə hazır olduğunu bildirdi, qoy Ermənistan, onun Baş naziri əsas prinsiplərə sadiqliyini bəyan etsin, dedi. Çünki, iki gün bundan əvvəl Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həll yolunun olmadığını bəyan etmişdir. İndi Azərbaycanın yeni atəşkəsə razılaşması üçün Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ABŞ, Fransa və Rusiyanın təqdim etdiyi sülh planına uyğun olaraq torpaqları boşaldacağına dair öhdəlik götürməlidir.[52]

Aparıcı, yenə də qərəzli yanaşma göstərərək guya Azərbaycan iqtidarının bu müharibədən ölkənin daxilindəki problemlərdən, sosial məsələlərdən, iqtisadi tənəzzül, korrupsiya, COVİD-19-dan diqqəti yayındırmaq üçün pərdə kimi istifadə etdiyini iddia etdi. Cavabında İlham Əliyev faktlar gətirməklə bu mülahizənin tamamilə yanlış olduğunu göstərdi. Birincisi, Azərbaycanın iqtisadi göstəriciləri dünyada ən yaxşılardan biridir, on ay ərzində Azərbaycanda iqtisadi geriləmə 4 faizdən də az olmuşdur, bu ABŞ və digər Qərb ölkələri ilə müqayisədə çox yaxşıdır. Azərbaycanda işsizlik səviyyəsi cəmi 7 faiz, yoxsulluq səviyyəsi 5 faizdir. COVİD-19-la mübarizə ilə bağlı məsələyə gəldikdə isə ÜST (Ümumdünya Səhiyyə Təşkilatı) Azərbaycanı bu işdə nümunə kimi göstərir.[53]

---

48 Zəfər salnaməsi, s. 252; Zəfər yolu, s. 347; https://president.az/articles/44170(10.10.2022).
49 Zəfər salnaməsi, s. 252; Zəfər yolu, s. 347; https://president.az/articles/44170(10.10.2022).
50 Azərbaycan Prezidenit İlham Əliyevin ABŞ-ın "Foxs News" televiziya kanalına müsahibəsi, 25.10.2020, https://president.az/articles/44279(10.10.2022); Zəfər salnaməsi, s. 259; Zəfər yolu, s. 354.
51 Zəfər salnaməsi, s. 260; Zəfər yolu, s. 355-356; https://president.az/articles/44279(10.10.2022).
52 Zəfər salnaməsi, s. 261; Zəfər yolu, s. 358; https://president.az/articlec/44279(10.10.2022).
Məqalədə Qarabağ savaşı dönəmində və zəfərimizdən sonra Azərbaycan poeziyasında gedən proseslərə qısa ekskurs edilir, müxtəlif elm adamlarının bəzi məsələlərə və konkret əsərlərə mövqeyi açıqlanır. Poeziyamızda Şuşa mövzusu birinci və ikinci Qarabağ savaşı dönəmlərində qarşılaşdırılır və Zəfərimizin ədəbiyyatda yaratdığı dirçəlişi sərgiləyə bilir. Ayrı–ayrı şairlərin yaradıcılığından seçilmiş  bədii nümunələr təhlil obyektinə çevrilir. Məqalədə göstərilir ki, birinci Vətən savaşında Şuşanın işğalı poeziyamızı səfərbər etdi. Qələbəyə çağırış ruhu şairlərin yaradıcılığında müxtəlif formalarda təzahür olundu. 44 gündə qazandığımız qələbə isə bizi dünyaya tanıtmaqla yanaşı itən qürurumuzu qaytardı. İkinci Qarabağ savaşı və qələbəmizdən sonra qələmlərini süngüyə çevirən "yazarlar ordusu" çoxlu zəfər nəğmələri yazdılar. Onların əksəriyyəti müxtəlif elmi məqalələrdə təhlil elementinə çevrilir. Vətən məhəbbəti elə hissdir ki, mütləq əməli sübuta söykənməlidir. Şuşanı, Qarabağı bizə qaytaran igid oğullar, qanıyla tarix yazan qəhrəmanlar nəinki poeziyada, ədəbiyyatımızda müxtəlif janrlarda yazılan əsərlərin baş qəhrəmanlarına çevrilərək özlərinə sözdən heykəl qoydurdular. Nə qədər ki, dövlətimiz, millətimiz, ədəbiyyatımız yaşayır, onların qəhrəmanlıqları  haqqında yeni-yeni əsərlər yazılacaq,  səlnamələr yaranacaqdır.

**Açar sözlər:** Arena, Poetik Obraz,  Dirçəliş,  Milli Özünüdərk,  Poeziya,  Şuşa

**Gönderme Tarihi: 14/10/2022** **Kabul Tarihi:18/11/2022**

---

* *Filologiya üzrə fəlsəfə doktoru Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti,Bakı- Azərbaycan matanat.saraclı@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
SARAÇLI, M., " Vətən savaşı dönəmində Azərbaycan poeziyasında Şuşa mövzusu ", *Akademik Tarih ve Düşünce Dergisi  Azerbaycan Kültür Başkenti  Şuşa'nın 270. Yılı  Armağan Sayısı*, 2022,  s. 57-68.

# The theme of Shusha in Azerbaijani poetry during the Patriotic War

**Mətanət Saraclı***
**ORCID: 0000-0002-1099-7217**

**Abstarct**

In the article, a short excursion is given of the processes of Azerbaijani poetry during the Karabakh war and after our victory, and the position of various scientists on some issues and specific works is explained. In our poetry, the theme of Shusha is encountered in the first and second Karabakh war periods and can show the revival created by our victory in literature. Selected artistic examples from the works of individual poets become the object of analysis. The article shows that the occupation of Shusha in the First Patriotic War mobilized our poetry. The spirit of invitation to victory was manifested in different forms in the works of poets. The triumph we succeeded in 44 days introduced us to the world and also brought back our lost pride. After the second Karabakh war and our victory, the "army of writers" who turned their pens into bayonets wrote many victory songs. Most of them become an element of analysis in various scientific articles. Patriotism is a emotion, based on practical evidence. The brave children who gave Shusha and Karabakh back to us, the heroes who wrote history with their blood, became the protagonists of works written in different poetry genres and our literature. As long as our state, nation, and literature live, new literary works will be written and chronicles will be created about their heroism.

**Keywords:** Arena, Poetic Image, Revival, National Self-Awareness, Poetry, Shusha

**Received Date: 14/10/2022** **Accepted Date: 18/11/2022**

* *Doctor of Philosophy in Philology, Associate Professor of the Department of History of Azerbaijani Literature, Faculty of Philology, Baku State University, Baku-Azerbaijan matanat.saraclı@mail.ru*

# Тема Шуши в азербайджанской поэзии периода Отечественной войны

**Матанат Саракли***
**ORCID: 0000-0002-1099-7217**

**Резюме**

В статье дается краткий экскурс в процессы азербайджанской поэзии в период Карабахской войны и после нашей победы, разъясняется позиция различных ученых по некоторым вопросам и конкретным произведениям. В нашей поэзии автор представляет тему Шуши во время первой и второй карабахской войны и смогла показать возрождениев литературе, после нашей Победы. Объектом анализа становятся избранные художественные образцы из произведений отдельных поэтов. В статье показано, что оккупация Шуши в годы Первой Отечественной войны мобилизовала нашу поэзию. Дух призыва к победе проявлялся в разных формах в творчестве поэтов. Победа, одержанная за 44 дня, не только представила нас миру, но и вернула утраченную гордость.После второй карабахской войны и нашей победы «армия писателей», превратившая свои перья в штыки, написала много победных песен. Большинство из них становятся элементом анализа в различных научных статьях. Патриотизм – это чувство, которое должно основываться на практических доказательствах. Отважные сыновья, вернувшие нам Шушу и Карабах, герои, написавшие своей кровью историю, стали героями произведений, написанных в разных жанрах не только в поэзии, но и в нашей литературе. Пока существует наше государство, живет наш народ и литература, об их подвиге будут писаться новые произведения и создаваться летописи.

**Ключевые слова:** Арена, поэтический образ, возрождение, национальное самосознание, поэзия, Шуша

**Получено: 14/10/2022** **Принято: 18/11/2022**

---

**доктор философских наук, доцент кафедры истории азербайджанской литературы филологического факультета Бакинского государственного университета, Баку-Азербайджан matanat.saraclı@mail.ru*

**Giriş**

Şuşa, müxtəlif zaman dönəmlərində bədii ədəbiyyatda ən mükəmməl poetik obraz olsa da, 44 günlük Vətən savaşında qazandığımız Zəfər onu dünya arenasına çıxararaq poeziyamızın baş obrazına çevirdi. Əsası Şuşa xanı Pənahəli xan tərəfindən qoyulan, sıldırım qayaların əhatəsində 800 metr yüksəklikdə yerləşən bu şəhər Azərbaycanın zümrüd tacıdır.

Birinci Qarabağ savaşı dönəmində və ondan sonrakı məyusluq illərində bu dağlar gözəlinin azad olunacağına bir ümid qığılcımı olsa da, Şuşa nisgili, Şuşa dərdi poeziyamızın ana xəttinə çevrilmişdi. Ulu öndərin vaxtilə dediyi "Şuşasız Qarabağ, Qarabağsız, ümumiyyətlə, Azərbaycan yoxdur" fikri mövqeyindən, peşəsindən asılı olmayaraq hər bir azərbaycanlının gen yaddaşında kodlaşır. Məğlub ölkənin məğlub vətəndaşının Vətən qarşısında xəcalət harayı, eyni zamanda Şuşa harayıydı.

Şəhidlər xiyabanında olarkən onların ruhu qarşısında özünü borclu bilən, ümumxalq kədərindən təsirlənən Zahid Xəlil yazırdı:

Sən mənə oğlum demişdin
Vətən mənə oğul demə!
İgidlərin daşa döndü
Yanaqlarda yaşa döndü,
Uçub gedən quşa döndü
Vətən mənə oğul demə!
Mən deyirdim güləmmərəm,
Bu dərd ilə öləmmərəm
Vətən, mənə oğul demə! [1]

Bu şeir sanki bütün Azərbaycan oğullarının Vətən qarşısında borcundan doğulan xəcalət harayı idi.

Cabir Novruz "Şuşa yolu" poemasında dərdin poeziyasını poeziyanın dərdinə çevirir. Şuşaya gedən yolun qapanmasını milli faciə sanır.

Düz on ildir Şuşa deyib qışqırıram
Daha papaq gəzdirmirəm

[1] https://525.az/news/199990-bahar-nefesli-senetkar(10.10.2022).

Düz on ildir
Göz yaşlarım ürəyimə
Gildir-gildir axır mənim.
Şuşa dərdi öldürəcək axır məni.[2]

Düz bir il sonra 2002-ci ilin dekabrında şair ağır xəstəlikdən dünyasını dəyişdi. Tənqidçi Vaqif Yusifli yazır ki, onun dərdinin içində bir Şuşa dərdi də vardı.

Bəli, Azərbaycan adlı üzükdə brilyant qaşa bənzəyən Şuşanın işğalı poeziyamızı səfərbər etdi. M. Arazın "Ayağa dur, Azərbaycan, səninləyəm!" çağırışı bir çox şairlərin yaradıcılığında müxtəlif formalarda təzahür etdi və sonrakı illərdədə bu çağırış ruhu zəifləmədi. Zəlimxan Yaqubun

Şuşa, Laçın, Xocalı qovrulur öz yağında
Yetmiş yeddi yara var, sinələrin dağında
Vaqif, Şəmşir, Ələsgər düşmənin tapdağında,
Daş yandırar intizarım, daş yandırar həsrətim.
Dur ayağa məmləkətim, qalx ayağa millətim![3]

Belə nümunələrin sayı ədəbiyyatımızda yetərincədir. 44 gündə qazandığımız qələbə zəfərimiz nəinki bizi dünyaya tanıtdı, itən qürurumuzu, əyilmiş qəddimizi düzəltdi. Zahid Xəlilin "Dəmir yumruq dastanı" da bu qürurdan doğuldu.

Dəmir yumruq beş barmaqdı
Amma böyük bir ölkədi
Cəsarətdi, şücaətdi,
Nə tərəddüd, nə "bəlkə"di...
O yandırdı Qarabağda
Elin sönməz çırağını!
Yağmalanmış torpağıma
Taxdı zəfər bayrağını.[4]

Elxan Zal Qaraxanlının "Azərbaycan simfoniyası" və Balayar Sadığın "Zəfər simfoniyası ədəbiyyatda milli özünüdərkin aparıcı tendensiyası, meyli sayıla bilər:

"Qarabağ Azərbaycandır!"
Adi torpaq deyil, canımda candır!
Yolunu gözləyir, gör bir haçandır

---

[2] http://www.anl.az/down/meqale/adalet/2013/iyul/318377.htm(10.10.2022).
[3] Şeirimizdə Qarabağ Vaqif Yusifli Ədalət qəzeti, 2021.
[4] https://edebiyyatqazeti.az/news/poeziya/6521-demir-yumruq(10.10:2022).

Arzu yollarında ümid sarvanım,
Min yaşa, müzəffər Baş Komandanım![5]

İkinci Qarabağ savaşı zamanı və qələbəmizdən sonra qələmlərini süngüyə çevirən "yazarlar ordusu" çoxlu zəfər nəğmələri, qalibiyyət, qürur hisslərilə dolu səlnamələr yazdılar. Zəfərimizə aid yazılan onlarla, yüzlərlə poeziya nümunələrindən bəziləri müxtəlif elmi məqalələrdə təhlil elementinə çevrilir. Məs. AMEA-nın professoru Salidə Şərifovanın "Azərbaycan nəzm və nəsrində Şuşanın təsviri," Fəlsəfə elmlər doktoru Rahid Uluselin "Döyüşən sözün Şuşa zirvəsi" və s. Bu kimi məqalələrdə belə bir tendensiya izlənilir. Salidə xanım akademik Teymur Kərimlinin yedi beytlik "Şuşamız" qəzəlini və folklor ruhunda yazdığı "Əziz Şuşa, biz qayıtdıq" qoşmasını nümunə göstərir:

Ay ağalar, gəlin, sizə söyləyim:
Baş tacıdır bizim zəfər Şuşanın
Başımıza min il qaxınc olardı,
Yolu bağlı qalsa, əgər Şuşanın.[6]

Fəlsəfə doktoru şairə Adilə Nəzər 2021-ci ildə Qarabağa yazdığı "Rekviyem"də döyüşlərdə itirilənlərin müqəddəs ruhlarını yad edir:

Gəlsəm bir gün,
Ayaqlarına qapansam, ətəyindən öpsəm,
Qaytararsanmı aldıqlarını?
Uğrunda gedənləri geri versən...
Üzü gülsə xalqın...
Utansa ayrılıq,
Silinsə ataların alnındakı qırışlar,
Qurusa anaların gözlərindən yaşlar
Qırılıb tökülsə sıralanan qara daşlar[7]

Hər şey dəyişərsə, qızların bağlı qapıları açılar, "sevinər bəy otaqları", deyir şairə. Dərin, fəlsəfi fikir poeziyasının parlaq nümunəsidir bu "Rekviyem":

Gəlsəm bir gün yalvarsam ..
Ağlasam...
Göz yaşlarımla yuyulsa, illərin kiri,
Hər şey dəyişərmi, Qarabağ?[8]

---

[5] http://www.azyb.az/index.php/culture/post/92(10.10.2022).
[6] https://525.az/news/186013-susaname-teymur-kerimlinin-seirleri(10.10.2022).
[7] https://ms-my.facebook.com/yoruldu.Duygularim/photos/a.1216697415123144/441(10.10.2022).

Şeirin lirik qəhrəmanı zamanı geri qaytarmaq iddiasıyla Qarabağa müraciət edir və özü də anlayır ki, bu olanları,bitənləri, itənləri geri qaytarmaq imkan xaricindədir. Bizə bu kədəri unutduran yeganə təsəllimiz son savaşdakı zəfərimiz və dünyanı bu zəfərə heyran etməyimizdir. Şairə Natəvan poeziya günlərində yazdığı "Şuşa" şeirində Şuşanın bədii obrazını yaradaraq onun uğrunda qurban gedən ərləri,ərənləri, qanlarıyla tarix yazan şəhidləri bir daha xatırlayır." Ey matəm yüklü şəhər!" xitabıyla acı xatirələrin əzikliyindən yaranan ritorik sualları birləşdirə bilir:

Qəhrəmanlar qırğı tək havalanıb dağlardan,
Necə sıyrılıb çıxdı o xırçın dalğalardan?!
Danış,neçə qəhrəman uğrunda verdi can?!
Ey gözəl cazibəli, nağıl,əfsanə şəhər.
Durub şeir deyərəm sənə o başdan Şuşa,
Dillərə dastan Şuşa![9]

Ramiz Qusarçaylı "Şuşalı Vətən" poemasında yazır:

Qayadan sürüşən ulu daşlara
Sarılıb bayrağı öpdü oğullar,
Torpağın ətrini gözünə çəkib
Şuşanı gözünə təpdi oğullar.
Bir ocaq başına yığılır indi
Yad əldə qovrulub alışan Şuşa
Bağrının başından doğulur indi
Bağrı şan-şan Şuşa, pərişan Şuşa[10]

Poemada şair 44 günlük Zəfər, hünər mənzərələrini şanlı müharibə ssenarili möhtəşəm qələbə serialı adlandırır.

Akademik Nizami Cəfərov yazır: "Ali Baş Komandanın rəhbərliyi ilə aparılan çox miqyaslı Vətən müharibəsi ədəbiyyatımızın əbədi Vətən mövzusunun yaradıcılıq meydanını müqayisə edilməyəcək qədər genişləndirdi ki, bunun dəyərli faktlarından biri R. Qusarçaylının yaradıcılıq tərcümeyi-halı, bədii pasportu, eyni zamanda Azərbaycan poeziyasının müasir Azərbaycanın ictimai-ideoloji maraqları mövqeyindən dediyi elə bir

---

[8] https://ms-my.facebook.com/yoruldu.Duygularim/photos/a.1216697415123144/(10.10.2022).
[9] Adilə Nəzər, Şuşada X.Natəvanın 190 iliyi münasibətilə keçirilən poeziya günləri, 09.09.2022.
[10] https://525.az/news/192549-veten--ramiz-qusarcaylinin-poemasindan(10.10.2022).

sözdür ki, ədəbiyyatımızın yaddaşından heç zaman silinməyəcək. Ədəbiyyatın tarix dərsləri olaraq bu gündən sabaha addımlayacaqdır."[11]

Rəşid Fəxralının "Hər şəhid qardaşdı bizə" şeiri 2022-ci il sentyabr şəhidlərinə həsr olunub. Şuşa işğaldan azad olandan sonra bu unikal şəhər milli poeziyamızın baş obrazına çevrilib. Bu zəfərdə o qədər təbii bir sevinc, fərəh, qürur var ki,şair olmayanları belə vəcdə gətirib. Xalq yazıçısı, professor Elçin Əfəndiyev poeziyamızın problemlərindən danışarkən Gülay Tahirlinin "Əziz Şuşa" şeirini istedadlı şeirə nümunə çəkir:

Pəncərəmdəki çiçəklər inciyib məndən
Onlara baxa-baxa xarı bülbülü düşünmüşəm deyə
Günəşin də qəlbi qırılıb,
Sənsiz günlərdə istisində üşümüşəm deyə.[12]

"Müqəddəs anlayışında müstəqim, birbaşa bir təntənə var, ancaq Gülayın lirik qəhrəmanı bu müstəqimliyi obrazlaşdırmağı bacarır. Təntənədən əsər-əlamət yoxdur, istedadla deyilmiş Şuşa sevgisi var"

O qədər müqəddəssən ki,
Ayaqlarımı atıb bir tərəfə
Ürəyimlə gəzmək istəyirəm torpaqlarında[13]

Əbülfət Mədətoğlu da əsgər barmağını ürəyilə öpmək istəyənlərdəndir. "Döyüşü Vətən udub" şeirində şair belə ülvi duyğularını dilə gətirir. Qələbə sevincini bütün dünyaya car çəkəcəyini bildirir.

Tətikdəki barmağı
Ürəyimlə öpəcəm!
Şəhid qanlı torpağı
Gözlərimə təpəcəm
Son hücumun nidasın
Bayrağıma tən tutub...
Hayqıracam sədasın
Döyüşü Vətən udub![14]

Əbülfətin Vətənə sonsuz məhəbbətindən qaynaqlanan bu misraları nə qədər ülvi və təbiidir. Çünki qaçqınlıq, köçkünlük ağrısını dadan, bu ağrını qəlbindən, ürəyindən keçirən şairin qələbə sevincini dünyayla bölüşmək istəyiydi, bu misralar.

---

[11] Nizami Cəfərov, "Ədəbiyyatın tarix dərsləri", 525-ci qəzet, 11may, 2022.
[12] http://static.bsu.az/w15/Gulay%20Tahirli%20Aziz%20susha.pdf(10.10.2022).
[13] Elçin Əfəndiyev "Bu dünya kimsəyə qalmaz əfəndim", 525-ci qəzet, 24 sentyabr, 2022.
[14] https://edebiyyatqazeti.az/news/poeziya/9391-doyusu-veten-udub(10.10.2022).

Birinci Qarabağ müharibəsi şəhidi, pilot Yusif Vəliyevin vəfalı xanımı Arzu Nehrəmlinin "Vətən" şeirində də belə bir duyğu izlənilir:

Sinə gərdin fitnə-felə
Dərdi unut, innən belə,
Nazına qurban naz elə
Sığalını çəkək Vətən![15]

Birinci Qarabağ savaşı dönəmində şair Zəlimxan Yaqub "Bu gecə yuxuma gəlmişdi Şuşa" şeirində məğlub Şuşanı qanadı qırılmış quş kimi görən Cabbarın, Xanın ruhunun qan ağladığını yuxuda gördüyünü nəzmə çəkirsə, Adıgözəl Abdinov zəfərimizdən sonra həmin şeirə nəzirə yazır və dəyişmə prosesini poetik dillə ifadə edərək, sanki Zəlimxanın da ruhunu muştuluqlayırdı:

Bu gecə yuxuma girmişdi Şuşa,
Cabbar gülümsəyir, xan sevinirdi
Dönmüşdü qanadı sağalmış quşa
Qartal kimi zirvələr seyr edirdi[16]

Əvvəlki şeirdə Şuşa qan ağlayırdısa, o zamankı ictimai-siyasi durum təsvir obyekti idisə, ikinci şeirdə Şuşanın qalib obrazını və bu qalibiyyətdən sevinən qalib ruhları görürük.

Şair Rəşad Məcid Suşanı özünə məxsus bir deyim tərziylə vəsf edir:

Min şəhər adı var dillərdə əzbər.
Adların ən üstün adıdı, Şuşa.
Musiqi notudu cüt hecasıyla
Dilimin ləzzəti, dadıdı, Şuşa[17]

Şair Ramiz Rövşən müsahibələrinin birində "Müharibə necə bitəcəksə, ədəbiyyatımız da o cür olacaq" deyirdi. Doğrudan da, Zəfərimiz ədəbiyyatımızda sıçrayış yaratdı. Şairin "Şuşa" şeiri şəhərin alındığı ilk gündə yazılıb:

Yaşadıq əlimiz sənə çatmadan
Bağlıydı hər yolun, cığırın Şuşa
Yaxşı ki, ömrümüz sona çatmadan
Çatdı bu həsrətin axırı Şuşa[18]

Şair Şuşasız xalqını, millətini Vətənini toyu vaya dönmüş gəlinsiz bəyə bənzədərək güclü metafora yaradır.

---

[15] https://www.adalet.az/mobil/164934(10.10.2022).
[16] https://1905.az/bu-gec%C9%99-yuxuma-girmisdi-susa-z%C9%99limxan-yaqub/(10.10.2022).
[17] https://525.az/news/168425-susa-gor-neler-eyler-resad-mecidin-qelemsiz-yazilanlari(10.10.2022).
[18] https://www.youtube.com/watch?v=r(10.10.2022).

Sən mənim canımdan aralı ruhum
Göylərdə dolanan yaralı ruhum
Sən mənim axır ki, çin olan yuxum
Gerçəyə çevrilən nağılım, Şuşa[19]

Şair Şuşanı canından ayrılan, göylərdə dolanan yaralı ruhu sanır. Nağıl bildiyi arzularının gerçəkləşməsindən, yuxularının çin olmasından məmnunluq duyur.

Qovulur qapından düşmən qovulur
Qayalar çatlayır, daşlar ovulur
Bir bax başın üstə günəş doğulur
Daha dumanların dağılır, Şuşa[20]

Bu həm də Vətənə, millətə verilən qələbə müjdəsinin şair qəlbində əks-sədası idi. Şairin lirik məni yaralı ruhlar kimi göylər gəzdiyi bir vaxtda nağılı gerçəyə çevrilir, yuxusu çin çıxır, Şuşanı dumansız görür. Şair Vüqar Əhməd də "Şuşanın dağları başı vüqarlı" şeirində şəhərin qalib görkəmini Zəfərimizə yaraşan poetik gözəlliklə təqdim edir:

Şuşanın dağları deyil, dumanlı,
İndi bu dağlarım şahdı,sultandı,
İndi gözəl Şuşa Azərbaycandı
Şuşanın dağları başı vüqarlı![21]

Şuşada ilk qalibiyyət günlərimizdə şair Ayaz Arabaçının "Yağış yağır Şuşaya" şeirindən duyduğum ləzzət təsəvvürə gəlməz idi. Şeir Ağalar Bayramlının ifasında ruhlara məlhəm kimi süzülür, Vətənini sevən hər kəsin qəlbindən gələn istəyini, arzusunu ifadə edirdi:

Azərbaycan, möhtəşəmdi, gur səsin
Əskilməsin, üstümüzdən nəfəsin
Bu torpağa Vətən deyən hər kəsin
Şirin-şəkər dillərindən öpürəm.

Qələbəmizdən müjdə verən bu şeirdə baş obraz Azərbaycan əsgəridir.

Yağış yağır dayanmadan Şuşaya
O yağışın sellərindən öpürəm.
O yağışda qıvrım-qıvrım islanan
Əsgərimin tellərindən öpürəm.[22]

---

[19] https://www.youtube.com/watch?v=rVjKUZjCVY4(10.10.2022).
[20] https://www.youtube.com/watch?v=rVjKUZjCVY4(10.10.2022).
[21] https://sam.az/az/susanin-daglari-basi-vuqarli(10.10.2022).

**Nəticə**

Vətən məhəbbəti elə hissdir ki, mütləq əməli sübuta söykənməlidir. Şuşanı, Qarabağı bizə qaytaran igid oğullar, qanıyla tarix yazan və əbədi tarixdə qalan qəhrəmanlar nəinki poeziyada, ədəbiyyatımızda müxtəlif janrlarda yazılan əsərlərin baş qəhrəmanlarına çevrilərək özlərinə sözdən heykəl qoydurdular. Nə qədər ki, dövlətimiz, millətimiz, ədəbiyyatımız yaşayır, onların qəhrəmanlıqları haqqında yeni-yeni əsərlər yazılacaq, səlnamələr yaranacaqdır.

[22] https://www.youtube.com/watch?v=r6II8GQzwlA(10.10.2022).

**Ədəbiyyat**

https://525.az/news/199990-bahar-nefesli-senetkar(10.10.2022).

http://www.anl.az/down/meqale/adalet/2013/iyul/318377.htm(10.10.2022).

Şeirimizdə Qarabağ Vaqif Yusifli Ədalət qəzeti, 2021.

https://edebiyyatqazeti.az/news/poeziya/6521-demir-yumruq(10.10:2022).

http://www.azyb.az/index.php/culture/post/92(10.10.2022).

https://525.az/news/186013-susaname-teymur-kerimlinin-seirleri(10.10.2022).

https://msmy.facebook.com/yoruldu.Duygularim/photos/a.1216697415123144/441(10.10.2022).

Adilə Nəzər, Şuşada X.Natəvanın 190 iliyi münasibətilə keçirilən poeziya günləri, 09.09.2022.

https://525.az/news/192549-veten--ramiz-qusarcaylinin-poemasindan(10.10.2022).

Nizami Cəfərov, "Ədəbiyyatın tarix dərsləri", 525-ci qəzet, 11may, 2022.

http://static.bsu.az/w15/Gulay%20Tahirli%20Aziz%20susha.pdf

Elçin Əfəndiyev "Bu dünya kimsəyə qalmaz əfəndim", 525-ci qəzet, 24 sentyabr, 2022.

https://edebiyyatqazeti.az/news/poeziya/9391-doyusu-veten-udub(10.10.2022).

https://www.adalet.az/mobil/164934(10.10.2022).

https://1905.az/bu-gec%C9%99-yuxuma-girmisdi-susa-z%C9%99limxan-yaqub/(10.10.2022).

https://525.az/news/168425-susa-gor-neler-eyler-resad-mecidin-qelemsiz-yazilanlari(10.10.2022).

https://www.youtube.com/watch?v=rVjkuzjcvy4(10.10.2022).

https://sam.az/az/susanin-daglari-basi-vuqarli(10.10.2022).

https://www.youtube.com/watch?v=r6II8GQzwlA(10.10.2022).

*Azerbaycan Kültür Başkenti  Şuşa'nın 270. Yılı Armağan Sayısı*




**2022**
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.273

# Azərbaycan şəhəri Şuşa XIX-XX əsr ABŞ mətbuatında

**Elnur Nəciyev***
**ORCID: 0000-0003-3989-6257**

**Xülasə**

Şuşa şəhərinin tarixinə və mədəniyyətinə dair ABŞ mətbuatında öz əksini tapan materialların indiyə qədər diqqətdən kənarda qalması, tədqiq olunmaması bizdə bu boşluğu nisbətən də doldurmaq, az da olsa bu istiqamətdə müəyyən işlər görmək istəyən tədqiqatçılar üçün cığır açmaq istəyi yaratdı. Tədqiq etmək üçün müəyyən etdiyimiz xronoloji çərçivə kifayət qədər böyük olduğundan biz daha çox ABŞ mətbuatının XIX-XX əsr materiallarına diqqət yetirdik. Əvvəlcədən qeyd edək ki, Şuşa ilə bağlı xarici mətbuat nümayəndələrinin məlumatları əsasən Sankt-Peterburqdan əldə edilən məlumatlara əsaslandığına görə əsasən çar hökumətinin, eləcə də Qərbin maraqlarına uyğun formada, xüsusilə də ermənilərin xeyrinə olurdu. Bununla belə, hətta bu cür məlumatların içərisində də Şuşa tarixinə, onun Azərbaycanın Qarabağ bölgəsinin mədəniyyəti mərkəzi, tarixi şəhəri olmasını sübut edən dəyərli materiallara təsadüf etmək olur. Qeyd edək ki, tədqiq etdiyimiz materiallar ABŞ-ın Pensilvaniya, Vermont, Virciniya, Miçiqan, Merilənd, İllinoys, Mississippi, Missuri, Nyu-York, Luiziana, Massaçusets, Montana, Tennessi, Vaşinqton, Ohayo, Kanzas, Cənubi Dakota, Şimali Karolina ştatlarında çap olunan qəzetlərin məqalələrinə əsaslanır.

**Açar Sözlər:** Azərbaycan, Şuşa, ABŞ, Mətbuat

**Gönderme Tarihi: 02/11/2022** **Kabul Tarihi:19/11/2022**

---

* *Bakı Mühəndislik Universitetinin "Ümumi fənlər" kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru, enaciyev@beu.edu.az*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
NƏCIYEV, E., " Azərbaycan şəhəri Şuşa XIX-XX əsr ABŞ mətbuatında", *Akademik Tarih ve Düşünce Dergisi  Azerbaycan Kültür Başkenti  Şuşa'nın 270. Yılı  Armağan Sayısı*, 2022,  s. 69-84.

# The Azerbaijani city of Shusha in the 19th and 20th century USA Press

**Elnur Najiyev**[**]
**ORCID: 0000-0003-3989-6257**

**Abstract**

The fact that the materials on the history and culture of the city of Shusha, which were reflected in the US media, have so far been ignored and not studied, this made us want to fill this gap relatively and pave the way for researchers who want to work in this direction. Because the timeframe we set for our research was quite long, we focused more on material of 19$^{th}$ and 20$^{th}$ century of the American press. First of all, we note that the information of the representatives of the foreign press about Shusha was mainly based on information received from St. Petersburg and was mainly in the form of the interests of the tsarist government, as well as the West, especially in favor of the Armenians. However, even among such information, we can find valuable materials about the history of the city of Shusha, proving that this city was and is the cultural and historical center of the Karabakh region of Azerbaijan. Note that the materials we studied are based on articles from newspapers published in the US states - Pennsylvania, Vermont, Virginia, Michigan, Maryland, Illinois, Mississippi, Missouri, New York, Louisiana, Massachusetts, Montana, Tennessee, Washington, Ohio, Kansas, South Dakota, North Carolina.

**Keywords**: Azerbaijan, Shusha, USA, the press.

**Received Date: 02/11/2022** **Accepted Date: 19/11/2022**

---

[**]*Senior Lecturer of the Department "General Subjects" of the Baku Engineering University, Doctor of Philosophy in History, enaciyev@beu.edu.az*

# Азербайджанский город Шуша в прессе США в XIX-XX вв

**Эльнур Наджиев**[**]
**ORCID: 0000-0003-3989-6257**

**Резюме**

Тот факт, что материалы по истории и культуре города Шуши, получившие отражение в СМИ США, до сих пор оставались без внимания и не изучались, это вызвало у нас желание относительно восполнить этот пробел и открыть путь исследователям, желающим поработать в этом направлении. Поскольку хронологические рамки, которые мы установили для нашего исследования, были довольно длительный, мы сосредоточились больше на материалах XIX-XX века американской прессы. Прежде всего отметим, что информация представителей иностранной печати о Шуше основывалась в основном на информации, полученной из Санкт-Петербурга, и была в основном в форме интересов царского правительства, а также Запада, особенно в пользу армян. Однако даже среди таких сведений можно встретить ценные материалы об истории города Шуша, доказывающие, что этот город был и есть культурным центром и историческим городом Карабахского региона Азербайджана. Отметим, что изученные нами материалы основаны на статьях из газет, издаваемых в штатах США - Пенсильвании, Вермонта, Вирджинии, Мичигана, Мэриленда, Иллинойса, Миссисипи, Миссури, Нью-Йорка, Луизианы, Массачусетса, Монтаны, Теннесси, Вашингтона, Огайо, Канзаса, Южной Дакоты, Северной Каролины.

**Ключевые слова:** Азербайджан, Шуша, США, пресса.

**Получено: 02/11/2022** **Принято: 19/11/2022**

[**]*Старший преподаватель кафедры «Общие предметы» Бакинского Инженерного Университета, доктор философии по истории; электронная почта: enaciyev@beu.edu.az*

## Giriş

Şuşa ilə bağlı ümumiyyətlə qərb mətbuatının yeni dövrünün tədqiqatdan kənarda qalmışdır. Bu baxımdan tədqiqata cəlb etdiyimiz ABŞ mətbuatında Şuşa tarixinə dair materiallar Azərbaycan tarixşünaslığı üçün bir ilkdir. Xüsusilə də təqdim olunan əsərdə Qarabağ xanlığın ləğvindən XX əsrin əvvəllərinə ilə qədər Şuşa tarixi ilə bağlı müxtəlif mövzulara toxunulması onun dövrümüz üçün daha da aktual edir. Materiallarda Şuşanın, Qarabağın tarixi adı təhrif olunmadan düzgün formada qeyd olunmuşdur. Məqalədəki materiallar Şuşada keçirilən məhərrəmlik məclislərindən, Şuşada 1905-1906-cı illər ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlardan, aclıq çəkən əhaliyə göndərilən humanitar yardımları əngəlləmək üçün törətdikləri vəhşiliklərdən, çar hökumətinin Şuşanın türk-müsəlman əhalisini ermənilərlə qarşı-qarşıya qoymaq üçün həyata keçirdiyi təxribatçı siyasətdən, 1892-ci ildə Şuşada da yayılan vəba xəstəliyi və onun fəsadlarından, Şuşa şəhərinin memarlıq quruluşuna, əhalinin geyiminə görə tarixi Azərbaycan şəhəri olmasını təsdiq edən məlumatlardan, rus rəssam Vasili Vereşşaginin 1865-ci ildə Şuşada çəkdiyi fotolardan ("Şuşa məscidi", "Şuşada məhərrəmlik", "Müsəlman məktəbi", "Şuşada varlı tatar (Azərbaycan türkünün) evinin zalı" və s.), Qarabağın Kür və Araz çayları arasındakı ərazini əhatə etməsi, əsas şəhərinin Şuşa olmasından, 1813-cü il Gülüstan müqaviləsindən, çar Rusiyanın Qafqazda ruslaşdırma siyasəti və bu tədbirini pərdələmək üçün atdığı addımlardan, Şuşadan XX əsrin əvvəllərində yerli əhalinin köçə məcbur edilməsi, bu təşəbbüsə səbəb olanların həbs edilərək sürgün edilməsi və başqa maraqlı məlumatlardan ibarətdir.

### 1- Şuşa XIX əsr ABŞ mətbuatında

1827-ci il iyun ayının 19-da Pensilvaniyanın Filadelfiya şəhərində "The National Gazette and literary register" adlı qəzetin ilk səhifəsində Qacarlar dövləti ilə Rusiya imperiyası arasında 1826-1828-ci illərdə baş verən müharibəyə dair məlumatları özündə əks etdirən "Rusiya və Persiya" adlı məqalə diqqəti cəlb edir. Məqalədə verilən məlumat "Calcutta Government Gazette" adlı mətbu orqanın 1826-cı il 11 dekabr

tarixində çap olunan sayına istinadən oxuculara təqdim olunur. Həmin məqalədə Fətəli Şah Qacarın hicri tarixi ilə 1242-ci ilin məhərrəm ayında, miladi təqvimi ilə 1826-cı ilin avqust ayına verilmiş fərmanının mətni təqdim olunur. Həmin fərmanda Qacar qoşunlarının Rusiya imperiyası tərəfindən işğal edilən Azərbaycan xanlıqlarının azad edilməsi istiqamətində apardığı hazırlıq işləri və döyüşlərin aparılacağı istiqamətlər diqqəti cəlb edir. Xüsusilə Qarabağ ərazisi bu fərmanda fərqləndirilir. Təsadüfi deyil ki, Fətəli şah Qacar Şuşa qalasını və Qarabağ ərazisini fəth etmək üçün 15000 atlı qoşun və Azərbaycanın digər ərazilərindən əlavə 20000 nəfərlə yürüş etmək üçün əmr vermişdi. Məqalədə belə qeyd olunur:

*"...Biz Cəmi Cihannuma"dan Persiya şahının (Qacarlar dövlətinin şahının – E.N.) Rusiya ilə müharibəyə başlamasına dair hesabat verən oğlu Hüseyn Əli Mirzəyə ünvanlanmış, bülleten üslubunda olan fərmanlarını götürdük. Əsas hadisələrlə bağlı bizdə olan məlumatlara çox az nəsə əlavə edir, lakin detalları daha dolğun şəkildə qeyd edir və haqqında bəhs edilən şəxslər, yerlər barədə daha dəqiq təsvirlər verir... bunun Persiya siyasətində yenilik olduğunu düşünə bilərik... Fərmanda dini təəssübkeşliklə insanları müharibəyə cəlb etmək üçün sarayın məqsədləri göstərilir... Biz başa düşürük ki, məşhədli Molla böyük ölçüdə müharibənin əsas təhrikçisi idi və ... Ağa Seyid Məhəmməd xeyli sayda dindar insanla birgə şahın Sultaniyyədəki düşərgəsinə gedir ki, onu kafirlərə qarşı hərbi əməliyyatlar aparmağa təhrik etsin. Saray bülletenində təzahür edən təkmil ruh hələ də insanların dini kəsimlərinə təsir etməkdən uzaqdır.*

*Şöhrətli və bəxtəvər Şahzadə, səltənətin himayədarı və bəzəyi Hüseyn Əli Mirzəyə məlum olsun ki, bu ilin yazında əlahəzrət Rusiyanın İrəvan qəzasında Göyçədən asılı olan Balıqlı mülkünü saxlamaqla keçmiş qudurğanlığına, eləcə də Məhəmməd inancına (müsəlmanlığa – E.N.) və Şah sarayına son günlərdə çoxsaylı etirazlar ünvanlayan əhaliyə edilən zülmə görə cəzalandırmaq qərarına gəlib. Bu qərarlığın sübutu olaraq Sultaniyyə bağlarında şah çadırları qurulmuşdur. Buraya dinc münasibətlərin qorunması və hərbi əməliyyatların baş verməsinin qarşısını almaq üçün Rusiyadan bir səfir gəldi. Buna müvafiq olaraq nazirlər qaydalara uyğun olaraq danışıqlara başladılar. "Etinasız olmayın, sülhə çağırın və siz güclü olacaqsınız, çünki Allah sizinlədir. Onlar hər zaman razılaşmadan kənara çıxır, onu başqa təkliflərlə əvəzləyirdilər. Bu minvalla bir neçə gün keçəndən sonra səfirin işğal edilən əraziləri boşaltmaqla bağlı razılaşacağına, və ya onun hakimiyyəti altında olan Məhəmmədi*

*(müsəlman – E.N.) rayonların müdafiə etməyə vəd verməsinə dair heç bir ümid yaranmadı. Buna görə də, qərara alındı ki, həqiqi inancın vəziyyətini kafir qəsbkarlığından təmizlənsin, deyildiyi kimi "Qəlblərindəkinə gələndə, Allah onların pis niyyətini ortaya çıxarmayacaqmı?"; "imanı olmayan kafirlərlə döyüş", "Allah iman edənləri haq sözlərlə dəstəkləyəcək". Əlahəzrət dövlətin naibinə Şuşa qalasını (Şuşa, paytaxt) və Qarabağ ərazisini fəth etmək üçün 15000 atlı qoşun və Azərbaycanın digər ərazilərindən əlavə 20000 nəfərlə yürüş etmək üçün əmr verdi. İrəvan sərdarı Hüseyn xana da göstəriş verildi ki, eyni vaxtda 10 min nəfərlik nizami qoşun və xidmətində olanlarla Göyçəni və Tiflis ətrafını fəth etsin. Şahın öz qoşunları ilə əlahəzrətə qoşulmaları üçün verdiyi əmrlər Şirvanlı Mustafa xana, Surxay xan Ləzgiyə, Bakılı Həsənəli xana və Şəki, Dərbənd və Dağıstanın digər hakimlərinə də ünvanlandı."*[1]

Pensilvaniya Ştatının Pitsburq şəhərində çapdan çıxan "Pittsburgh Daily Post" qəzetinin 1891-ci il 12 yanvar buraxılışında Şuşa şəhəri ilə bağlı da dəyərli fotoların müəllifi, rus rəssam Vasili Vereşşagin (1842-1904) barədə məlumat verilir və bu məlumatda Şuşa şəhəri ilə bağlı məsələlərə də toxunulur. "Pittsburgh Daily Post" qəzetinin 1891-ci il 12 yanvar buraxılışında rus rəssamı Vasili Vereşşagin barədə belə məlumat verilir:

*"Vereşşagin 14 oktyabr 1842-ci ildə Novqorod əyalətində anadan olmuşdur. Atası onun dəniz piyadaları zabiti olmasını arzu edirdi, lakin oğlu rəssam olmaq istəyirdi. O dəniz məktəbinə daxil oldu, lakin boş vaxtını incəsənətin öyrənilməsinə həsr edirdi. O hər iki istiqamətdə uğurla işləmişdir, o incəsənət akademiyasında gümüş medal qazanmış və dəniz məktəbini bitirərkən ən yüksək mənsəbə yüksəlmişdir. O tezliklə xidməti tərk edərək 17 yaşında özünü bütünlüklə incəsənətə həsr etdi. 1864-cü ildə bir səyyah kimi böyük şöhrət qazanmışdır. O Londonda və Parisdə, daha sonra Qafqaza və yekunda da Şuşada olmuşdur və qəribə və yeni çox şey gördü..."*

Qeyd edək ki, 1865-ci ilin mayında Şuşaya gələn məşhur rəssam V.Vereşşagin 3 aya yaxın burada qalmış, hətta, Parisə qayıdandan sonra da Şuşaya aid silsilə rəsmlər çəkmişdir və bu əsərlərdə Şuşanın Azərbaycan şəhəri olduğu aydın görünür. Rəsmlərin adları belədir. "Şuşa məscidi" (17 iyul 1865), "Şuşada məhərrəmlik", "Müsəlman məktəbi", "Şuşada varlı tatar (Azərbaycan türkünün) evinin zalı", "Şuşada varlı tatarın

[1] "Russia and Persia", *The National Gazette and literary register*, №2028, Vol. VII, Tuesday, June 19, Philadelphia, Pennsylvania 1827, p . 1.

qonaq evi" və s. Şuşada məhərrəmlik məclisi ilə bağlı ABŞ mətbuatında verilən məlumatlar məhz Vasili Vereşşaginin səfər təəssüratlarına əsaslanır. Sadəcə bu fotolar diqqətdən kənarda qalmış və Amerika mətbuatında dərc edilməmişdir. Vasili Vereşşaginin müəllifi olduğu fotolar Şuşanın tarixinə dair dəyərli mənbədir.[2]

Virciniyada çapdan çıxmış "Alexandria Gazette" adlı mətbu orqanında "Vəba" başlıqlı bir məqalədə 1892-ci ildə Azərbaycanın bəzi bölgələrində baş vermiş vəba xəstəliyi və onun fəsadları barədə maraqlı məlumatlar verilir. Məqalədə belə qeyd edilir:

*"London, 29 iyun. – Persiyanın Məşhəd şəhərində vəbadan ölənlərin sayı artmağa davam edir. İndi gündəlik olaraq orta ölüm səviyyəsi 25 nəfərdir. Əvvəlki rəsmi xəbəri gündəlik orta ölüm sayının 35 nəfər olması əvəzlədi. İyunun 26-da Rusiyada, Bakı şəhərində hospitala 35-dən çox xəstə daxil oldu. Bunlardan 18 nəfəri öldü. Orada 84 nəfər hələ də xəstəlikdən əziyyət çəkir. Şuşada, türk sərhəddi yaxınlığında 3 hadisə qeydə alınıb. İndiyə qədərki hesabatlar iyun ayı ərzində bütün yerlərdə geniş ərazidə xəstəliyə məruz qalan 512 nəfərdən cəmi 374 nəfərinin öldüyünü göstərir. Əgər rəqəmlər etibarlıdırsa, bu o qədər də narahatedici deyil."*[3] Qeyd edək ki, bu məlumat demək olar ki, bir çox ABŞ mətbu orqanlarında yayımlanmışdır.[4] Luiziana ştatının Nyu Orlean şəhərində çapdan çıxan "The Times-Picayune" qəzetinin 1894-cü il, 21 sentyabr tarixli nəşrində məhərrəmlik ayında Qafqazda, o cümlədən də Şuşada keçirilən əzadarlıq məclislərinə həsr edilmiş bir məqalə diqqəti cəlb edir. Həmin məqalə "Qızğın Məhərrəm məclisi. Hamısından ən mənzərəli və ən diqqətəlayiqi. Dünyada möhtəşəm dini mərasimlər. Şiələrin "Hüseyn məclisi. Müsəlman şəhidinin öldürülməsinin xatirəsinə"[5] adlanır. Həmin məqalədə belə qeyd olunur:

*"İki böyük müsəlman məzhəbindən sünnilər daha ortadoksal hesab edilir. "Nyu York Tribun" bildirir ki, hər halda, onlar inancın texniki tələblərinə, ibadət formalarına, oruc, bayram və digər mərasim funksiyalarına daha çox riayət edirlər. Digər tərəfdən isə şiələr skeptik və laqeyddir, ilin bir qısa dövrü istisna olmaqla dini*

---

[2] "Vassili Verestchagin", *Pittsburgh Daily Post*, Monday, January 12, Pittsburgh, Pennsylvania 1891, p. 4.
[3] "Cholera", *Alexandria Gazette*, Wednesday, June 29, Alexandria, Virginia 1892, p. 2.
[4] "Cholera Epidemic", *St. Louis Post-Dispatch*, Wednesday, June 29, St. Louis, Missouri 1892, p. 5; "The Epidemic crosses into European territory at Astrakhan", *The New York Times*, Monday, July 04, New York 1892, p. 1
[5] "The passion play of Moharrem", *The Times-Picayune*, Friday, September 21, New Orleans, Louisiana 1894, p. 2.

*məsələlərə az diqqət yetirirlər. Lakin kafirlərin və gavurların iyul adlandırdıqları ayda Məhərrəm məclisləri başlayanda onlar sünnilərlə müqayisədə daha şövqlü dindar olurlar. Sanki bir ayda digər on bir ayın laqeydliyini kompensasiya etməyə çalışırlar. Məclisin ilk 10 günü ərzində onlar ən ciddi şəkildə oruc tuturlar. Nə baş qırxarlar, nə də saqqal. Onlar 7-ci əsrin faciəsinin – şiələrin müqəddəsləri – Əli, o cümlədən Hüseynin Ərəb xəlifəsi Yezidin fitvası ilə oğlanları ilə birgə vəhşicəsinə qətlə yetirilmə hekayəsini oxuyur, ya da onlara oxunulur. Onlar gecə boyu davam edən dərvişlərin çılğın rəqslərinə qoşulurlar, o vaxta qədər ki onlar yorğunluqdan qopub gözləri önündə imamın qətlinin nümayiş olunduğu müdəqqəs tamaşada təntənəli bir vəzifə olaraq iştirak etsinlər."Hüseyn məclisi" bütün dünyadakı "coşğun tamaşa"lardan ən mənzərəli və ən diqqətəlayiqidir. Bu Persiyanın, Qafqaz və Əfqanıstanın şiə əhalisi arasında Məhərrəm məclisinin ən möhtəşəm xüsusiyyətidir. Lakin "London Standart"dan olan müşahidəçiyə görə Transqafqazın Yelizavetpol əyalətinin kimi qeyd edilən və tanınan Qarabağın qədim paytaxtı Şuşada Transqafqaz tatarlarının Hüseynin qətlini, daha doğru ifadə etsək açıq-aydın barbarlığa, çəkdiyi əzablara və işgəncələrə könüllü olaraq dözdüyünə görə bu şəhadət prosesinin təntənəli yürüşlə anılması öz xarakterinə görə tamamilə unikaldır və analoqu yoxdur. Şuşada Məhərrəm məclisləri şiələr arasında məşhurdur və transqafqazın aparıcı mərkəzlərindən – İrəvandan, Şimali Persiyadan və Asiya Türkiyəsindən çoxlu sayda dindarları özünə cəlb edir. Mərasim 10 gün davam edir. Şuşada Hüseyn mərasimləri keçirmək ənənə halını almışdı... hər növbəti gün məscidin qarşısında, açıq havada və karvansara əhatəsində məclis keçirilirdi. Şəhidlər üçün yürüş məclisin yekun hadisəsi kimi təşkil edilirdi və müqəddəs İmam Hüseynin qətlinin anılması ilə yekunlaşırdı.Şuşa daha təmiz və bəzi düz küçələri olan normal Qafqaz tipli şəhərdir. Lakin dağınıq quruluşa malikdir. Belə ki, ərazinin böyük hissəsini əhatə edir və transqafqaz tatarlarının evləri Məhərrəm məclisləri kimi açıq havada keçirilən tamaşaları izləmək üçün yaxşı uyğunlaşdırılmışdır. (Şuşadakı evlər – E.N.) əksər hissələrdə ikimərtəbəlidir, ikinci mərtəbələrində açıq balkon və ya veranda var. Evlərin damı aşağıya doğru elə formada tikilmişdi ki, günəşdən və əlverişsiz havadan qorumaq üçün sığınacaq rolu oynayırdı. Mərasim keçirilərkən "əzabkeşlər"in səhər keçdikləri məscidə yaxın küçədəki döngədə bütün balkonlar tutulmuş olurdu, küçələr isə dindarlar və nizamlı bir izdihamla dolu olurdu; amma belə bir izdihamı yalnız transqafqaz yüksəkliklərində görmək olardı. Çərkəz tipli əsl tatar*

*qanlılar uzun, qara "xalat" və "qalpaq"da, keçə xalat və xəz papaqda; konusvari Astraxan baş geyimində yuxulu görünüşlü farslar öz milliyyətini nümayiş etdirirdilər; Xəzər dənizi regionlarından olan əcnəbilər türbanlarda və dizə qədər çatan, daxilə yönələn qıvrım-qıvrım nöqtələri olan hərbi çəkmələrdə, qadınlar ayaqlarına kimi onları örtən, heç bir şey görməyə imkan verməyən yaşmaqda olurlar, ancaq gözləri üçün yaşmaqda açılan deşiklər və bir cüt sarı çəkmələri görünür. Hazırda və daha sonra rus rəsmiləri hərbi mərasim papağında və boz paltoda, adamlar arasında rahat şəkildə yerlərini tuturlar burada və orada qaragözlü "Kauli" vəya qaraçı at satıcıları gözünüzə dəyə bilər... Məscidin iki minarəsi və mərkəzi günbəzində ağ bayraqlar var ki, onları da bir neçə atlı götürür və xətt boyu aralıqlarla qruplaşdırırlar. Küçənin yalnız bir tərəfini tutan yürüşün digər tərəfdən daha asan keçməsini təmin etmədən izdiham inamlı və nizamlıdır, lakin insanların əksəriyyəti ritmik formada, meditativ şəkildə sinələrinə döyürlər və ya səssiz bir bağlılıqla özlərini önə və geriyə doğru yırğalayırlar. Həmin anda ağ bayraq dalğalandıran bir atlı keçir, hərəkət edən kütlənin aramlı səsi eşidilir və bütün başlar şövqlə yüksəklərə doğru çevrilir, arxasında təpəlik fonla uzaqdakı ağ sütun cəsarətlə önə çıxır. Səsküylü nidalar qeyri-müəyyən şəkildə qulağa çatır və daha sonra da "Hüseyn!", "Hüseyn!" sözləri yüksək səslə təkrarlanır. Tatarlar müqəddəsin adını belə tələffüz edirlər. Hüseyn eşidilir, "əzabkeş"lərin yaxınlaşmasından xəbər verir. İzdiham tərəfindən fəryad qoparılır və bir az vaxt ötdükdən sonra yürüş edən kütlə daha yaxşı görünür. Qarşıda günün daha kiçik - könüllü şəkildə az miqdarda əzaba razı olan "əzabkeşləri" gəlir. Sayları iki-iki addımlayan 150 nəfərdir. Hər biri başı qırxılmış və ayaqyalın hərəkət edirlər, boyun ətrafına bağlanılmış və çılpaq ayaq biləklərinə qədər asılmış uzun ağ parça geyinirlər. Hər birinin sağ əlində kəskin, əyri və çarpaz saplı qılınc var. Qılınc özünəməxsus şəkildə tutulur, baş barmaq eləcə də şəhadət barmağı ilə tutulur, 3 barmaq isə qulpun ətrafında olur, tiyə içəriyə doğru çevrilir. Silahı tutan sağ əl sinəyə sıxılır və iti kənarını çılpaq alına elə bir tərzdə tuturlar ki, onu daşıyan hərəkət etdikcə bədəni və dərini kəsir. Alınları və qafa tasının ön hissəsinin sümüyünə vurulur və dərin kəsiklərlə yaranır, həmin kəsiklərdən qan damcılayır.Üz qatılaşmış və laxtalanmış qanla örtülü, zolaq-zolaq olur, gözlərin sarısı və dişlərin ağından başqa heç nəyin görünmədiyi, insanın xüsusiyyətlərini effektiv şəkildə maska kimi gizlədən qaranlıq şəbəkə yaradır. Hər birinin önündən asılı olan ağ parça qılınc kəsiklərindən davamlı olaraq damcılanan laxtalanmış və qatılaşmış qanla*

*örtülürdü, küçələrdəki daşların iti kənarlarının üryan ayaqları üzərində açdığı qanayan ləkələr vardı. Vaxtaşırı onlar irəli doğru yollarına davam etdikcə bu prosesin iştirakçıları daşıdıqları qılıncları qaldırır və onların başına enən qılınc qan damcılayan yeni-yeni və dərin yaralar açırdı. Onlar bunu edərkən iştirakçılar gözlərini səmaya doğru yönəldərək əlləri ilə sinələrinə vurur və qışqırırlar: "Bizim təqvalılara nəzər eylə, ya Hüseyn!", "Bizim dürüstlüyümüzün sütunlarına nəzər eylə, ya Hüseyn!" Səslər daha da güclənir, "Hüseyn"çağırışları daha da coşğun olur və həmin anda əzabkeşlərdən birincisi ortaya çıxır, bir neçə qan ləkəli qılınc daşıyıcısının yanında irəliləyir..."* Bu məlumat Nyu Yorkda eyni ildə noyabrın 11-də çap edilən eyni məzmunlu məqalə də təkrar çap edilmişdir.[6]

1902-ci ildə Massaçusets ştatında çapdan çıxan "Boston Evening Transcript" qəzetində "Qafqazın ruslaşdırılması" adlı məqalə dərc olunub.[7] Sankt-Peterburqdakı "Tayms" qəzetinin müxbiri tərəfindən də istinad edilən "Novaya Vremya" adlı qəzetin bu məqaləsində Qafqazda soyğunçuluğun yayılması məsələsi müzakirə olunur. Məqalədə qeyd olunur ki, Qafqazda yayılan qanunsuzluq halları getdikcə daha da artır və hər gün daha təhlükəli hal alır. Bu hadisələrin fonunda Şuşada, Bakıda baş verən soyğunçuluq halları misal göstərilir. Qəzet rusları daha mədəni göstərərək əslində dövlətin hər zaman niyyətində olduqları ruslaşdırma siyasəti üçün səbəb yaradır. Təsadüfi deyl ki, Qafqazda qanun pozuntularının qarşısının alınması kimi halların qarşısının alınması üçün "Novaya Vremya" qəzeti belə bir təklif edirdi:

*"Məqalə hökumətə rusların Qafqaz əhalisi arasında say nisbətinin artırılmasını şiddətlə tövsiyə edir. Deyilir ki, bütün sakinlər rus dilini öyrənməyə məcbur edilməlidir və kiçik, eləcə də daha yüksək inzibati vəzifələr ruslara verilməlidir".*

Əslində baş verənlər çar Rusiyasına qarşı narazılıq dalğasının bir forması idi. Yəni çar hökumətinin özünün soyğunçu siyasətinə qarşı bir mübarizə forması idi. Eyni məzmunlu Nyu Yorkda "The Buffalo Review" adlı qəzetdə çap olunan "Qafqazda quldurlar cürətlidir" başlıqlı məqalədə də maraqlı məlumatlara rast gəlirik.[8] Həmin məqalədə hətta Qafqazda rus şahzadəsinin öldürülməsi barədə də məlumat verilir.

---

[6] "Moslem passion play", *Democrat and Chronicle*, Sunday, November 11, Rochester, New York 1894, p. 3
[7] "Russianize the Caucasus", *Boston Evening Transcript*, Monday, November 03, Boston, Massachusetts 1902, p. 14.
[8] "Brigands bold in Caucasus", *The Buffalo Review*, Tuesday, November 04, Buffalo, New York 1902, p. 2.

1903-cü il 30 iyul tarixində “Boston Evening Transcript” qəzetində “Persiyanı kim idarə edir?” başlıqlı məqalədə[9] Gülüstan müqaviləsi barədə məlumat verilir. Həmin məqalədə belə qeyd edilir:

*“1813-cü il Gülüstan (məqalədə - Culistan – E.N.) müqaviləsi ilə Persiya Rusiyaya Dağıstanı, Şirvanı və Şuşanı güzəştə getdi, eyni zamanda Gürcüstan və Qafqazın digər əraziləri üzərində olan bütün iddialarından imtina etdi.”* Eyni məlumat dövrün digər qəzetlərində də dərc edilmişdir. [10] 1905-ci il sentyabrın 5-də ABŞ-ın Ohayo ştatında çapdan çıxan “The Daily Times” qəzetindəki “Qiyamda 50 nəfər öldürüldü” başlıqlı məqalədə əsasən Bakıda hökumət əleyhinə baş verən hadisələrə işıq tutulur. Bakıda baş verən döyüşlər zamanı 50 nəfərin öldürülməsi qeyd olunur. 2 sentyabr tarixində baş verən bu hadisə zamanı çoxlu sayda yaralananların olması, onların da çoxunun Azərbaycan türkləri (mənbədə tatarlar – E.N.) olması qeyd olunur. Verilən xüsusi depeşalara görə Bakıda 151 tikili dağıdılmışdır. Bakı ilə yanaşı Şuşada da bu cür toqquşmaların olmasına da mənbədə diqqət çəkilir və bir cümlə ilə belə qeyd olunur: *“Şuşada iğtişaşlar yenicə dayandırılmışdı ki, Bakıda tramvayların tətili yeni narazılıqlara şərait yaratdı”.*[11]

Montanada 1895-1921-ci illərdə çapdan çıxan “Great Falls” qəzetinin 1906-cı il buraxılışında “Yenidən irqçi müharibə” adlı məqalə diqqəti cəlb edir. Bu məqalədə Şuşada, Gəncədə baş verən qırğınlardan bəhs edilir:

*“Yelizavetpol (Gəncə - E.N.), Transqafqaz, 31 yanvar. Ermənilərin və Tartarların (tatarların, yəni türklərin – E.N.) bir-birini qırdığı Yelizavetpol və Şuşa arasındakı vilayətdə yenidən irqçi müharibə baş verdi. Bu dəhşətlərə vilayətin əhalisinin aclıqdan ölməsi və tif xəstəliyinin tüğyan etməsi də əlavə olunur. Ərzaq və ya tibbi yardım göndərmək mümkün deyil.”*[12]

Pensilvaniyanın Lankaster şəhərində çapdan çıxmış “The News-Journal” adlı mətbu orqanında “Qafqazda ciddi narahatlıq. Döyüşən qruplaşmalar geniş miqyasda hərbi fəaliyyəti davam etdirir” başlıqlı bir məqalədə 1905-ci il iyul ayının sonlarında

[9] “Who Controls Persia?”, *Boston Evening Transcript,* Thursday, July 30, Boston, Massachusetts 1903, p. 10.
[10] “Seek control of Persia, Russia and England Engaged in a Great Game of Diplomacy”, *The Anaconda Standard,* Tuesday, August 25, Anaconda, Montana 1903, p. 10; “Russia is Steadily Aggressive”, *Nashville Banner,* Monday, September 28, Nashville, Tennessee 1903, p. 1.
[11] “50 killed in revolt”, *The Daily Times,* Tuesday, September 05, New Philadelphia, Ohio 1905, p. 1.
[12] “Race war again”, *Great Falls Tribune,* Thursday, February 01, Great Falls, Montana 1906, p. 1.

Qarabağın mərkəzi Şuşa şəhərində - ermənilər tərəfindən Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törədilmiş soyqırımları barədə maraqlı məlumatlar verilir:

*"Alovlar içərisində olan bir şəhər – Şuşa Ermənilər və tatarlar (Azərbaycan türkləri nəzərdə tutulur – E.N.) ölümcül müharibə aparırlar və problemlər olan yerə isə rus qoşunları göndərilmişdir. Sankt-Peterburq, 31 iyul. – 29 iyuldan bu depeşalardan da gözlənildiyi kimi ermənilər, tatarlar və rus qoşunları arasında Şuşadakı üçətərəfli sülh qısa müddətli oldu. Ağ bayraqların nümayişi və davamlı sülhün bərqərar olması üçün döyüşən qruplaşmaların nümayəndələrinin təyin edilməsi dünən daha geniş və daha qanlı ölçüdə ədavətin yenidən başlanmasının başlanğıcı oldu. 30.000 nəfər əhalisi olan, göründüyü kimi tatar məhəllələri alovlar içərisində olan Şuşa şəhərinin sadəcə özündə (Tiflisdən 180 mil cənub-şərqə) tam təşəkküldə döyüşlər getmirdi, həm də ətrafa yayılırdı. Tatar əhali ayağa qalxmışdı, erməni və rus qoşunlarını üstələməyə çalışırdı. Rus qoşunlarının komandanı general Zoloşşakov (Qoloşşapov ? – E.N.) təcili olaraq əlavə qüvvə istəmişdi. Hadisə yerinə - əsgərlər olan ən yaxın məntəqəyə artıq Yelizavetpoldakı atıcılardan ibarət bir batalyon göndərilmişdi. Qeyd etmək lazımdır ki, ötənilki iğtişaşlarda tatarları erməni hücumlarından müdafiə etməkdə təqsirləndirilən ruslar, indi özləri Məhəmmədi qoşunları tərəfindən sıxışdırıldı."*[13]

Şimali Karolina ştatında 20 yanvar, 1906-cı ildə dərc olunan "The Charlotte News" qəzetində Şuşada ermənilərin törətdiyi soyqırımları, dinc əhaliyə aman verilməməsi, hətta göstərilən humanitar yardımlara da əngəl törətmələrinə dair maraqlı bir məlumat yer alır. Həmin məqalədə belə qeyd olunur:

*"Hökumət Şuşanın ac müsəlmanlarına ərzaq çatdırmaq üçün dəfələrlə cəhd edir, lakin bütün cəhdlər əbəsdir. Ermənilər dağ keçidlərini tutublar. Bütün bölgə ermənilər tərəfindən təcavüzə məruz qalır. Dəhşətli vəhşiliklər. Qadınlara və uşaqlara aman verilmir.Yelizavetpol (Gəncə - E.N.), Zaqafqaziya, 20 yanvar – Ağdamdan olan kuryer Şuşanın ac və mühasirəyə alınmış müsəlmanlarına ərzaq karvanının çatdırmaq üçün dəfələrlə etdiyi cəhdləri təsvir edir. Karvan qoşunların güclü dəstəyi ilə, müsəlman könüllülər və köməkçilərlə 3 dəfə yola çıxsa da, dağ keçidlərini tutan ermənilər tərəfindən qarşısı alınmışdır. Ağdam ətrafında bütün rayon ən dəhşətli vəhşiliklər törədən, yaralılara, qadınlara, uşaqlara aman verməyən ermənilər və digərləri*

[13] "Serious trouble in the Caucasus", *The News-Journal*, Tuesday, July 31, Lancaster, Pennsylvania 1906, p. 1.

*tərəfindən təcavüzə məruz qaldı. Müsəlmanlar məşhur Qarapirim ziyarətgahına edilən hücumdan çox hiddətləniblər. Şiddətli qarşıdurmadan sonra hücum edən ermənilər 50 ölü və ya yaralısını qoyub qaçdılar."* [14] Bu məlumat ABŞ-da nəşr olunan digər qəzetlərdə də çap olunmuşdur.[15] Şimali Karolina ştatında Şarlotte şəhərində çap olunan "The Charlotte News" adlı qəzetdə 1915-ci ildə birinci dünya müharibəsinin gedişində Osmanlı imperiyasının Qafqaz cəbhəsində qazandığı uğurlardan bəhs edən 1915-ci il iyun ayının 24-də "Türklər Qafqazda qalib gəlir" adlı məqalə dərc edilmişdir. Bu məqalədə belə qeyd olunur:

Qeyd edilən dövrdə ölkə ərazisində rast gəlinən torpaq, küp, saxsı təknə, daş qutu, sərdabə, katakomba, kurqan kimi daha çox bütpərəstlərə aid, kərpicdən inşa edilən sərdabə, daş sarqofak, sadə topraq qəbirlər kimi daha çox xristianlara aid olan abidələrinəksəriyyətinə Şəki vilayəti ərazisində rast gəlinsə də, daş qutu, torpaq və küp qəbirlər kəmiyyətcə çoxluq təşkil edir.

Eramızın ilk əsrlərindən etibarən Azərbaycanda xristianlığın, VII-VIII əsrlərdən İslam dininin yayılması qəbir abidələrinin tərtibatında, forma və məzmunundaəsaslı dəyişikliklərin baş verməsinə gətirib çıxarmışdır.Bununla belə, əhalinin dini-mifik təfəkküründə, maddi və mənəvi mədəniyyətində minilliklərlə önəm verdiyi, qoruyub yaşatdığı dəyərlər təktanrılı dinlərin ərazidə qərarlaşmasına rəğmən tamamilə silinib getməmişdir. Xristian və İslam dinlərinin qəbirlərə və dəfn mərasimlərinə münasibətdə fərqli mövqe sərgiləməsi əhalinin bu abidələrə marağını, verdiyi dəyəri heç də azaltmamış, bütpərəst və xristian abidələrinin tədricən məhdudlaşmasına baxmayaraq, daş qutu, sərdabə, küp, torpaq qəbirlər kimi abidələr təqribən IX-X əsrlərədək öz mövqeyini qoruyub saxlamışdır.

Müəllif məqalədə, Şəki vilayətinin bir sıra ərazilərində (Kiş, Oxud, Baş Şabalıd, Orta Zəyzid, Baş Küngüt və sair kəndlərində) aşkara çıxarılan erkən orta əsr və qismən antik qəbir abidələrini tədqiqata cəlb etməklə, alban etnoslarının maddi və mənəvi mədəniyyətini, mifik dünyagörüşünü yeni faktlar əsasında öyrənmiş, elmi əsaslarla təhlil etmişdir.

---

[3] Kamal Əliyev-Fəridə Əliyeva, *Azərbaycan antik dövrdə (e.ə. IV-b.e.III əsrləri)*, Azərnəşr, Bakı 1997, s. 13.
[4] Mübariz Xəlilov, *Albaniyanın qəbir abidələri (IV-X əsrlər)*, Nafta-Press, Bakı 2009, s. 18, 86-89.

## 1. Mövzunun Öyrənilmə Səviyyəsivə Ərazidə Aparılan Tədqiqatlar

Albaniyanın əhəmiyyətli bölgələrindən olan Şəki vilayətinin tarixi-arxeoloji abidələrinə daxil olan müdafiə istehkamları, yaşayış yerləri, qəbir abidələri, alban məbədləri və dini-memorial abidələr görkəmli alimlər L. Bretanski, D. Axundov, F. Qədirov, A. Qaraəhmədova, G. Məmmədova, N. Muxtarov, T. Axundov, V. Kərimov və başqaları tərəfindən tədqiqata cəlb edilmiş, bir sıra dəyərli elmi nəticələr əldə edilmişdir. Lakin vaxtaşırı və bəzən də ardıcıl şəkildə ərazidə aparılan arxeoloji qazıntılarbu ərazinin ilk orta əsrlər dövrünün tarixi-arxeoloji cəhətdən öyrənilməsi üçün yetərli olmamışdır. Xüsusən də, bu tədqiqatların daha çox Tunc və Antik dövrlərə aid yaşayış yerləri, qəbir abidələri və müxtəlif təyinatlı tikililərdə aparılması ilk orta əsr abidələrinin sistemli şəkildə öyrənilməsini qismən kölgədə qoymuşdur. Bununla belə, ərazidə müxtəlif dövrlərdə aparılan bəzi arxeoloji və kəşfiyyat xarakterli araşdırmalar, xüsusən mərhum arxeoloq N.Muxtarovun tədqiqatları, o cümlədən məişət-təsərrüfat qazıntıları nəticəsində əldə edilən materiallar ilk orta əsr qəbir abidələrinin tipologiyası, xarakteri haqda müəyyən qənaətə gəlməyə əsas yaratmışdır.

Qeyd etmək lazımdır ki, Albaniyanın ilk orta əsr yaşayış yerlərinə nisbətən qəbir abidələri daha yaxşı öyrənilmişdir. Onların öyrənilməsinə XIX əsrin sonlarında başlanılmış, araşdırmalar XX əsrin 40-50-ci illərindən etibarən kompleks və sistematik xarakter almışdır.[5]Qeyd edilən dövrdə arxeoloji tədqiqatlar daha çox məşhur arxeoloqlar Y.A.Poxomov, S.M.Qazıyev, R.M.Vahidov, A.A.İessen, C.Ə.Xəlilov, A.B.Nuriyev və başqaları tərəfindən Şamaxı, Qəbələ, Mingəçevir, Quba-Xaçmaz bölgələrində aparılmışdır. Tarixi Şəki vilayətinə daxil olan indiki Qax rayonu ərazisində 1959-cu ildən etibarən arxeoloji ekspedisiya fəaliyyətə başlamış və arxeoloq alim R.M.Vahidov tərəfindən Torpaqqala yaşayış yerində V-VII əsrlərə aid xristian qəbirləri aşkar edilmişdir.[6]Arxeoloq A.Ə.Qarəhmədovanın rəhbərliyi ilə Qəbələ arxeoloji ekspedisiyasının Alazan dəstəsi 1979-cu ildən şimal-qərb bölgəsində arxeoloji tədqiqatlar aparmış,[7]1981-ci ildə Şəkinin Baş Göynük kəndindəki sövməənin tədqiqi ilə yanaşı, yaxın ərazidə antik və ilk orta əsrlərə aid torpaq qəbirlərin mövcudluğu haqda məlumat vermişdir.[8]80-ci illərdə Qax rayonundakı Ləkit məbəd kompleksi

---

[5] M. Xəlilov, *a.g.e.*, s. 9-12.
[6] M. Xəlilov, *a.g.e.*, s. 12-13.
[7] Aliyə Qaraəhmədova, *Qafqaz Albaniyasının xristian abidələri (Alazan hövzəsi)*, Afpoliqraf, Bakı 2017, s. 7-8.
[8] Aliya Karaxmedova, *Arxeoloqiçeskiye i Etnoqrafiçeskiye izıskaniya v Azerbaydjane (1980-1981 q.q.)*, Elm , Вaкu 1986, str. 74-77.

ilə yanaşı, ərazidəki kirəmit və sərdabə tipli qəbirlər,[9] Şəki rayonunun Kiş kəndindəki məbəd ərazisində xristian qəbirləri aşkar edilərək öyrənilmişdir.

Yevlax-Balakən dəmiryolunun tikintisi ilə əlaqədar aşkara çıxan abidələrin qeydə alınması və öyrənilməsi məqsədilə 1982-ci ilin aprelində Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun Yevlax-Balakən arxeoloji ekspedisiyası və onun Şəki dəstəsi fəaliyyətə başlamış, arxeoloq alim T. İ. Axundovun rəhbərliyi altındaŞəkinin Küdürlü kəndi yaxınlığında və kənd ərazisində Orta tunc dövründən-Erkən dəmir dövrü arasındakı zaman kəsiyini əhatə edən kurqanlar müəyyən edilmişdir.[10] Şəki ərazisində arxeoloji tədqiqatlar məhz həmin dövrdən etibarən müntəzəm xarakter almışdır.

1980-ci illərin əvvəllərindən 2018-ci ilədək arxeoloq N. Muxtarovun rəhbərliyi ilə fəaliyyət göstərən Şəki dəstəsi (1990-cı illərin əvvəllərindən Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Şəki arxeologiya-folklor qrupu adlanıb) tərəfindən Şəki şəhərinin bəzi hissələrində, Giləhli məhəlləsində, Kiş "Doxun" nekropolunda, Küngüt və Orta Zəyzid kəndlərində, Fazıl və Yoncalı nekropollarında, Oxud kəndi ərazisindəki Alagöyüt adlanan antik və ilk orta əsrlərə aid yaşayış məskənində və digər ərazilərdə küp, torpaq, xristian və müsəlman qəbirləri aşkarlanaraq öyrənilmişdir.

Arxeoloqlar V. A. Məmmədov və N. M. Muxtarovun rəhbərlik etdiyi Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun Şəki dəstəsi 1984-cü ildə müasir Şəki şəhəri ərazisinin bir neçə məntəqəsində qazıntı işləri aparmış, şəhər ərazisində bir neçə torpaq və küp qəbir aşkar etmişlər.[11]

1986-cı ildə N. Muxtarovun rəhbərliyi altında aparılan arxeoloji kəşfiyyat işləri nəticəsində Şəki rayonun Kiş, Şin, Zəyzid və Əyriçay çayları hövzələrində olan abidələr qeydə alınmış, Kiş kəndi yamaclarında yaşayış məskənləri və qəbir abidələrinin movcudluğu müəyyənləşdirilmiş, Kiş çayının müntəzəm olaraq uçurub məhv etdiyi Doxun nekropolunda xilasetmə işləri görülmüşdür.[12]1986-cı ildə Şəki dəstəsi N. Muxtarovun və P.Paşayevin

---

[9] A. Qaraəhmədova, *a.g.e.*, s. 10-14.
[10] Tufan Axundov, *"Otçot I Şekinskoqo otryada Yevlax-Belakinskoy arxeoloqiçeskiy ekspediçii za 1983 q."*,Əlyazma hüququnda, AMEA Arxeologiya, Antropologiya və Etnoqrafiya İnstitutunun Elmi arxivi, sənəd h-378, Bakı 1983.
[11] Nasib Muxtarov, "*O rabote Şekinskoqo otryada za 1984 qoda",* Arxeoloqiçeskiye otkrıtıya jurnalı, "Nauka", Moskva 1986, str. 422.
[12] Nəsib Muxtarov, *"1986-cı ildə Şəki rayonu abidələrində xilasetmə işlərinə dair hesabat",* Əlyazma hüququnda, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Elmi arxivi, sənəd h-479, Bakı 1986, s. 1-3.

rəhbərliyi ilə Şəkinin Kiş dərəsindəki abidələrdə arxeoloji qazıntı və xilasetmə işləri aparmış, son antik-ilk orta əsrlərin başlanğıcına aid nekropol aşkar etmişdir.[13]

N. Muxtarov tərəfindən 1997-ci ildə Fazıl kəndinin cənub-qərbində, kənddən 0,5 km aralıda antik və ilk orta əsrlərə aid qəbirlər, həmçinin ilkin dövr müsəlman qəbiristanlığı aşkarlanmış, bəzi qəbirlər tədqiq edilmişdir.[14]1998-ci ildə N.Muxtarov tərəfindən Orta Zəyzid kəndinin cənub-şərq hissəsində qısmən qalıqları qalan son antik dövrdən klassik feodalizm dövrünədək istifadə olunan Zər-zər qalası ərazisində daş qutu qəbirlər və müsəlman qəbiristanlığı, kəndin şimal-şərqində Qaraco adlanan yerdə isə torpaq və daş qutu qəbirləraşkarlanaraq, ilkin tədqiqat işləri aparılmışdır.[15]Məşhur arxeoloqlar V.İ.Kərimovun və B.Sturfielin rəhbərliyi ilə 2000-2001-ci illərdə Azərbaycan-Norveç birgə ekspedisiyası Kiş məbədi ərazisində apardığı qazıntı işləri zamanı ərazidən müxtəlif tipli qəbirlər aşkara çıxararaq öyrənmişdir.[16]

V.Kərimovun 2004-2005-ci illərdə Şəkinin Orta Zəyzid kəndi ərazisindəki V-VIII əsrlərə aid xaçvari məbəd ərazisində tədqiqatları zamanı xristian qəbirləri aşkar edilmişdir.[17]

2017-ci ildə müəllifin iştirakı ilə görkəmli arxeoloq alim, professor A.A.Məmmədov tərəfindən Şəkinin Baş Şabalıd kəndi ərazisində aparılan tədqiqatlar zamanı Alban məbədi yaxınlığında xristian və bütpərəst qəbirləri (daş qutu qəbirlər) aşkarlanaraq tədqiqata cəlb edilmişdir.[18]2020-ci ildə Şəkidə "Kiş" Tarix-Memarlıq Qoruğunda Azərbaycan-Qazaxıstan beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən arxeoloji və antropoloji tədqiqatlar aparılmışdır. Müəllifin də iştirakı ilə arxeoloq alim Z.H.Həsənovun rəhbərliyi altında aparılan tədqiqatlar nəticəsində antik və ilk orta əsrlərə aid "Doxun" nekropolundan küp və torpaq qəbirlər aşkar olunmuşdur.[19]

Bəzi qəbir abidələri 2018-2022-ci illərdə müəllif tərəfindən Şəkinin Baş Babalıd, Orta Zəyzid, Baş Küngüt, Oxud kəndlərində dağılmış şəkildə qeydə alınaraq öyrənilmişdir. Onların təbii və antropogen təsirlər nəticəsində deformasiyaya məruz qalması abidələrin əsaslı şəkildə tədqiqinə çətinlik yaratsa da, qəbir tiplərinin yayılma arealını və tarixini müəyyənləşdirmək və dəqiqləşdirmə aparmaq baxımından böyük dəyər kəsb etmişdir.

---

[13] Nasib Muxtarov-Paşa Paşayev, "*Raskopki v Şekinskom rayone za 1986 qoda*", Arxeoloqiçeskiye otkrıtıya jurnalı, Nauka , Moskva 1988, str. 461-462.
[14] Nəsib Muxtarov, *1997-cı ilin hesabatı,* Əlyazma hüququnda, s. 6, 43-45.
[15] Nəsib Muxtarov, *1998-cı ilin hesabatı,* Əlyazma hüququnda, s.15-16.
[16] Vilayat Kerimov-Bernar Sturfiel, *Kiş (istorya, arxitektura, arxeoloqiya),* "Çaşıoğlu", Bakı 2003, str. 48-71.
[17] Vilayat Kerimov, *Xram Zeyzit Kavkazskoy Albanii,* "Elm", Baku 2008,str. 20, 36-48.
[18] Arif Məmmədov-Elşən Abdurahmanov, *"Qax-Balakən ərazisində ilk orta əsr abidələri",* "2017-ci ildə Azərbaycanda Aparılmış Arxeoloji və Etnoqrafik Tədqiqatların Yekunları" mövzusunda Elmi Sessiyanın Materialları, Bakı 2017-ci il, s. 60-61.
[19] http://www.science.gov.az/news/open/15385(16.12.2020).

## 2. Qəbir abidələrinin tipləri və xarakteristikası

Albaniyanın bütpərəst qəbirlərinə torpaq, küp, saxsı təknə, daş qutu, taxta qutu, kirəmit, çiy kərpic, katakomba, kurqan, xristian qəbir abidələrinə isə sərdabələr, daş sarkofaqlar, daş qutu, torpaq, çiy kərpic qəbirləri aid olunur.[20]Şəki vilayətinin antik və ilk orta əsr qəbir abidələri içərisində bütpərəstlik dönəminə aid küp, torpaq, daş qutu, xristian qəbirləri içərisində daş qutu, torpaq, üzəri sal daşlarla örtülü qəbirlərüstünlük təşkil edir. Ərazidə bu tip qəbir abidələri ilə yanaşı, erkən orta əsrlər dövrünə aid müsəlman qəbir abidələrinə də təsadüf olunur.

### 2.a.Küp Qəbirlər

Bir qrup tədqiqatçı alim Albaniyanın maddi mədəniyyətində öz səciyyəvi xüsusiyyətləri ilə fərqlənən iki böyük zonanın nəzərə çarpdığını diqqətə çatdırır. Onların fikrincə, bu zonalardan biri əsasən Kür çayından şimaldakı ərazini, yəni Alazan hövzəsindən Pirsaat sahillərinə qədər böyük Qafqaz silsiləsinin cənub-şərq yamacları vadisinin sol sahillərini əhatə edir; burada Yaloylutəpə tipli torpaq qəbirlər daha çoxdur. İkinci zonaya küp qəbirlərin üstünlük təşkil etdiyi Kürdən cənubdakı torpaqların-yəni sağ sahil ərazilərinin daxil olduğu vurğulanır.[21]Həmin tədqiqatçılar torpaq qəbirlərlə küplərdə dəfn edilmə arasında istər forma, istərsə də məzmun baxımından böyük fərq olduğunu, onları eyni mədəni prosesin inikası hesab etməyin doğru olmadığını da qeyd edirlər.[22]Lakin müasir Azərbaycan tarixşünaslığında, içərisində sıx bükülü skeletlər olan torpaq qəbirlər-Yaloylutəpə mədəniyyətinin, bir qədər sonralar isə, onunla birgə mövcud olmuş və ondan sonra bir neçə əsr ərzində yaşamış, Albaniya ilə qonşu olan vilayətlərdə də məlum olan küp qəbirlər mədəniyyətinin alban tayfalarının vəhdətinin arxeoloji inikası olduğu qəbul edilmişdir.[23]

Arxeoloq N.Muxtarov 1986-96-cı illərdə Şəkinin Kiş-Doxun nekropolunda apardığı tədqiqatların nəticəsində antik və ilk orta əsrlərin əvvəlinə aid 20-dək küp və torpaq qəbirin eyni xarakterli olduğu qənaətinə gəlmişdir.[24]Arxeoloq alim A.Nuriyev bu mənada yazırdı ki, “Yaloylutəpə mədəniyyətini”, nə də “Küp qəbir mədəniyyətini” ayrıca arxeoloji mədəniyyət adlandırmaq olmaz, onlar Qafqaz Albaniyası əhalisinin həmin dövrdəki maddi və mənəvi mədəniyyətinin xarakterini əks etdirir.[25]

Memarlıq elmləri doktoru, professor Vilayət Kərimov 2000-ci illərdə Azərbaycanın şimal-qərb bölgəsindəapardığı arxeoloji tədqiqatlar nəticəsində küp və torpaq qəbirlərlə bağlı

---

[20] M. Xəlilov, *a.g.e.,* s. 18, 22.
[21] K. Əliyev-F. Əliyeva, *a.g.e.,* s. 20-21.
[22] K. Əliyev-F. Əliyeva, *a.g.e.,* s. 20-21.
[23] *Azərbaycan tarixi,* Yeddi C.də, I C. (Ən qədimdən b.e. III əsri), Elm , Bakı 2007, s. 364.
[24] Nəsib Muxtarov, *1996-cı ilin hesabatı,* Əlyazma hüququnda, s. 2-4.
[25] Aləm Nuriyev, *Remeslo Kafkazskoy Albanii (III-VIII v.v.),* MBM, Baku 2009, str. 12.

yazırdı: "...qəbiristanlıq qalıqlarının antropoloji təhlili hər iki qəbir qrupunun skeletlərinin fiziki xüsusiyyətlərinin oxşarlığı ilə bağlı verilən suala cavab verməyə imkan vermişdir. Onların morfoloji xüsusiyyətlərinin eyni olduğu ortaya çıxmışdır".[26]Zəngin inventarı, xüsusən də çoxsaylı qabları ilə müşayiət olunan küp qəbirlərlə, demək olar ki, inventar dəfnləri olmayan torpaq qəbirlər arasındakı fərqin haqlı olaraq etnik amillərlə deyil, kultlarla, ideoloji ideyaların təkamülü ilə bağlı olduğu fikri irəli sürülmüşdür.[27]

Küp qəbirlərdə dəfnetmə adətinə ilk dəfə Qədim Misirdə e.ə. IV minillikdə, İkiçayarasında və Avropa kontinentində (Aralıq dənizi hövzəsində) e.ə. III minillikdə, Kiçik Asiyada e.ə. III-II minilliklərdə rast gəlinmişdir. Cənubi Qafqaz üçün bu tip qəbirlər e.ə. VIII əsrlərdən bizim eranın VIII əsrinə qədərki dövr üçün xarakterikdir.[28]

İndiyədək Ağdaş, Yevlax, Mingəçevir, Ucar və Zərdabda aparılmış arxeoloji qazıntı və elmi tədqiqat işləri burada həm antik dövrə, həm də ilk orta əsrlər dövrünə aid alban küp qəbirlərinin qalıqlarını aşkara çıxarmağa imkan vermişdir.[29]Dağlıq və Aran Qarabağla yanaşı, Şəki-Qəbələ-Şamaxı istiqamətində küp qəbirlərinerkən orta əsrlərdə daha sıx şəkildə yayıldığı arxeoloji tədqiqatlarda öz əksini tapmışdır.[30]

Azərbaycanda küp qəbirlərin mövcudluğu haqda ilk məlumatı 1895-ci ildə alman pedaqoqu Emil Resler vermişdir. Azərbaycan ərzazisində küp qəbirlərin izlərinə XIX əsrdə təsadüf edilsə də, onların tədqiqinə 1927-ci ildə başlanılmışdır. Həmin il rus ziyalılarından olan V.M.Sısayev Laçın rayonu ərazisində küp qəbirlərinin olduğunu müəyyənləşdirmişdir. 30-cu illərdə Sısayev və məşhur arxeoloq İ.İ.Meşşaninov Mil düzünün ayrı-ayrı yerlərində bir neçə küp qəbirini qeydə almış və qismən öyrənmişlər.[31]

Küp qəbirlərdə ölülər, antik dövrdə olduğu kimi, ilk orta əsrlərdə də, bir qayda olaraq dizdən çox bükülü, əlləri üzə doğru qaldırılmış vəziyyətdə sağ və ya sol böyrü üstə dəfn edilmişdir. Adətən, mərhum küpün içərisinə ağız, yaxud oturacaq hissəsi sındırılmaqla yerləşdirilmişdir.[32]

Şəkinin antik və ilk orta əsr qəbir abidələri içərisində küpdə dəfnetmə mühüm yer tutmuşdur. Azərbaycanın rast gələnən küp qəbirlərinin əksəriyyəti üfüqi istiqamətdə yerləşdirilsə də, Şəki ərazisində şaquli şəkildə basdırılan küp qəbirlərə də təsadüf edilmişdir.

---

[26] V. Kerimov, *a.g.e.*, str. 38.
[27] V. Kerimov, *a.g.e.*, str. 38.
[28] Aleksandr Noneşvili, *Poqrebalnıye obryadı narodov Zaqafqazya (Kuvşinnıy poqrebaniya VIII b.do.n.e.*-VIII *b.n.e.)*, Meçniereba,Tbilisi 1992, str. 3-5.
[29] M. Xəlilov, *a.g.e.*, s. 69.
[30] A. Noneşvili, *a.g.e.*, str.119-123; Карта № 3.
[31] Rəşid Göyüşov, *Azərbaycan Arxeologiyası*, İşıq, Bakı 1986, s. 94.
[32] R. Göyüşov, *a.g.e.*, s. 94.

Şəki ərazisində küp qəbirlərin mövcudluğu ilə bağlı görkəmli ziyalılarımızdanolan R.Əfəndiyev 1928-ci ildə hazırladığı Şəki şəhərinin etnoqrafisinə aid olan materiallar" adlı əsərində məlumat vermişdir. O, Şəki şəhərinin "Yuxarıbaş" adlanan hissəsində, "Giləhli", "Çaqqallı" məhəllələrində, o cümlədən Nuxa qalası ətrafında XX əsrin əvvəllərində ev tikmək məqsədilə aparılan qazıntılar zamanı təsərrüfat xarakterli gil məmulatların, həmçinin, küp qəbirlərin aşkarlandığını bildirmişdir.Küp qəbirlərin içərisindən insan sümükləri ilə yanaşı, tunc silahlar, qızıl sikkələr, bürünc həlqələr, muncuqlar, üstü mina nöqtəli xəncər tiyəsi, kasa və xeyrələr tapılmışdır. Təəssüf ki, R.Əfəndiyevin məlumatında həmin maddi-mədəniyyət nümunələrinin aid olduğu dövr dəqiq təsvir edilməmişdir.[33]

1920-30-cu illərdə Şəki ərazisində küp qəbirlərin tədqiqinə başlanılmış, lakin bu proses davamlı və sistematik xarakter daşımamışdır. 30-cu-50-ci illərin sonlarında Şəki ilə qonşu olan Qəbələ və Qax rayonlarında aparılan arxeoloji qazıntılar zamanı küp qəbirlər də aşkara çıxarılmış və öyrənilmişdir.

1979-cu ildə antik abidələrin öyrənilməsi məqsədilə Şəki-Balakən zonasına edilən səfər zamanı küp qəbirlərə təsadüf edilmiş, Balakən rayonu Puştutala, İtitala, Zaqatala rayonunun Mosul, Qax rayonunun Malax və Zəyəm kəndləri ərazisində, çay kənarlarında antik və ilk orta əsrlər dövrünə aid küp və torpaq qəbirləri ilə müşayət olunan qəbiristanlıqlarda tədqiqatlar aparılmış, insan qalıqları ilə yanaşı, üçayaqlı vazalar, küpələr, xeyrələr, üçləçəkli novçası olan çaydanlar, dopular, şüşə qolbaqlar və digər maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır.[34]Həmin ekspedisiya zamanı Şəki rayonunun Xanabad kəndindən şimalda küp və torpaq qəbirlərin yanaşı olduğu qəbiristanlıq aşkara çıxarılmış, qəbirlərdən sarımtıl rəngli müxtəlif xeyrələr, dəyirmi boğazlı və üçləçəkli ağzı olan dulus qablar, gildən hazırlanmış öküz fiqurları əldə edilmişdir. Səfər zamanı Şəkinin Küdürlü kəndi yaxınlığında analoji tipli qəbir abidələrində, oxşar inventara malik nümunələr qeydə alınmışdır.[35]

Mərhum arxeoloq N.Muxtarov1980-ci illərin ortalarındaGiləhlidə(R. Əfəndiyevin qeyd etdiyi ərazidə-müəllif) dörd ədəd küp qəbir tədqiq etmiş və əldə edilən əmək alətləri, bəzək əşyaları, silahlar və keramika nümunələrinə əsasən qəbirlərin son antik-ilk orta əsrlər dövrünə aid olduğu qənaətinə gəlmişdir.Buradantapılan maddi-mədəniyyət nümunələri

[33] Rəşid bəy Əfəndiyev, *Şəki şəhərinin etnoqrafisinə aid olan materiallar (1928),*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutunun arxivi, arxiv 8, fond 8, s. v.27, s. 5-6.
[34] Vaqif Əsədov, *Azərbaycanın küp qəbirləri,* Azpoliqraf, Bakı 2018, s. 12-18.
[35] V. Əsədov, *a.g.e.,* s. 12-18.

həmdövrKiş-Doxun nekropolunda olduğu kimi, ölünün yanına açıq və ya dəriyə bükülü olaraq qoyulmuşdur.[36]

Doxun nekropolunda, yersəthindən 15-20 sm dərinlikdən başlamış dəfn küplərinə qədər müxtəlif qabların (boz, qara, qəhvəyi, açıq qırmızı və s.) çox xırda parçalarına, bir metr dərinlikdə isə, heyvan sümüklərinə, qəbirin müxtəlif yerində ocaq yerlərinə, mis və ya tuncdan muncuqlara, kiçik bəzək əşyalarına, gözdəyməyə qarşı, bədnəzərdən qorumaq üçün qarnıyarığa, müxtəlif muncuqlara,yanmış heyvan sümüklərinin qalıqlarına təsadüf edilir. Qəbir çalasına dəfn küpləri qoyulmamışdan əvvəl qabları çox kiçik hissələrə qədər qıraraq,qırıqlarını qəbir yerinə tökmüşlər. Maraqlıdır ki, belə qırıqlara dəfn küplərinin içərisində də rast gəlinmişdir. Doxun nekropolu ilə həmdövr olan Giləhli abidəsində də bu adət qeydə alınmışdır.[37]

Azərbaycanın spesifik küp qəbir abidələrindən fərqli olaraq burada dəfn küpləri həcmcə çox kiçikdir, bir qəbirdə bir neçə küp, bir küpün içərisində isə bir, iki və daha çox insan skleti qoyulmuş, küplərin altında və yanlarında insan skletləri aşkar edilmişdir. Küplərin altında, ətrafında dəfn edilən ölülər qəbirə tam bükülü vəziyyətdə, başı şimala, üzü şərqə doğu, cəsədi sağ və sol böyrü üstə qoyulmuşdur. Arxası üstə, qolları sinəsinə çarpazlaşmış vəziyyətdə, dizdən bükülü, ayaq tərəfində dəfn küpü qoyulmuş qəbirə də təsadüf edilmişdir.[38]

1983-cü ildə Oxud kəndinin şimal-qərbində yerləşən ilk orta əsrlərə aid Alagöyüt yaşayış məskəninin mərkəz hissəsində, kiçik kanalın kəsiyindən küp qəbir üzə çıxarılmışdır. Kiş kəndinin Cohur məhəlləsində 1985-ci ildə fərdi ev inşası zamanı sakinlər tərəfindən içərisində insan sümükləri ilə yanaşı, gil qablar, mis, tunc bəzək əşyaları olan küp qəbir aşkarlanmışdır. Əldə edilən nümunələrə əsasən arxeoloq N.Muxtarov tərəfindən küp qəbirlərin erkən orta əsrlərə aid olduğu müəyyən olunmuşdur.[39]

Bununla yanaşı, arxeoloq N.Muxtarov tərəfindən Söyüdlü-Sayvalı və Təpəbaşı nekropollarında (biri yaşlı insana, ikisi körpə uşaqlara məxsus olmaqla) üç küp qəbiröyrənilmişdir.

2018-ci ilin may ayında "Əfqan" şirkətinin Şəki şəhərində su-kanalizasiya təchizatı ilə əlaqədar apardığı qazıntı işləri zamanı (V.Səlimov küçəsi, ev 30-da, yuxarıda qeyd olunan Giləhli məhəlləsindən təqribən 2,5 km aralıda, lakin eyni zolaqda) küp qəbir aşkarlanmışdır

---

[36] Nəsib Muxtarov, Nadir Səmədov və Verdixan Məmmədov, *"Antik dövrə aid Kiş Doxun nekropounda dəfn adətləri haqqında"*, Şəki şəhərində Tarix və Mədəniyyət Abidələrinin Qorunması, Tədqiqi və İstifadə Olunması Problemlərinə Həsr Olunmuş Elmi-Praktik Konfransın Materialları, Bakı-Şəki 1996, s. 21.
[37] N.Muxtarov və dig., *a.g.e.*, s. 22-23.
[38] N. Muxtarov və dig., *a.g.e.*, s. 21.
[39] N. Muxtarov, 1986, *a.g.e.*, s. 2, 7.

(şəkil 1).Küpün kənarının bir hissəsi və inventarı qazıntı zamanı dağıdılmış, həmin hissələr və mərhumun sümüklərinin demək olar ki, hamısı (kəllə sümüyünün bir hissəsi istisna olmaqla) torpaqla birlikdə daşınmışdır. Buna görə, qəbrin inventarı və mərhumun qəbirdə necə dəfn edildiyi barədə dəqiq bilgi əldə etmək mümkün olmamışdır. Tərəfimizdən ərazidə aparılan arxeoloji kəşfiyyat və xilasetmə işləri zamanı, küp qəbirdən təqribən bir metr aralıda, küpün sağ və sol kənarlarında kiçik həcmli keramika nümunələrinə və kömür qırıntılarına rast gəlinmiş, mədəni təbəqənin küpün hər iki ətrafıboyu  təqribən 60-70 sm enində, müəyyən hissələrdə 0,8-1,5-1,6 metr dərinlikdə izlənilmişdir.[40]

Küpün üst hissəsi yersəthindən təqribən 70-80 sm aşağıdan başlayır vətorpağa horizontal şəkildə,yer səthindən 1,5-1,6 m dərinlikdə basdırılıb. Dəfndən əvvəl qabın ağız hissəsi sındırılıb və ya mərhum ağız hissəsi sınıq olan küp içərisində dəfn edilib.Dəfn küpünün hündürlüyü 75 sm,  korpusunun diametri 55 sm, ağız hissəsinin (taclığın) diametri 25 sm-dir. Küpün divarının qalınlığı 1 sm, ağız hissədə 2 sm-dir. Küp qab dulus kürəsində bişirilib. Gilin tərkibində qum qarışığı vardır. Qabın ölçüləri Azərbaycanın müxtəlif ərazilərində-Xınıslı (qədim Şamaxı), Şərgah (Şamaxıdan 25 km aralıda, Bağırlı və Hacıqədirli kəndləri yaxınlığında), Ərəbcəbirli (Göyçay), Borsunlu (Göyçay) Mingəçevir və digər ərazilərdə aşkarlanan son antik-ilk orta əsrlərin başlanğıcınaaid dəfn küpləri ilə oxşarlıq təşkil edir.[41]

Daha dəqiq tarixi dövrləşmə aparmaq məqsədilə bir sıra nümunələr AMEA Radiasiya İnstitutunun laboratoriyasına göndərilmiş və küp qəbirin son antik dövrə aid olduğu məlum olmuşdur.

Tərəfimizdən aparılan xilasetmə işləri zamanı,küp qəbirin ətrafından kiçik olçülü heyvan sümükləri və 3 ədəd heyvan dişi aşkar edilmişdir(şəkil 2).Ərazidə qazıntı və su kanalizasiya təchizatı sisteminin çəkilməsi səbəbilə geniş tədqiqat aparmaq mümkün olmamış, bununla belə, küp qəbirin ətrafında mədəni təbəqə boyunca qazıntı kəşfiyyat işləri aparılmış, küp qəbir torpaqdan çıxarılmışdır.

2018-ci ilin oktyabrında Küngütçayın Çapağan kəndi ərazisindənkeçən hissəsində çay yatağının təbii genişlənməsi nəticəsində iki ədəd küp qəbir aşkar edilmişdir. Küp qəbirlər yer səthindən təqribən 1,4-1,5 metr dərinlikdə üfiqi vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərin ətrafına iri həcmli gil qab hissələri və insan sümükləri səpələnmişdir (şəkil 3). Mövsümlə

---

[40] Elşən Abdurahmanov, *"Albaniyanın Şəki vilayətinin ilk orta əsr qəbir abidələrinin təsnifatı",* "Gənc Alimlərin III Beynəlxalq Elmi Konfransı", 17-18 oktyabr, 2018-ci il, I hissə, Gəncə 2018,  s. 38-41.
[41] A. Noneşvili,  *a.g.e.,* str. 117-123.

əlaqədar çayda suyun artması və lil təbəqəsinin çoxluğu tədqiqatın aparılmasına imkan verməmişdir.

2020-ci ilin mayında Şəkinin Orta Zəyzid kəndi ərazisində, Xaçvari məbəddən təqribən 200 metr şərqdə, uzunmüddətli yağışlardan sonra torpaq aşınması nəticəsində bir ədəd üfüqi şəkildə dəfn edilmiş küp qəbirin qalıqları aşkara çıxmışdır (şəkil 4). Dəfn küpünün eni 70 sm, hündürlüyünün sağ qalan hissəsi 90 sm-dir. Küp qəbirin içərisindən dağınıq halda olan insan sümükləri ilə yanaşı, üç ədəd kiçik həcmli dulus məmulatının müəyyən hissələri əldə edilmişdir. Bu qablardan biri yandırılaraq dəfn küpünün içərisinə qoyulmuşdur. Şar gövdəli olan bu qabın boğaz və ağız hissələri aşkarlanmamışdır. Əldə edilən keramika nümunələrinə əsasən küp qəbirin bizim eranın I-III əsrlərinə aid olması fikrini irəli sürmək olar.[42]

2020-ci ildə Şəkinin Qudula kəndi ərazisində, kənd mərkəzindən təqribən 100 metr cənubda, həyətyanı sahədə sanitar qovşaq üçün quyu qazılarkən küp qəbir aşkarlanmış, lakin ev sahibi buna önəm verməyərək, qazıntını davam etdirmiş və bu qəbir abidəsinin demək olar ki, məhvinə səbəb olmuşdur. Tərəfimizdən əraziyə baxış keçirərkən məlum olmuşdur ki, dəfn küpü mövcud torpaq qatından təqribən üç metr dərinlikdə yerləşmişdir. Dəfn küpünün istiqamətini və ölçülərini müəyyən etmək mümkün olmamışdır. Bununla belə, əldə edilən keramika nümunələrinə əsasən qəbir abidəsinin son tunc-erkən dəmir dövrünə aid olduğu qənaətinə gəlinmişdir.

2020-ci ildə Şəkidə "Kiş" Tarix-Memarlıq Qoruğu ərazisində, müəllifin iştirakı ilə Azərbaycan-Qazaxıstan beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən arxeoloji və antropoloji tədqiqatlar aparılmışdır. Arxeoloq alim Z.H.Həsənovun rəhbərliyi altında aparılan tədqiqatlar nəticəsində 1 nömrəli qazıntı sahəsinin şimal hissəsindən böyük həcmli küpdə kollektiv dəfn aşkar olunmuş, küpün içərisindən və həmçinin ətrafından silah nümunələri-nizə başlıqları və xəncər, canavar dişindən və maral buynuzundan amuletlər, tunc boyunbağı, sümükdən və tuncdan düzəldilmiş müxtəlif düymələr və bir sıra maddi-mədəniyyət nümunələri əldə olunmuşdur.[43]

2022-ci ildə Şəkinin Baş Şabalıd kəndi ərazisində, kəndin müxtəlif hissələrində sakinlər tərəfindən iki ədəd küp qəbir aşkarlanmışdır. Tərəfimizdən qəbirlər qeydiyyata alınsa da, hələlik tədqiqatlar aparılmamışdır.

---

[42] Elşən Abdurahmanov, *"Qafqaz Albaniyasinin Şəki vilayətinin antik və erkən orta əsr küp qəbirləri"*,"5th International Congress of Art, Design And Fashion", April 15, 2021/Florence – Italy,Book of full texts, Ubak Publications – 2021, s. 118-119.
[43] http://www.science.gov.az/news/open/15385 (16.12.2020).

Beləliklə, Şəkinin küp qəbirlərdə dəfn etmə adətinə qısa da olsa nəzər saldıqda, bu dəfn tipinin tunc dövründən başlayaraq erkən orta əsrlər də daxil olmaqla, böyük bir zaman kəsiyindəərazidə müşahidə olunduğunu qeyd edə bilərik. Şəki ərazisində aşkarlanan küp qəbirlərin tarixi dövrləşməsi, yayılma arealı, dəfn forması və inventarı baxımından Azərbaycanın digər yerlərindən tapılan küp qəbirlərlə oxşarlıq təşkil etdiyini qətiləşdirmək mümkündür. Tarixi Şəki viayətinə daxil olan ərazilərdə antik və ilk orta əsrlərə aid küp qəbirlərdə dəfn etmə prosesini bütün parametrləri ilə ümumalban mədəniyyətinin tərkib hissəsi hesab edirik.

Qafqaz Albaniyasında, o cümlədən Şəki vilayətində ilk orta əsrlərdə antik dövrə nisbətən küp qəbir abidələrinin sayının azalması və yayılma arealının daralması müşahidə edilir. Tədqiqatçı alim M.Xəlilov bunu, Albaniyada xristianlığın dövlət səviyyəsinə qaldırılmasındansonra bütpərəstliyin sıxışdırılması prosesi ilə əlaqələndirir.[44]Bizim fikrimizcə, qeyd edilənlərə yanaşı, xristianlıqdan sonra, İslam dininin ərazidə yayılması və möhkəmlənməsi bu prosesin davamlılığına şərait yaratmışdır. İslam dininin özünəməxsus ritualları, dəfn adətləribir çox bütpərəst elementlərin, həmçinin küp qəbirlərdə dəfn etmə adətinin aradan qalxmasına təsir göstərmişdir.

**2.b.Daş qutu qəbirlər**

Bu tip bütpərəst qəbir abidələri Azərbaycanın əsasən şimal-şərq və cənub-şərq bölgələri üçün xarakterik hesab edilmiş, bununla yanaşı, daş qutulara şimal-şərq bölgəsinin antik dövr abidələrində rast gəlinmədiyi, lakin ilk orta əsrlərdə həmin bölgədə kütləvi dəfn ayininə çevrildiyi qeyd edilmişdir.[45]

Mütəxəssislər daş qutuları konstruksiyasına görə iki əsas tipə bölmüşlər: “divarları dik qoyulmuş iri daş lövhələrdən qurulan daş qutular və divarları çay daşlarından müəyyən cərgələrlə hörülmüş daş sərdabələr”.[46] Daş qutu qəbirlərin üstü də adətən sal daşlarla örtülmüş, lakin üstü açıq olan və torpaqla doldurulan daş qutulara da rast gəlinmişdir.

Tədqiqatçı alimlər Azərbaycanda daş qutu qəbir ənənəsininOrta Tunc dövründən başlayaraq,[47]əsasən eramızın VII əsrinədək davam etdiyi[48]qənaətinə gəlmişlər.

Daş qutuların Son Tunc-Erkən Dəmir dövrünə (Xocalı-Gədəbəy mədəniyyəti) aid olan nümunələrində ölülər bükülü vəziyyətdə, sağ və ya sol böyrü və yaxud arxası üstə dəfn edilmişdir. Bəzi qəbirlərdə mərhumlar oturdulmuş, yaxud başları, bədənləri və ayaqları

[44] M. Xəlilov, *a.g.e.*, s. 31.
[45] M. Xəlilov, *a.g.e.*, s. 37.
[46] M. Xəlilov, *a.g.e.*, s. 37, 74.
[47] R. Göyüşov, *a.g.e.*, s. 41.
[48] M. Xəlilov, *a.g.e.*, s. 37-52.

parçalanmış halda, müxtəlif istiqamətlərdə dəfn edilmişdir. Ölüləri yandırıb dəfn etmək adətinə də təsadüf olunmuşdur. Bu dövrə aid daş qutu qəbirlərdənsadə və boyalı qablar, qızıldan bəzək şeyləri, tunc silahlar, bəzəklər və digər mədəniyyət qalıqları aşkarlanmışdır.[49]

Şimal-qərb bölgəsində mövcud olan daş qutu qəbirlərin əksəriyyəti ilk orta əsrlər dövrünə aid olan yaşayış məskənləri, yaxud alban abidələri yaxınlığında aşkarlanır. Bu bölgəyə daxil olanindiki Şəki şəhərinin bəzi kəndləri (məsələn Baş Şabalıd, Orta Zəyzid, Kiş və başqa ərazilər) daş qutu qəbirlərinçoxluğu iləfərqlənir. Bu tip qəbirlər həm bütpərəstlik, həm də xristianlıq dönəminə aid olması ilə səciyyələnir.

1986-cı ildəmərhum arxeoloq N.Muxtarov tərəfindən Kiş kəndi ərazisində, Doxun məhəlləsində, Kişi çay yatağından 18 m yüksəklikdə, terrasın kəsiyindən uçqun zamanı daş qutu qəbirlərin olduğu müəyyən edilmiş, Kiş kəndinin Dərə və Cohur məhəllələrində də daş qutu qəbirlərin mövcudluğu bildirilmişdir.Bəzi əlamətlərə əsasən daş qutularınantik dövrün sonu-ilk orta əsrlərin əvvəllərinə aid olması ehtimalı irəli sürülmüşdür.[50]

2017-ci ildə Şəkinin Baş Şabalıd kəndi ərazisindəki Alban məbədi ərazisində tədqiqat apardığımız zaman, yerli sakinlər tərəfindən məbəddən təqribən 150-200 metr məsafədə, cənub istiqamətində yerləşən nekropolda torpaq üçqunu (şəkil 5) və su axını nəticəsində qəbirlərin üzə çıxdığı haqda məlumat verilmişdir. Arxeoloq alim, professor Arif Məmmədovla birgə tərəfimizdən əraziyə baxış keçirilmiş, uçqun kənarında olan üç qəbirdə xilasetmə və tədqiqat işləri aparılmış, tədqiqata cəlb edilən üç qəbirdən ikisinin bütpərəst, birinin isə xristian dininə mənsub mərhuma aid olduğu müəyyənləşdirilmişdir.

Qeyd etmək istərdik ki, bütpərəst və xristian alban qəbirlərindən ibarət nekropol Çərəkə çayının sahilində, dəniz səviyyəsindəntəqribən 825-830 metr hündürlükdə yerləşir. Ərazidə az sayda və kiçik həcmli dikili daşa malik qəbirlərə də rast gəlinir. Onların ilkin islam dönəminə aid olduğunu ehtimal etmək olar. Oxşar cəhətə Şəkinin Orta Zəyzid kəndindəki Xaçvari məbəd ərazisində də təsadüf edilir. Qəbirlərin əksəriyyətinin yerüstü əlaməti asanlıqla müşahidə edilir. Burada mövcud olan qəbir tipləri əsasən daş qutu qəbirlərdən ibarətdir. Bununa yanaşı, sadə torpaq qəbirlərə də rast gəlinir.

Ərazidə arxeoloji tədqiqata cəlb etdiyimizdaş qutu qəbirlərdən birinin kənarları dikinə formada qoyulmuş daş lövhələrlə əhatələnmişdir (şəkil 6).Qəbirin üstü daşlar vasitəsilə örtülməmiş və zamanında qəbirin içi torpaqla doldurulmuşdur. Analoji hala Albaniyanın bəzi

[49] R. Göyüşov, *a.g.e.*, s. 45-46, 50.
[50] N. Muxtarov, 1986, *a.g.e.*, s. 6-7.

nekropollarında (məsələn, Şamaxının Xınıslı abidəsində) təsadüf olunmuşdur.[51] Kameranın torpaq döşəməyə malik olduğu müəyyənləşdirilmişdir. Qəbirin dərinliyi və eni 50 sm, uzunluğu 90 sm təşkil etmiş, dəfn kamerasında mərhuma aid skeletdən başqa, heç bir maddi nümunəyə rast gəlinməmişdir.

Mərhum arxası üstə, ağzı yuxarı şəkildə dəfn edilib. Mərhumun başı qərbə, üzü şərqə doğru istiqamətlənmişdir. Skeletin çanağa qədər olan hissəsi bütöv şəkildə olsa da, qurşaqdan aşağı hissə parçalanaraq qəbirə qoyulmuşdur.Qəbirin bütpərəstlik dininə mənsub mərhuma və erkən orta əsrlərin əvvəllərinə aid olduğuqənatinə gəlinmişdir.

Uçqun kənarındakı ikinci daş qutu qəbirin kənarları və üstü çay və qaya daşları vasitəsilə cərgə ilə "hörülmüşdür". Lakin təbii torpaq sürüşməsi qəbirin orijinal formasını müəyyən qədər pozmuş, daşların bir çoxunun yerindən oynamasına səbəb olmuşdur. Qəbirin torpaq döşəməyə malik olduğu, eninin 70, uzununun140 sm təşkil etdiyi müəyyən olunmuşdur. Mərhum parçalanmış şəkildə dəfn edilmiş, ona aid sümüklərin hamısı qəbirə qoyulmamışdır. Qəbirdən mərhuma aid qol, bazu sümükləri, az sayda sümük qalıqları aşkar edilmişdir. Qəbir inventarı çox kasad olub, keramika və metal nümunələrə rast gəlinməmiş, yalnız iri buynuzlu mal-qaraya aid bir neçə sümük qalığı üzə çıxarılmışdır (şəkil 7). Bu qəbirin də bütpərəstliklə bağlı olduğu və ilk orta əsrlərin əvvəlləriniəhatə etdiyi qənaətinə gəlinmişdir.

Ərazidə tədqiq edilən üçüncü qəbir xristianlıqla bağlı oduğundan aşağıda bu barədə ayrıca bəhs olunacaqdır.Qeyd etmək istərdik ki, Baş Şabalıd kəndinin digər ərazisində, Tərəkey (Quzulu) adlanan hissəsində də 2022-ci ildə tərəfimizdən çoxsaylı daş qutu qəbirlər aşkarlanmış, lakin həmin hissədə hələlik tədqiqatlar aparılmamışdır.

**2.c.Sənduqə qəbirlər**

Tarixi Şəki vilayətində erkən orta əsrlərə aid sənduqə tipli qəbirlərə az təsadüf edilməkdədir. Ərazidəki bu tip qəbirlərdən biri 2011-ci ildə Şəki-Qax-Oğuz arxeoloji ekspedisiyası tərəfindən Şəkinin Böyük Dəhnə kəndində aşkarlanıb(şəkil 8).Hazırda Şəkinin Kiş kəndində yerləşən Alban məbədindəki muzeydə sərgilənən bu sənduqə əhəng daşından hazırlanıb və son antik-ilk orta əsrlərin əvvəllərinə aid edilir. Sənduqədə ikinci dəfn icra olunub. Birinci dəfnin sümükləri parçaya bükülərək sarqofaqın ayaq tərəfinə qoyulub. İkinci dəfn arxası üstə sağ əli dirsəkdən çiyinə tərəf, sol əli isə çiyinlərə paralel dirsəkdən bükülərək qarın boşluğu hissəsinə qatlanıb. Diqqət çəkən məqamlardan biri Şəki şəhərindəki müsəlman qəbiristanlıqlarındakı qəbirlərdə də ikinci, bəzən üçüncü dəfn hallarına rast gəlinməsidir ki,

[51] M. Xəlilov, *a.g.e.*, s. 37-38.

bu zaman Böyük Dəhnə sənduqəsindəki ikinci dəfnin əlamətləri izlənilir. Yəni qəbir çalasında olan daha öncəki cəsədin qalıqları bir parçaya yığılaraq, qəbirin ayaq hissəsinə qoyulur, sonra növbəti dəfn icra edilir.

Daş sənduqələr ilk orta əsr xristian qəbirlərinin də orijinal formalarından biri hesab edilməklə, Şəki ilə yanaşı, Qəbələ, Bərdə, Ağdam, Xankəndi və s. rayonların ərazisində müşahidə olunmuşdur. Ağ daşdan yonulmuş və ağzı qapaqla örtülmüş bu abidələrin ölçüləri fərqlidir (uz. 1,7 m, eni 48-50 sm). Bu tip qəbirlərdə ölülər arxası üstə, əlləri qarın boşluğunda çarpazlaşmış halda dəfn edilmişdir. İnventar baxımından kasıb olan bu qəbirlərdən əsasən xırda bəzək əşyaları tapılmışdır.[52]Qeyd etmək lazımdır ki, bölgədə daş sənduqə qəbirlərə daha sonrakı dövrlərə-İslam dövrünə aid kütləvi məzarlıqlarda da (məsələn, Şəkinin Böyük Dəhnə kəndində və Babaratma pirində, Şəkidə Sona qəbiristanlığında) rast gəlinmişdir.

**2.d.Torpaq qəbirlər**

Albaniyanın qəbir abidələrinə ayrıca əsər həsr edən tarixçi alim M. Xəlilov torpaq qəbirlərlə bağlı yazırdı: "Əgər erkən alban dövründə torpaq qəbirləri vahid bütpərəst mədəniyyətinin göstəricilərindən biri kimi çıxış edirdisə, ilk orta əsrlərdə torpaq qəbir abidələri artıq alban xristian və bütpərəst əhalinin yaratdığı mədəniyyətin paralel ünsürlərindən birinə çevrilirlər".[53]

Çay və ya qaya daşından olmaqla üzəri sal daşlarla örtülən torpaq qəbirlər Şəkinin Orta Zəyzid (şəkil 9), Baş Küngüt (şəkil 10), o cümlədən Oğuz rayonunun Calut (şəkil 11), Kərimli kəndlərində (şəkil 12) və digər ərazilərdə çoxluq təşkil edir. Bu cür qəbir tiplərinə Albaniyanın digər erkən orta əsr abidələrində də rast gəlinir.[54]Belə qəbirlərin kamerası torpaqla doldurulmuş, üzəri bəzən ağacla da örtülmüşdür.

Sadə torpaq qəbirlər e.ə. IV-I əsrləri əhatə edən "Yaloylutəpə mədəniyyəti" üçün xarakterik hesab edilmiş və onlara antik dövr qəbir tipləri içərisində daha çox təsadüf olunmuşdur.Bu tip qəbirlər əsasən 1, 2-3,1 m dərinlikdə düzbucaq şəklində adi torpaqda qazılmışdır. Qəbirlərin bəzilərinin divarları əhəng və gil məhlulu ilə suvanmışdır. Torpaq qəbirlərdə ölüləri tək-tək böyrü üstə, çox və ya az bükülü, nadir hallarda uzadılmış vəziyyətdə müxtəlif istiqamətlərdə dəfn etmişlər. Belə qəbirlərdən boşqablar, xırda camlar, təsərrüfat küpləri, iki buynuzvari çıxıntısı olan zoomorf tipli qablar, məişət və əmək alətləri, zinət əşyaları və digər avadanlıqlar aşkarlanmışdır. Qabların gövdəsi çəlləkvarı, ağzı geniş, oturacağı yastı formada hazırlanmışdır. Torpaq qəbirlərdən daha çox aşkar edilmiş qablardan

[52] R. Göyüşov, *a.g.e.*, s.186.
[53] M. Xəlilov, *a.g.e.*, s. 23-24.
[54] M. Xəlilov, *a.g.e.*, s. 24-27.

olan"süddanvari" təkqulpluların sol tərəfində qabın ağzının bir kənarı bükülərək, açıq novça halına salınmışdır. Belə qabların bir variantı olan çoxnovçalı qablarda isə, süzcəklər solda deyil, qulpun əks tərəfindəki novçada düzəldilmişdir. Qabların üzərində yapma, oyma və cızma üsulu ilə müxtəlif həndəsi xətlər, düyməciklər kimi naxışlar vurulmuşdur.[55]

1984-cü ildən etibarən N.Muxtarov tərəfindən tədqiq edilən Şəkinin Fazıl kəndindəki Təpəbaşı nekropolu əsasən torpaq qəbirlərdən ibarət olmaqla, e.ə. II minilliyin sonlarından son antik, ilk orta əsrlərin əvvələrinədək olan dövrü əhatə edir. Bu ərazidə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Şəki Arxeologiya və Folklor qrupunun rəhbəri mərhum arxeoloq N.Muxtarov və arxeoloq İ.Bədəlova tərəfindən Şəki şəhər İH-nin dəstəyi ilə 2006-cı ildə "Əbədi Sükut Dünyası-Labirint" yaradılıb. Həm Təpəbaşı abidəsində, həm də yaxınlıqda olan Yoncalı, Böyük Düz Sayvalı-Söyüdlü nekropollarında da torpaq qəbirlər yuxarıda qeyd edilən çərçivədə müxtəlif dövrləri əhatə edir.

Yuxarıda adı qeyd olunan Doxun nekropolunda yer səthindən 1.2-1.4 metr dərinlikdə torpaq qəbirlər aşkar edilmiş, dəfn mərasimi zamanı ocaq yandırılması qənaətinə gəlinmişdir. Nekropolun cənub hissəsində, torpaq qəbirlərdən təqribən 15 metr aralıda, 2,6 metr dərinlikdə son antik-ilk orta əsrlərə aid edilən küp qəbir də aşkarlanmışdır. Təəssüf ki, həmin qəbirlərin tədqiqi ilə bağlı məlumat hesabatda yer almamışdır.[56]

Şəki rayonu Bolludərə kəndi ərazisində 2014-cü ildə təsərrüfat işləri zamanı içərisində sarı, qırmızı və qara rəngli, orta və kiçik həcmli saxsı qablar, küp, küpə və dopu tipli qablar olan torpaq qəbirlər aşkarlanmışdır. Oğuz-Şəki yolu üzərində yerləşən Qırxbulaq kəndi ərazisində də üç torpaq qəbir öyrənilmişdir. Qeyd olunan qəbirlərə ilk orta əsrlər dövrünə məxsus xristian məbədinin yaxınlığında təsadüf edilmişdir[57].

2020-ci ildə Şəkidə "Kiş" Tarix-Memarlıq Qoruğunda Azərbaycan-Qazaxıstan beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən Doxun nekropolunda arxeoloji və antropoloji tədqiqatlar aparılmışdır. Arxeoloq Z.H.Həsənovun rəhbərliyi ilə aparılan tədqiqatlar nəticəsində 2 saylı qazıntı sahəsinin 2 nömrəli qəbirində kollektiv dəfn olunmuş torpaq qəbirdən antik dövrə aid saxsı qablara, böyük dairəvi, oval və aypara formalı tunc asma və tikmə bəzəklərə, tunc, şüşə və pastadan olan muncuqlara, tunc düymələrə, tunc zəncirlərə, dəmir və tunc qolbaqlara, dəmir nizə ucluqlarına, dəmir bıçaqlara, göz muncuğularına təsadüf edilmişdir.[58]

---

[55] R. Göyüşov, *a.g.e.*, s. 89-91.
[56] N. Muxtarov, 1986, *a.g.e.*, s. 6-7
[57] T. Əliyev, *a.g.e.*, s. 72-74.
[58] http://www.science.gov.az/news/open/15385(16.12.2020).

Erkən alban dövründən fərqli olaraq, ilk orta əsrlərin başlanğıcına aid xristian qəbirlərindən əlahiddə şəkildə şəxsi bəzək əşyalarına, xaçlara rast gəlinsə də, xristianlığın möhkəmlənməsi ilə torpaq qəbirlərə avadanlıq qoyulması adəti sıradan çıxmışdır.

**3.Xristian qəbirləri**

İlk orta əsrlərə aid xristian qəbir abidələri şimal-qərb bölgəsinin müxtəlif ərazilərində-Ləkit-Kötüklü, Torpaqqala-Saqqızlı (Qax rayonu), Kərimli,Calut (Oğuz rayonu), Balaşumtəpə, Səlbir, Ustacantəpə (Qəbələ rayonu), Orta Zəyzid, Kiş (Şəki rayonu) və digər abidələrdə öyrənilmişdir.[59] Xristian qəbirlərinə əşyaların qoyulmaması onların öyrənilməsinə marağı qismən azaltsa da, bu tip abidələrin tədqiqi xristianlığın yayılma tarixini, arealını və qəbirlərin tipologiyasını müəyyənləşdirmək baxımından önəmlidir.

Tədqiqatçılar mərhumun əllərinin vəziyyətinə əsasən dəfnin beş variantını müəyyənləşdirmişlər; 1) hər iki əl sifətə doğru uzadılmış; 2) bir əl sifətə doğru uzadılmış, digəri döş qəfəsi üzərində qoyulmuş; 3) əllər qarın nahiyəsinə qoyulmuş; 4) əllər döş qəfəsi üstündə çarpazlaşdırılmış; 5) hər iki əl gövdə boyu uzadılmış.[60]

Görkəmli arxeoloqlar S. M. Qazıyev və R. B. Göyüşovun fikrincə, ilk iki variant xristian-bütpərəst, digərləri isə sırf xristian dəfn ayini üçün xarektirikdir.[61]Xristian qəbirlərində skeletlər əsasən kürəyi üstə uzadılmış və ya böyrü üstə, ayaqları və qolları zəif bükülü vəziyyətdə aşkar edilmişdir. Bu cür qəbirlərin inventarı çox zəifdir, bəzən də məhduddur, skletin üstündə yalnız şəxsi bəzək əşyalarına rast gəlmək mümkündür.

80-ci illərdə Qax rayonundakı Ləkit məbəd kompleksində qazıntı və tədqiqat işləri aparan arxeoloq A.Qaraəhmədova ərazidə erkən xristianlıq dönəminə aid kirəmit və sərdabə tipli qəbirlər aşkarlanmışdır.V-VII əsrlərə aid edilən Bazilikanın pilləkanının yaxınlığında üzəri 41x31 sm ölçüyə malik,üzərinə anqob çəkilən düz kirəmitlə örtülən kiçik uşaq qəbri, yumru yaşıl muncuq və kiçik həcmli üzük tapılmışdır. Qəbrin altında içərisində mirvari və bir cüt sümük olan daş yeşik qoyulmuşdur.[62]

2000-2001-ci illərdə Albaniyanın ilk xristian məbədi hesab olunan Kiş məbədində Azərbaycan-Norveç birgə ekspedisiyası arxeoloji qazıntı işləri aparmış, məbəd ərazisindən müxtəlif tipli xristian qəbirləri aşkar edilmişdir.Kiş Alban məbədi ərazisindən aşkar edilən

---

[59] M. Xəlilov,*a.g.e.*, s. 60-67.
[60] M. Xəlilov, *a.g.e.*, s. 61.
[61] M. Xəlilov, *a.g.e.*, s. 61.
[62] A. Qaraəhmədova, *a.g.e.*, s. 10-14.

skeletlərin dəfn quruluşu yuxarıda qeyd edilən xristian qəbirlərindəki kimi olmaqla yanaşı, əllərinin qarın nahiyəsinə və döş qəfəsi üstündə çarpazlaşdırılmışdır.[63]

2017-ci ildə Şəkinin Baş Şabalıd kəndindəki nekropolda torpaq uçqunu zamanı üzə çıxan bir xristian qəbiri tərəfimizdən tədqiqata cəlb edilmişdir. Torpaq döşəməyə malik daş qutu qəbirin kənarları çay və qaya daşlarından sıra ilə düzülmüş formada hazırlanmış, üstü də daşlarla örtülmüşdür.Mərhum qəbirdə arxası üstə düzünə uzadılmış, skeletin sol ayağı sağ ayağının üstünə aşırılmış, əlləri qarın nahiyəsinə qoyulmuşdur (şəkil 13). Skeletin baş hissəsi qərbə tərəf qoyulmuş, üzü şərqə istiqamətləndirilmişdir. Skeletin uzunluğunun 1,64 sm, daş qutunun ümumi uzunluğunun 2 metr olduğu müəyyənləşdirilmişdir.

Skeletin bəzi hissələrində, xüsusən, kəllə sümüyündə deformasiyalar mövcuddur ki, bunu torpaq sürüşməsi zamanı daş lövhələrin sümüyə təsiri ilə izah etmək olar. Lakin digər əzalar bütöv şəkildə qalır, yəni kəllə hissə istisna olmaqla skelet anatomik quruluşa malikdir. Qəbirin inventarı yoxdur. Heç bir maddi-mədəniyyət nümunəsinə rast gəlinmir.

Daş qutunun sol (şimal) və sağ (cənub) istiqamətindəki daşlar torpaq sürüşməsi nəticəsində cənuba-sağa doğru meyillənmiş, nəticədə skeletin sol hissəsini qabırğa sümüklərinə doğru sıxmışdır. Bu da skeletin orijinal dəfn formasını qismən dəyişmişdir. Tədqiqat nəticəsində qəbirin V-VI əsrlərə aid olduğu fikri irəli sürülmüşdür.

Albaniyanın müxtəlif ərazilərində 50-dək qəbir abidəsində tədqiqatlar aparan arxeoloq alim V.Kərimov "Bütün hallarda albanların məskunlaşdıqları zonada onların antropoloji komponentinin qədimliyinə şübhə etmək üçün heç bir əsas yoxdur. Bu antropoloji tipin yerli mənşəli olmasının lehinə çoxlu arqumentlər vardır. Bu ərazinin əhalisinin eyni antropoloji qrupa aid olduğunu da qeyd etmək son dərəcə vacibdir".[64]

**4.Müsəlman qəbirləri**

Məlum olduğu kimi, 705-ci ildə Albaniyanın süqutundan sonra Azərbaycanın şimalı da Xilafətin tərkibinə qatılmış və beləliklə, bütün ölkədə islam dininin yayılması üçün şərait yaranmışdır. Yerli əhalinin-albanların həmin dövrdən etibarən tədricən islamı qəbul etməsi, etnik albanlara məxsus müsəlman qəbirlərinin meydana çıxmasına səbəb olmuşdur. Onu da qeyd etmək yerinə düşər ki, islam dini tarixi Albaniyanın dağlıq bölgələrində düzənlik ərazilərinə nisbətən daha zəif sürətlə yayılmış, həmin bölgələrdə xristianlıq daha uzun müddət davam etmişdir. Haqqında bəhs etdiyimiz Şəki vilayətinə daxil olan dağlıq bölgələr də bu baxımdan istisna təşkil etməmişdir. Hətta ərəb tarixçisi, coğrafiyaçısı və səyyahı əl-Müqəddəsi tərəfindən IX əsrdə Şakki (Şəki) əhalisinin böyük əksəriyyətinin xristian olduğu,

---

[63] V. Kerimov-B. Sturfiel, *a.g.e.*, str. 39-182.
[64] V. Kerimov, *a.g.e.*, str. 39.

müsəlman icmasının xristian əhali ilə yanaşı, əsasən Cümə məscidi ətrafında yaşadığı qeyd olunmuşdur.[65]

Şəki vilayətinin ərazisinə daxil olan bəzi yerlərdə VIII-IX əsrlərə aid müsəlman qəbirlərinə də təsadüf edilməkdədir. Təbiidir ki, Xilafət zamanında imperiyanın bir çox ərazilərinə müsəlman ərəblərin köçürülməsi prosesi hansısa miqyasda Şəki bölgəsi üçün də icra edilə bilərdi. Aşağıda bəhs etdiyimiz müsəlman qəbirlərinin həmin gəlmə müsəlman əhaliyə, yoxsa islamı qəbul edən yerli əhaliyə mənsub olduğunu qətiləşdirmək imkanından məhrum olsaq da, bu müsəlman qəbirlərinin əksəriyyətinin yerli etnoslara məxsus yaşayış məskəni, nekropol və məbədləri əhatə edən ərazilərdə yerləşməsi, yaxud bir qisminin bütpərəst və xristianlara məxsus daş qutu formasında tərtib edilməsi həmin müsəlman qəbirlərinin yerli etnoslara aid olduğu fikrini irəli sürməyə əsas verir.

Kiş kəndinin Tataruşağı adlı məhəlləsindəki müsəlman qəbiristanlığında 1986-cı ildə tədqiqat aparan arxeoloq N.Muxtarov ərazidə antik dövrdən başlayaraq dəfn icra edildiyi, ilk orta əsrlərdən etibarən tədricən müsəlman qəbiristanlığı kimi istifadə edildiyi qənaətinə gəlmişdir.[66] Şəkinin Qırxbulaq kəndi ərazisindəki xristian məbəddən aralıda IX-XII əsrlərə aid müsəlman qəbirləri də qeydə alınmışdır.[67]Yuxarıda qeyd etdiyimiz kimi, analoji hal Şəkinin Orta Zəyzid və Baş Şabalıd kəndləri ərazisində mövcud olan Alban məbədləri ətrafında da müşahidə olunmuşdur.

Şəki vilayətinə daxil olan bəzi ərazilərdə islamın ilk qəbul edildiyi dövrlərdən indiyədəkmüsəlman qəbiristanlığı kimi istifadə edilən məkanlar vardır ki, həmin yerlərdə daş qutu şəklində tərtib edilən qəbir nümunələrinə rast gəlinir. Məlumdur ki, müsəlman qəbirləri xarakterinə, forma və tərtibatına görə özündən əvvəlki dinlərin dəfn prosesindən əsaslı şəkildə fərqlənir. Bununla belə, ərazidəki bəzi ilkin dövr müsəlman qəbirlərinin tərtibatında bütpərəst və xristianlara məxsus daş qutu ənənəsindən istifadə edildiyinin şahidi oluruq. Məsələn, alban bazilikasının mövcud olduğu Qax rayonunun Qum kəndinin şimal-şərqində salınan müsəlman qəbiristanlığında bunun şahidi oluruq (şəkil 14).Oğuz rayonunun Filfili kəndində olan müsəlman qəbiristanlığındakı bəzi qəbirlər Qum kəndindəki müsəlman qəbirləri ilə analogiya yaradır(şəkil 15).Qeyd edilən qəbir nümunələrinin torpaq uçqunu və aşınması nəticəsində

[65] Elşən Abdurahmanov, *"Şəkinin ilk orta əsr abidələrində birgə yaşayışın izləri (Qafqaz Albaniyasının Şəki vilayətinə aid materiallar əsasında)"*, "5th International Congress of Art, Design And Fashion", April 15, 2021 / Florence – Italy, Book of full texts,Ubak Publications – 2021, s. 122.
[66] N. Muxtarov, 1986, *a.g.e.*, s.10.
[67] T.Əliyev, *a.g.e.*, s. 72-74.

aşkara çıxdığını bildirmək istərdik. Rast gəldiyimiz bu nüans,həm də müsəlman əhalinin digər dinlərə mənsub əhali ilə yaxın mədəni təmasda olduğunu göstərən faktlardan birini təşkil edir.

İsmail Özçelik, '"Karabağ'daki Hocalı Soykırımının Tarihi Arka Planı'', *Vakanüvis-Uluslararası Tarih Araştırmaları Dergisi,* 2017, s. 417-456.

Araz Aslanlı, "Tarihten Günümüze Karabağ Sorunu", *Avrasya Dosyası*, C. 7, 2001, s. 1.

Aygün Əliyeva,.,''44 Günlük Vətən Müharibəsi Ərzində və Sonrasında Azərbaycan-Avropa İttifaqı Münasibətləri'', *Akademik Tarih ve Düşünce Dergisi*, C. 9, S. 2, 2022, s. 536-560.

# *Göz yaşı*

***Mirnamik Bəşirov****




İllərlə torpaqlar insan qanı ilə yoğrulmuş, göz yaşları ilə sulanmışdır. Allah torpaq uğrunda, vətən uğrunda qurban getmiş şəhidlərimizə qəni-qəni rəhmət eləsin, yerləri cənnət olsun.

Səlcuqlu hökmdarı Sultan Məlikşahın oğlu Məhəmməd Təpərdən miras qalmış Azərbaycan sonradan xanlıqlara bölünsə də, Azərbaycanın ən böyük dərdi Araz çayı ilə parçalanması oldu. Keçən minilliyin əvvəllərindən, səlib yürüşləri zamanından xristian bayrağı altında şərqə soxulan xaçlılar məğlub olaraq geri çəkildiyi dövrlərdə islamın mərifətindən yararlanaraq bu ərazilərdə qalmış, din istiqamətlərini dəfələrlə dəyişərək eyni niyyətlə- torpaq

**Azərbaycan Elm və Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Magistratura və doktorantura şöbəsinin müdiri,* mbashirov@mail.ru

zəbti niyyəti ilə ərazilərdə qalaraq məkrli siyasət yeritmişlər. Rus İran, Rus Türkiyə müharibələrinin fürsətindən yararlanan qəsbkar mənfur ermənilər dövlətlərini yaratmaq məqsədlərinə çata bilmişlər. Bir şəhəri (Azərbaycanın İrəvan şəhəri) və onun ətrafında kiçik ərazini 1918-ci ildə pay alan erməni daşnakları elə həmin il Böyük Ermənistan xülyasını həyata keçirməyə başladılar. Yüzminlərlə müsəlmanın qanı axıdilan Göyçə, Basarkeçər, Zəngəzur, Qarabağ və digər ərazilərimizdə dəfələrlə soyqırım törətmiş, kifayətlənməyərək Azərbaycan dövlətinin ərazisində qalan ermənilər rus himayəsindən istifadə edərək Qarabağ dövləti yaratmaq niyyətində olmuşlar.

Keçən əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqları insaniyyətə düşmən kəsilmiş erməni torpaq hərisləri tərəfindən qarış-qarış işğal edilərək qeyri insanı niyyətlərlə zəbt olunmuş, Azərbaycanın milli sərvətləri, müxtəlif müzeyləri, arxeologi tapıntıları talanmış, kəndləri, qəsəbələri, şəhərləri dağıdılmış, qalanlarının adları dəyişdirilmiş, meşələri qırılmış, çaylara zəhərli maddələr axıdılmış və bununla dünya mədəniyyətinə, dünya tarixinə, ekologiyaya misli görünməmiş ziyan vurulmuşdur. Birinci Qarabağ müharibəsi zamanı işğal olunmuş torpaqlardan ayağıyalın, mənən alçalmış, mənəviyyatı tapdanmış, şəhid olmuş azərbaycanlıların qanları bu torpaqda bərkimiş, zillətdən, dərddən qaçaraqdövlətimizə sığınan ana- bacılarımızın, qız- gəlinlərimizin göz yaşları bu torpaqları doyurmuşdur.

Göz yaşları ilə doymaq bilməyən torpaqdan səslər gəlirdi. İnilti, haray səsləri. Vaqifin tənha qalan yaşılbaş sonasının, Nətavanın susuz qalan bulaqlarının, Üzeyirin nəğməsiz qalan yazılarının, "harda qaldız" deyən xarıbülbülün Şuşadan gələn haray səsləri.

Ağlamaqdan kor olmuş gözlər, sızlamaqdan yara bağlamış boğazlar, yalvarmaqdan taqətdən düşmüş əllər, utancdan bükülmüş boyunlar, qəlblərdə köz bağlamış mənəvi yaralar bir səs gözləyirdi. Hamını Vətənin müdafiəsinə cəmləyən bir səsi. Yatmış şiri yuxudan oyadan bir səsi. Bu səs ali baş komandan İlham Əliyevin dəmir yumruğunun səsi oldu. Ədaləti, illərlə həll olmayan məsələləri 44 günə bitirən, danışıqlar masasına, döyüş meydanına çırpılan bir yumruğun səsi. Əsrlərlə verilən torpaqları geri almağa başlayan sərkərdənin, ali baş komandanın bir çağırışına müzəffər olan, "Allahu Əkbər" deyib şəhid olmağa tələsən, "qanım vətənə halaldır" deyən ordunun- xalqın duruş səsi. Bu səs dünyaya ədalətin itmədiyini, xalqların öz müstəqilliyini, ərazi bütövlüyünü qoruya biləcəyi ilə bağlı mesaj oldu. Əsrlərlə daim zillətdə olan, şikəst edilmiş Qarabağdan gələn şikəstə milli yaddaşımızı zəifləməyə qoymadı, dövlətimiz, dövlət rəhbərləri ərazilərimizin işğaldan azad olunmasını birinci məsələ kimi qoydular. "Qarabağ Azərbaycandır!" bəyan edən Azərbaycan rəhbəri sözünü döyüşdə tamamladı: əsrlərlə ərazisini hissə-hissə itirən Azərbaycanın torpaqlarının qaytarılmasının ilk mərhələsinə başladı. Səhidlərimizin qisası alındı. Ana bacıların ağlar gözünə toxtaqlıq yaşı

gəldi. İkinci Qarabağ savaşında minlərlə şəhidimizin qanı torpaqları yenidən yoğurdu. Oğlunu, qardaşını, ərini şəhid kimi itirənlər bunu Vətən uğrunda şərəf sandı, Azərbaycan bayrağını öpərək əzizinin tabutunu çiynində daşıdı. Qarabağ savaşının zirvəsi kimi qurtulan Şuşa qalası bu məsələyə nöqtə qoydu. Azərbaycan ordusunun Baş komandanı, Möhtərəm İlham Əliyevin "Dəmir Yumruğu" öz işini gördü: Bu dünyada Azərbaycan vardır!.

"Biz qayıtdıq. Biz səni dirçəldəcəyik"

İllərdə uzaqdan baxdığımız torpaqları sərbəst,fəxrlə, qürur hissi ilə gəzdikcə, hər qarışı ziyarətgah olan yolları keçdikcə yaranmış hissləri ifadə etməyə sözlər yetmir. Hazırda gələcək nəsil üçün qan yaddaşı kimi qorunacaq olan, ətrafda erməni mənfurlarından miras qalmış məhv edilmiş məskənlər, dağıdılmış məscidlər nə qədər kədər hissi yaşadırdısa, aparılan yenidənqurma işləri, inşa olunmaqda olan tikinti obyektləri, çəkilən yollar, stansiyalar, tünellər, salınan meşələr qürur, fəxr hissi, başıucalıq yaradırdı. Bu hissi göz yaşları olmadan yaşamaq mümkün deyil. Şuşaya aparan "Zəfər yolu" nun hər qarışı əsgərlərimizin misli olmayan igidliyi, qələbəyə tam inamı, düşmənə, dünyaya müasir döyüşün aparılmasında ustad dərsi keçmiş olduğu görünürdü. Şuşaya, Cıdır düzünə aparan sıldırımı yalın əllə qalxan igidlərimizin şir nəriltisi erməni faşistlərini arxaya baxmadan qaçmağa vadar etmişdi. Azərbaycan musiqisi üçün darıxmış Cıdır düzü oyandı. Şuşadan verilən azan səsləri bütün qarabağı, çəmənləri, meşələri, çayları, bulaqları, düzləri yamacları oyatdı. "Biz gəlmişik!. Əziz Şuşa, biz qayıtdıq!"

Türk türkə arxadır, türk türkün gərəkirsə qalxanıdır, gərəkirsə nizəsidir. Qarabağ müharibəsi, Şuşa zəfəri bir daha turk birliyinin nə qədər möhkəm və əbədi olduğunu dünyaya nümayiş etdirdi.

Bəli, biz əzəli torpaqlarımıza qayıtdıq. Əbədi olaraq orada qalacağıq. Bura Azərbaycandır deyəcəyik!

Azərbaycan xalqı Şuşa qalası kimi sarsılmazdır, bir alınmaz zirvədir. Bu zirvədə tarixə" Dəmir Yumruq" ləqəbi ilə düşən, xalqın böyük tarixi sərkərdəsi İlham Əliyev vardır. Uğurlu siyasətin layiqli davamçısı.

Qurtulduq. Başı aşağı gəzməkdən qurtulduq. İşğal olunan ərazilərimizi gələcək nəsillərə necə deyəcəyik, necə anladacağıq fikirlərindən qurtulduq. Tarixi torpaqlarımıza səngərlərdən oğrun -oğrun baxmaqdan qurtulduq. Şuşamızı həsrətlə yad etməkdən qurtulduq. Sən Şuşalı idin, sən Qubadlıdan, sən Xocalıdan, sən Xankəndindən idin deməkdən qurtulduq. İndi bir cümlə var: sən Azərbaycanlısan!

Artıq gözlərdən axan sevinc yaşlarıdır. Onların dadı da başqadır. Onların rəngidə başqadır. İndi Qarabağ torpağı sevinc göz yaşlarına qərq olub. Qalib xalqın qürur dolu bu göz yaşları, "Şükür" deyərək göylərə ucalan əlləri var olsun!

Yaşasın Azərbaycan! Torpaqlarımızın qayıtması ilə axan sevinc dolu göz yaşları..

Arzu edirəm bu yaşlar xalqımızın gözlərindən əskik olmasın.

# *Şuşa –Türk Dünyasının Mədəniyyət Paytaxtı*

**Günəş Quliyeva***




“Vətən oğlu, torpağın yurd, vətən olması üçün torpağı gərək əkib becərəsən, torpağı yağılardan qoruyasan. Əgər torpağı əkib becərməsən qorumağa dəyməz. Torpağı qoruya bilmədin, əkib becərməyə dəyməz.”[1]

Babalarımızdan miras qalan müqəddəs torpağımız - Qarabağın incisi !... Gözəlliklər diyarı- Şuşa! Öz əsrarəngiz, füsunkar gözəlliyi ilə bizə yaradanın ərməğanıdır, Şuşa!. Burda hər daş, hər qaya bir tarixdir, bir salnamədir. Mədəniyyətimizin, tariximizin rəmzidir. Bu gün qürurla deyirik, gözün aydın olsun, Şuşa, Zəfər sənə çox yaraşır. O əzəmətli dağlarından Xan əminin səsi gəldi qulağıma. Oxudu, daha gur, daha şaqraq səslə oxudu. Vüqarlı dağlarında bitən otun, gülün, çiçəyin,bir başqa ətir saçdı. Xarıbülbülün müqəddəs torpağına qovuşdu.

* *Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, BDU –nun dissertantı, g.quliyeva1981@gmail.com, Orcid: 0000-0002-7147-7151*

[1] http://masalli-ih.gov.az/az/masalli-olke-metbuatinda.html

Güllərin, çiçəklərin zəfər qoxusu saçdı. Zəfər, qələbə nəğməsi ilə qarşıladı bizi. Şuşa qəhrəman oğullarına, bu torpağın əsl sahiblərinə öz qucağını açdı. Cıdır düzü üçün darıxan Qarabağın şahbaz atları yel kimi uçdu, doğma, müqəddəs vətənə. Möhtəşəm bir tarix yazıldı. 39 il sonra Vaqif Poeziya günlərinin növbəti ancaq bir qədər kövrək, xatirə dolu, eyni zamanda möhtəşəm qələbə sevincli coşğusu yaşandı. M. P. Vaqifin poeziyası Qarabağın, bu cənnət diyarın tarixi, hər qarışı, dağı, daşı, qayası, çiçəyi, şux gözəlləri haqqında bir dastan, bir tarixdir. Prof. Nizami Cəfərovun qeyd etdiyi kimi, "*Qarabağ bütün təbii gözəllikləri ilə Vaqif poeziyasının, fəlsəfi-estetik təfəkkür mədəniyyətinin Vətəni idi.*" [2]

Firudin bəy Köçərli M. P Vaqıfın yaradıcılığındakı milli ruhu əsas gətirərək yazırdı: "*Onun şeir və qəzəliyyatı bizim Azərbaycan türklərinə ziyadə xoş gəlir və hər nə onun qələmindən zühura gəlibsə... tamamisi ürəkdən və həqiqi həyatdan nəşət edən əsərlərdir. Milli şairlərimizdən onun kimi sadə və açıq lisanda və ana dilimizin şivəsində şeir və qəzəl yazan az olub*".[3]

*"Qızılgül açılan günlərdə gülzari- Qarabağa .*

*Sənin olsun, əzizim, böylə məlumun ki, mən gəldim"* ...

Bu gün Vaqifin ruhu şaddır. Bir zaman Vaqifin Qarabağda gördüyü, hüsnünə heyran olduğu o qızılgüllər bu gün daha gözəl açır. Gülzara dönür, Qarabağ!...

1954-cü ildə "Şuşanın Yolları" şeirində Nəbi Xəzri Qarabağın, Şuşanın əsrarəngiz gözəlliyindən, füsunkar təbiətindən, sərin bulaqlarından söz açır, bir zaman bu doğma yollardan ötən el şairi Vaqifi, Vidadini belə xatırlayırdı:[4]

*Sərin bulaqlarından ellər su içmiş,*

*Dostunu düşməndən yaxşıca seçmiş,*

*Burdan Vaqif ötmüş. Vidadi keçmiş...*

*Onların izləri hanı, a yollar ?!...*

[2]N. Cəfərov, *Azərbaycanşünaslığa giriş,* Nurlan nəşriyyat, Bakı 2002, 600 səh.
[3] https://idoc.pub/documents/molla-penah-vaqif-eserleri-q6ngpgqgv6nv(10.10.2022).
[4]N. Xəzri, *Seçilmiş əsərləri,* II –cilddə, C. I, Lider Nəşriyyat, Bakı 2004, s. 88.

– Vaqif də, Vidadi də igid oğullarımızın mənfur düşmənin ayağını kəsdiyi bu yollardan bu gün daha qürurlu, daha vüqarlı keçir...

Müqəddəs Şuşa torpağı M. P. Vaqif kimi neçə-neçə istedadlı, görkəmli şəxsiyyətlər bəxş edib, Azərbaycana. Xurşidbanu Natəvan kimi, Mir Möhsün Nəvvab, Əbdürrəhim bəy Haqverdiyev, Qasım bəy Zakir, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Həmidə xanım Cavanşir,Əhməd bəy Ağayev, Ceyhun Hacıbəyli, Səməd bəy Mehmandarov, Fərəc bəy Ağayev bu kimi böyük ziyalıların yetişməsində Şuşa mühiti mühüm rol oynamışdır. Fikrət Əmirov, Zülfüqar Hacıbəyov, Niyazi, Soltan Hacıbəyov, Əfrasiyab Bədəlbəyli, Əşrəf Abbasov, Mehdi Məmmədov, Zakir Bağırov, Süleyman Ələsgərov, memar, görkəmli rəssam Lətif Kərimov, Cəlal Qaryağdı, Nadir Əbdürrəhmanov, Toğrul Nərimanbəyov və başqa görkəmli şəxsiyyətləri, sənətkarları ilə Azərbaycan mədəniyyəti tarixində müstəsna yer tutmuşlar.Şuşa sənətkarların, istedadların vətənidir.

Türk dünyasının dahi lideri Atatürk deyirdi: *"Zəfər" zəfər mənimdir deyə bilənindir. Müvəffəqiyyət müvəffəqiyyət qazana biləcəyəm" deyə başlayanın və müvəffəqiyyət qazandım" deyə bilənindir*". Bu savaşda Azərbaycan xalqı qürurla "Zəfər mənimdir!"- deyə bildi. Zəfərimiz isə birlikdən doğdu, daha güclü olduq. Böyük Türk oyandı. Türkün qətiyyəti, qəlbi qübar bağlamış, illərlə vətən həsrəti çəkən, vətən laylası ilə böyüyən, ən qəhrəman, ən cəsur, ən təmiz ürəkli oğulları qazandırdı bizə bu qələbəni...

Ulu öndər H. Əliyev: "*Şuşasız Qarabağ yoxdur, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur!"*-deyirdi. Bu sözlər hələ o zaman ulu öndər H. Əliyevin Şuşanın Azərbaycan üçün nə qədər böyük tarixi əhəmiyyət daşıdığını, dəyərini çox aydın ifadə edirdi. Uzaqgörən liderin böyük qətiyyətlə, əminliklə söylədiyi o fikirlər bu gün öz təsdiqini tapdı.



Cənab İlham Əliyevin dediyi kimi : “*Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!. Bu böyük qələbədir!. Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır. Əziz Şuşa,biz qayıtmışıq!”.*[5]

Vətəni bizə, ruhuyla, canıyla, qanıyla sevən, vətən yolunda canını fəda edən qəhrəman oğullar qazandırdı. Dövlət başçısının müdrik siyasəti, “Dəmir Yumruğ”un gücü qazandırdı.

*Vətəni sevirəm deyən çox olar*

*Deməyə nə var ki, dil yorulmasa*

*Vətən də bizim tək ölər, yox olar,*

*Vətənin yolunda ölən olmasa.*[6]

1992-ci ildə erməni quldur dəstələrinin törətdiyi vandalizm aktı nəticəsində qədim, Şuşadakı tarixi memarlıq abidələri talanıb, məhv edilmiş və bu işğal nəticəsində kompleksin binası, X. Natəvanın, Ü. Hacıbəylinin, Bülbülün ev muzeyi,Vaqifin məqbərəsi və burda sərgilənən onlarla eksponat məhv edilmiş, dağıdılmışdır.

---

[5]Güneş Quliyeva, ‘’Şuşa Bir daha Gözün Aydın’’, https://aia.az/52002-gun-quliyeva-ua-bir-daha-gozun-aydn-zfr-sn-cox-yarad.html(10.10.2022).
[6] https://adalet.az/az/posts/detail/tarix-dersinde-1658931482(10.10.2022).

İ. Əliyev çıxışında söylədiyi kimi: "*Mən Şuşada olarkən bu dağıntıları öz gözümlə görmüşəm. Elə bil ki, oradan vəhşi qəbilə keçib, vandallar Şuşanı bu günə salıblar. Sonra da deyirlər ki, Şuşa erməni şəhəridir. Bu, növbəti erməni yalanıdır, saxtakarlığıdır! Onların bütün tarixi saxtakarlıq və mifologiya üzərində qurulub. Onlar və onların müxtəlif ölkələrdəki havadarları onlar üçün saxta tarix yaradıblar və bu saxtakarlıq bu gün də davam edir".*[7]

Bu acı tarix artıq geridə qalır. Bu gün 270 illik tarixi olan Şuşa şəhəri öz əvvəlki əzəmətini geri qaytarır. Bu gün Şuşa daha qürurlu, daha yenilməz bir gələcəyə yol açır. Xarıbülbül festivalı, Ü. Hacıbəylinin heykəlinin açılışı, Qarabağ hotelinin inşası, Bülbülün ev muzeyinin inşası, Vaqifin büstünün açılışı, abadlıq, quruculuq işləri Şuşanın parlaq sabahından xəbər verir. Şuşa türk dünyasının mədəniyyət paytaxtına çevrilir.Bu gün müstəqil,qalib Azərbaycan yeni böyük inkişaf yoluna qədəm qoyur.

İki böyük türk lideriniin İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Füzuli beynəlxalq hava limanının təməlinin qoyulmasında iştirakı region üçün, yeni,böyük imkanlar açır.



Azad ölkənin səmasında azad Füzuliyə "Qarabağın hava qapısı"na (İ.Əliyev) ilk sınaq uçuşu, o tarixi an 5 sentyabrda gerçəkləşir. "Airbus A 340-500" tipli Qarabağ təyyarəsi Füzuli hava limanına eniş edir. Qürurverici, tarixi anlar yaşanır. Cənab Prezident İ. Əliyevin söylədiyi kimi: "*Fizuli beynəlxalq hava limanı Qarabağın dünyaya açılan qapısı olacaq*!".[8]

---

[7] https://az.trend.az/azerbaijan/politics/3371130.html(10.10.2022).
[8] https://azertag.az/xeber/Fuzuli_Beynelxalq_Hava_Limani Qarabagin_hava_qapisi-1909964(10.10.2022).

İ. Əliyev beynəlxalq hava limanının böyük iqtisadi, siyasi əhəmiyyətini vurğulayaraq, ölkənin həm region, həm də dünya səviyyəsində geopolitik mövqeyinə öz uğurlu töhfəsini verəcəyini bildirir. İki türk dövlətinin liderinin Türkiyə şirkətlərinin töhfələri ilə inşa edilən ikinci hava limanı olan Zəngilan Beynəlxalq Hava Limanında iştirakı ilə yeni bir tarix yazır.Türkiyənin prezidenti R. T. Ərdoğan Zəngilan Beynəlxalq Hava limanına enən ilk dövlət başçısı olur.

İ. Əliyevin bu tarixi gündə söylədiyi : "*Türkiyə nəhəng layihələr həyata keçirir. Bölgədə söz sahibidir. Dünyada mühüm güc mərkəzidir. Hər kəs bilməlidir ki, bu uğurlar Rəcəb Tayyib Ərdoğanın sayəsindədir. Haqsızlıq etmək istəyənlər Türkiyə və Azərbaycanın müttəfiqliyini düşünməlidirlər*”[9] fikri iki türk dövlətinin qardaş, dost münasibətini, çox gözəl ifadə edir.




“*Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək”* fikri şanlı türkün əsrini bəyan edir. “*Hökmünü dünyaya infaz et*” çağırışı edir. Bu türkün dünyaya mesajıdır!...

[9]https://www.trt.net.tr/azerbaycan/turkiye-3/2022/10/20/rdogan-z-ngilan-beyn-lxalq-hava-limanina-en-n-ilk-dovl-t-bascisi-oldu-1895670(10.10.2022).

**Ədəbiyyatlar**

http://teref.az/gundem/43336-at-arvad-ve-papaq-bes-torpaq.html(10.09.).

N. Cəfərov, *Azərbaycanşünaslığa giriş*, Nurlan nəşriyyat, Bakı 2002.

https://idoc.pub/documents/molla-penah-vaqif-eserleri-q6ngpgqgv6nv(10.10.2022).

N. Xəzri, *Seçilmiş əsərləri*, II –cilddə, C. I, Lider Nəşriyyat, Bakı 2004, s. 88.

Güneş Quliyeva''Şuşa Bir daha Gözün Aydın'', https://aia.az/52002-gun-quliyeva-ua-bir-daha-gozun-aydn-zfr-sn-cox-yarad.html(10.10.2022).

https://adalet.az/az/posts/detail/tarix-dersinde-1658931482(10.10.2022).

https://az.trend.az/azerbaijan/politics/3371130.html(10.10.2022).

https://azertag.az/xeber/Fuzuli_Beynelxalq_Hava_Limani___Qarabagin_hava_qapisi-1909964(10.10.2022).

https://www.trt.net.tr/azerbaycan/turkiye-3/2022/10/20/rdogan-z-ngilan-beyn-lxalq-hava-limanina-en-n-ilk-dovl-t-bascisi-oldu-1895670(10.10.2022).

https://www.azeribalasi.com/showthread.php/78213-nebi-xezri-siirleri/page2(10.10.2022).

# *8 noyabr - Zəfər tariximiz!*

***Simnarə Alqayeva****



1992-ci ilin mayın 8-də Qarabağın mədəniyyət mərkəzi Şuşanın işğalı Azərbaycanın tarixinə qara hərflərlə yazıldı. Erməni vandalları bu qədim şəhərdən Azərbaycan xalqının izlərini silmək üçün ağlagəlməz cinayətlərə əl atdı. Artıq bu tarix geridə qalır. 8 noyabr 2020 –ci il Azərbaycan xalqının və dövlətinin müasir tarixinə qızıl hərflərlə yazıldığı gün oldu. Bizə qələbə sevinci bəxş edən Milli Ordumuz dünya hərb sənətində öz dədə-baba torpaqlarının

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, simnara.alqayeva.82@mail.ru*

işğaldan azad olması üçün parlaq döyüş nümunəsi göstərdi. Milli Ordumuz Odlar yurdunun düşmənlərinin başına PUA-larla od ələdi. Azərbaycanın modern silahlı qüvvələrinin olduğunu bütün dünyaya nümayiş etdirməklə yanaşı 44 günlük Vətən müharibəsi ərzində xalqımızın mənəvi bütovlüyünü, cəsarətini nümayiş etdirdi. 44 gün əslində dünya üçün haqqın, həqiqətin öz yerini tapdığı tarixi bir gün oldu. 44 gün davam edən Vətən Müharibəsi tarixində Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strategıya ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün çətinliklərə sinə gərdi, mübarizlik rəmzinə cevrildi. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında "Qarabağ Azərbaycandır!" reallığı 44 gündə mümkünsüzü mümkün etdi. Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin – Azərbaycanın var oldugunu sübut etdı.

Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, Türkiyə bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin müdafiəsinə qalxdı. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 28 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi.44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla, insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar. Şuşa qalasının alınması əməliyyatı haqqında Prezident Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutur.

"*Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbiçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın azad olunması cox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki, bu əməliyyatı bizim qəhrəman hərbiçilərimiz dağlardan, meşələrdən, cığırlardan kecərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir*".[1]

Ordumuz əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixində yeni örnək oldu. Belə vəziyyətdə Ermənistanın qarşısında iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə kimi məhv ediləcəkdi, ya da

[1]https://ordu.az/az/news/177712(20.10.2022).

“ağ bayraq” qaldırıb, biabırçı hərbi məglubiyyətini etiraf edəcəkdi. Paşinyan hakimiyyəti reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan ”ağ bayraq” qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı.

30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi. 8 Noyabr 2020-ci il, Qarabağa qovuşduğumuz tarixi gün. Bu böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür! Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA qoyduğu gündür!. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Daglıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti tarixə qovuşdu. Noyabrın 10-da Azərbaycan Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarıilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı.

8 noyabr 2020-ci il Ali Baş Komandan və şanlı Azərbaycan əsgərinin yazdığı şanlı tarix, 28 illik həsrəti 44 gün müddətində bitirməyə müvəffəq oldu. Bu müddət ərzində millətimiz daim vətən həsrəti sevgisini ürəyində daşıdı, cənab İlham Əliyevə arxalandı və qələbə qazandı. Liderimiz daim çıxışlarında “ *Biz Qarabağımıza qayıdacağıq. Qarabağ tarixi Azərbaycan torpağıdır”* deyirdi.[2] O Ulu öndər Heydər Əliyevə və xalqına verdiyi sözləri tutdu. Ata vəsiyyətini yerinə yetirdi. Ordumuza, eləcədə iradəli xalqına inanaraq zəfər qazandı. Bu zəfər asan başa gəlmədi. Daim danışıqlara üstünlük verən dövlətimiz öz hünərini döyüş meydanında da göstərdi. Bu müddət ərzində digər dövlətlər təzyiq göstərməyə, bəzi sanksiyalar tətbiq etməyə çalışsalar da Azərbaycanın üstünlüyünü qəbul etməyə məcbur oldular.

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən *“Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur”*- deyən Ulu Öndərin arzusunu reallaşdırdı.[3]

*“Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim,onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyətini yerinə yetirdim.Şuşanı azad*

---

[2] https://pravda.az/news/96482(20.10.2022).
[3] https://xalqqazeti.com/mobile/az/news/22266(20.10.2022).

*etdik. Bu böyük Qələbədir. Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır.Gözün aydın olsun, Azərbaycan!. Gözünüz aydın olsun, dünya Azərbaycanlıları!".*

Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. "*Dağlıq Qarabağ Azərbaycan torpağı beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir*"-[4] deyən Prezidentimizə olan inamı, sevgini birə - beş artırdı. *"Mən ona özüm qədər inanıram, gələcəyinə böyük ümid bəsləyirəm".*[5] Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlər hər keçən gün öz təsdiqini tapdı və hər bir Azərbaycanlının Prezidenti olduğunu bir daha sübut etdi. Bu qələbəni zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz, rəşadətli əsgər və zabitlərimizdir. 8 Noyabr xalqımızın tarixinə şanlı, Zəfər tarixi kimi yazıldı. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sübuta yetirdik ki, bir qarış torpağımızı belə heç kimə verən deyilik!.

Zəfərin mübarək, Azərbaycan !...

**Ədəbiyyatlar**

https://ordu.az/az/news/177712(20.10.2022).

https://pravda.az/news/96482(20.10.2022).

https://xalqqazeti.com/mobile/az/news/22266(20.10.2022).

https://www.yeniazerbaycan.com/xeberlenti_e76453_az.html(20.10.2022).

https://xalqqazeti.com/mobile/az/news/84200(20.10.2022).

[4] https://www.yeniazerbaycan.com/xeberlenti_e76453_az.html(20.10.2022).
[5] https://xalqqazeti.com/mobile/az/news/84200(20.10.2022).

# *Şuşa Azərbaycanın Musiqi Beşiyidir*

**Səkinə Bağışova***




Milli musiqi mədəniyyətimizin inkişafında mühüm yeri olan, dünyaşöhrətli incəsənət xadimləri, bir sıra görkəmli şəxsiyyətlər yetişdirən, musiqimizin məbədi və beşiyi sayılan füsünkar Şuşa şəhərinin əsası 1750-ci ildə Qarabağın ilk xanı Pənahəli xan (1693-1763) tərəfindən qoyulmuşdur. Pənahəli xan tərəfindən qala üçün seçilən yer əvvəllər tamamilə meşə örtüyündən ibarət olmuşdur. Üç tərəfdən sıldırımlı qayalarla əhatə olunmuş bu yer şəhər üçün əlverişli səngər rolunu oynayırdı. Əvvəllər öz banisinin adı ilə Pənahabad adlandırılan bu şəhər bir müddət sonra şəhərin yaxınlığında yerləşən Şuşa kəndinin adı ilə "Şuşa qalası" kimi tanınmağa başladı.

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, sakinabagishova01@gmail.com*



XIX əsrin ikinci yarısında Azərbaycanın bir sıra şəhərlərində olduğu kimi Şuşada da musiqi məclisləri, müxtəlif cəmiyyətlər, dərnəklər təşkil olunurdu. Bakıda Məşədi Məlik Mənsurovun məclisi, Şamaxıda Mahmud Ağanın, Şuşada isə Xarrat Qulu Məhəmməd oğlunun və Mir Mohsün Nəvvabın təşkil etdiyi musiqi məclisləri çox maraqla qarşılanmış və bu məclislər Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühim rol oynamışdır.

Şərq musiqisinin gözəl bilicisi Xarrat Qulu Məhəmməd oğlu (1823 – 1883) tərəfindən Şuşada təşkil edilmiş ilk musiqi məclisi dini məqsədlə yaransa da burada həmçinin muğam sənəti də öyrənilirdi. Bu məclis Azərbaycanın muğam sənətinin inkişafında böyük rol oynamışdır.

Xarrat Quludan sonra 80-ci illərdə Şuşada yaranan "Məclisi Fəramuşan" (Unudulmuşların məclisi) və "Musiqiçilərin məclisi" adlı musiqi məclislərinə görkəmli musiqiçi, şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi və xəttat kimi tanınan Azərbaycanlı alim Mir Möhsün Nəvvab rəhbərlik edir. Mir Möhsün Nəvvab Şuşada doğulmuş, yaşayıb – yaratmış və orada da vəfat etmişdir (1833 – 1918). Nadir istedada və ensiklopedik biliyə malik olan M. M. Nəvvab Azərbaycan elminin, musiqi sənətinin, ədəbiyyatının inkişafında mühüm rol oynamışdır.

Xarrat Qulu, Mir Möhsün Nəvvab, Məşədi İrsi, Hacı Hüsü, Sadıqcan, Əbdülbağı Zülalov, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məmmədi, Seyid Şuşinski, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev, Bülbül, Zülfi Adıgözəlov, Xan Şuşinski, Qurban Pırimov, Məşədi Cəmil Əmirov, Üzeyir Hacıbəyov, Zülfüqar Hacıbəyov, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Suleyman Ələsgərov, Rəşid Behbudov kimi Azərbaycan musiqi mədəniyyətinin inkişafı tarixində xüsusi rolu olan görkəmli musiqi xadimlərinin vətəni Şuşadır. Əlbəttə bu siyahı daha çoxdur, bu haqda kifayət qədər kitablar, yazılar dərc olunub, tədqiqatlar aparılır və aparılacaqdır.

Vətəni Şuşa olan yeni Azərbaycan tarının yaradıcısı Mirzə Sadıq Əsəd oğlunun da (1846-1902) musiqimizin tarixində xidmətləri böyükdür. Xalq arasında o, Sadıqcan kimi məhşurlaşmışdı.



Azərbaycan və Zaqafqaziya xalqları arasında böyük hörmət və məhəbbət qazanmış böyük sənətkarın Sadıqcan adlandırılması bu sevginin təzahürü idi. O, tarı təkmilləşdirərək bu alətin ifa imkanlarını genişləndirmişdir. Mirzə Sadıq tara cingənə və kök simlərini əlavə edib simlərin sayını 5 simdən 11-ə çatdırıb, tarın boyunlarına tutma sistemini tamamilə dəyişdirib onların sayını 27-28-dən 22-yə endirdi. Əvvəllər tarı diz üstə əyilərək çalırdılar. Sadıqcan bu üsulu ləğv edərək tarı sinə üstünə gətirdi. Mirzə Sadıq Azərbaycan muğamına yenilik gətirərək “Segah” və “Mahur” muğamını, “Mirzə Hüseyn Segahı”nı təkmilləşdirdi. “Mahur” muğamını Azərbaycan muğamında “Mahur-Hindi”, “Orta Mahur”, “Zabul Segah”, “Xaric Segah”, “Mirzə Hüseyn Segahı”, “Yetim Segah”, “Çoban Bayatı”nın yaranması Sadıqcanın yaradıcılığı və Azərbaycan tarı ilə bağlıdır.

1890-cı ildə Şuşada Sadıqcanın rəhbərliyi ilə ansambl yarandı. O dövrün tanınmış müsiqiçiləri və müğənniləri də ansamblın tərkibinə daxil idi. Qurban Pirimov, Məşədi Cəmil Əmirov, Məşədi Zeynal Haqverdiyev, Həmid Malıbəyli, Şirin Axundov, Mərdi Canıbəyov Sadıqcan məktəbinin davamçıları olmuşlar.

1897-ci ildə Şuşada yazıçı Əbdürrəhimbəy Haqverdiyevin rəhbərliyi altında görkəmli Azərbaycan şairi M. Füzulinin “Leyli və Məcnun” poemasından “Məcnun Leylinin məzarı üstündə” adlanan son hissəsi həvəskar aktyorların ifasında səhnələşdirilib təqdim olunmuşdur. Məcnun rolunu məhşur xanəndə Cabbar Qaryağdıoğlu (1861-1944) oynayırdı.



Daha sonra 1902-ci ildə "Fərhad və Şirin" mövzusunda ikinci belə musiqili səhnə qoyuldu və Fərhad rolunu yenə Cabbar Qaryağdıoğlu ifa edirdi. O, xalq arasında xanəndə və bəstəkar kimi tanınırdı. Cabbar Qaryağdıoğlu "Bakı", "Bəsti", "Tiflisin yolları", və s. kimi bir çox mahnıların müəllifi idi. Onun səsini məşhur italyan tenoru Karuzo ilə müqayisə edirdilər.

Cabbar Qaryağdıoğlundan sonra Şuşa xanəndəlik məktəbinin ən parlaq nümayəndələrindən biri də Seyid Şuşinski idi (1889-1965). Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırmışdı. Seyid Şuşinskinin 1908-ci ildə Şuşanın "Yay klub"unda keçən ilk uğurlu çıxışından sonra Cabbar səhnəyə çıxıb Seyidi bağrına basaraq gözləri yaşarmış halda demişdi: "*İndi mən ölsəm dədaha qəmim yoxdur, çünki məndən sonra Seyid* var".[1]

Şuşa həm də XIX-XX əsrlərdə "Qafqazın konservatoriyası" adlandırılırdı. Çünki, Şuşa musiqiçiləri Azərbaycan musiqisini təkcə ölkəmizdə deyil, bütün Qafqazda, eləcə də Şərq ölkələrində (İranda, Türkiyədə), Bir sıra Avropa ölkələrində (Polşada, Almaniyada) və Rusiyanın bir çox şəhərlərində (Moskva, Peterburq və s.) yüksək səviyyədə təmsil etmişdilər. Qarabağ muğam məktəbinin ənənələri üzərində neçə nəsil xanəndələr, tarzənlər və digər xalq çalğı alətləri ifaçıları yetişmişdir. Onların yaratdıqları və ifa etdikləri muğamlar, zərbi-muğamlar, təsniflər, rənglər, xalq mahnıları, rəqslər xalq tərəfindən sevilir və dillər əzbərinə çevrilirdi.

Şərq musiqisinin məşhur tədqiqatçısı V.Vinoqradov hələ 1938-ci ildə Üzeyir bəy haqqında kitabında yazırdı:

"*Şuşada musiqi çoxdur, Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamandan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziya xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırlar və onu yalnız vətənində deyil, digər Şərq ölkələrində də təqdim edirlər*".[2]

[1]https://www.yumpu.com/xx/document/view/49965869/2-cildde-operalar-musiqili-komediyalar-satirik-hekayeler(12.11.2022).
[2] http://www.musigi-dunya.az/new/added.asp?action=print&txt=12(12.11.2022).

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri olan Ü. Hacıbəyov milli bəstəkarlıq məktəbinin qurucusu olmuş və yaratdığı "Leyli və Məcnun" operası ilə bütün Şərqdə ilk opera janrının əsasını qoymuşdur. Bu operanı Ü. Hacıbəyov 1907-ci ildə yazmağa başlayır. Amma musiqili səhnə əsəri yaratmaq fikri bir qədər əvvəl 1897-98-ci illərdə hələ bəstəkar Şuşada yaşayarkən yaranır. Şuşada göstərilən "Məcnun Leylinin məzarı üstündə" səhnəciyində balaca Üzeyir özü də xorda oxuyurdu.



Ü. Hacıbəyov Azərbaycan opera musiqisinin banisi, görkəmli musiqiçi kimi tanınmaqla yanaşı publisist (jurnalist), görkəmli daramaturq, pedaqoq və ictimai xadim kimi də tanınırdı. Ü. Hacıbəyovun yaradıcılıq yolu (1885-1948) Azərbaycan musiqi mədəniyyətinin yaranması və inkişafı tarixinin mühüm dövrünü əks etdirir. Məhz elə buna görə də (bəstəkarın 110 illik yubileyi ərəfəsində) anadan olduğu 18 sentyabr günü 1995-ci ildən etibarən Milli Musiqi Günü kimi qeyd edilir. Musiqisi Üzeyir Hacıbəyova və sözləri Əhməd Cavada məxsus "Azərbaycan marşı" da Azərbaycan Respublikasının Himni kimi təsdiq edilmişdir.

Üzeyir bəy dəfələrlə etiraf etmişdir ki, "Koroğlu" operasını yaradarkən ən əvvəl Bülbülün səsini nəzərdə tutmuşdu. Bülbül (1897-1961) Ü. Hacıbəyovun "Koroğlu" operasında Koroğlu rolunun klassik ifaçısı oldu. O, hələ 12 yaşından Qarabağ toylarında və bayramlarında iştirak edib oxuyurdu və Bülbül adıyla tanınaraq məhşurlaşdı. Bülbül inqilabdan əvvəl xanəndə kimi, muğamların ifaçısı kimi çıxış edirdi. İnqilabdan sonra yeni Azərbaycan vokal sənətinin banisi olmuşdur. Bakı konservatoriyasındakı illər, İtaliyada ən yaxşı belkanto ustalarından aldığı dərslər, rus, sovet və dünya ustalarının sənətindın öyrənməsi Bülbülü tamamilə yeni tipli Azərbaycan musiqi ifaçısı kimi formalaşdırmışdır.




Bülbül xalq mahnılarının gözəl ifaçısı olmaqla bərabər, italyan bəstəkarları Puççini, Verdi və başqalarının operalarından ariyaları, həmçinin Azərbaycan operalarından ariyaları özünə məxsus ustalıqla ifa edirdi. 1961-ci ildə, ölümündən iki ay əvvəl Bülbül doğma Qarabağda, anadan olduğu Şuşada konsertlər vermişdir. O, sanki bu torpaqla vidalaşırdı.

Qarabağdan olan görkəmli muğam ustaları arasında öz məlahətli səsi ilə seçilən, xalqın ürəyinə yol tapan xanəndələrdən biri də Zülfüqar Adıgözəlov idi (1898-1963). Xan Şuşinski də (1901-1979) Şuşanın xanəndəlik məktəbinin son karifeylərindəndir. Azərbaycan musiqisinin inkişafında Qarabağdan, Şuşadan çıxmış digər sənətkarlarımızın, məhşur xanəndə və sazəndələrimizin, bəstəkarlarımızın, ifaçılarımızın rolu böyük olmuşdur.Şuşa şəhəri 1992-ci ilin mayın 8-də Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmiş, şəhər əhalisi məcburi köçkün olmuşdur.

"Azərbaycanın musiqi beşiyi", "Qarabağın döyünən ürəyi" və "Sən tarixin özüsən, Azərbaycanın gözüsən" deyə bəhs etdiyimiz Şuşa 28 il 6 aydan sonra 2020-ci ilin 8 noyabrında işğaldan azad edildi. Şuşa ilə birgə işğal edilmiş digər Azərbaycan əraziləri də Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuz tərəfindən azad olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədi ilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.[3]

[3] https://president.az/az/articles/view/48455(12.11.2022).

**Ədəbiyyatlar**

https://www.yumpu.com/xx/document/view/49965869/2-cildde-operalar-musiqili-komediyalar-satirik-hekayeler(12.11.2022).

http://www.musigi-dunya.az/new/added.asp?action=print&txt=12(12.11.2022).

https://president.az/az/articles/view/48455(12.11.2022).

# *Şuşa-Azərbaycanın Təhsil və Mədəniyyət Beşiyidir*

**Rəna Rzayeva** [*]



[*] *Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, Bakı-Azərbaycan, rena.rzayeva3@gmail.com*



2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirirdi.

Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə, Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnamələrini özü icra etdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi.

Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

Azərbaycan Prezidenti İlham Əliyev mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan etmiş, xüsusilə, son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratmışdı. Nəticədə, Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 günün ərzində reallığa çevrildi.

Hər zaman, xüsusilə, Münxen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

Şuşa xalqımız üçün tarixi, mədəni, mənəvi və rəmzi əhəmiyyətə malikdir. Qarabağ xanlığının tarixi paytaxtı, mədəniyyət məbədi olan bu qədim şəhər özü boyda tarixi abidədir. Şuşa orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi, milli memarlıq incisi, Azərbaycan musiqisinin, xüsusilə muğamımızın beşiyi, "Şərqin konservatoriyası" adlandırılır. Ümummilli lider Heydər Əliyev 1996-cı il mayın 6-da Prezident sarayında Şuşa və Laçın rayonlarının ictimaiyyəti ilə görüşdə Şuşanın, ümumiyyətlə, Qarabağın Azərbaycan üçün müstəsna əhəmiyyəti olduğunu bildirərək demişdi:

"*...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər*

*deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".*[1]

Şuşa qalasının salınması 1750-1751-ci illərə təsadüf edir.Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlanılır və 1756-1757-ci illərdə tikilib başa çatdırılır. Hazırda Şuşa rayonunun 34 min 300 nəfər əhalisi Azərbaycanın bir neçə rayonunda müvəqqəti məskunlaşıb. Bu səbəbdən hazırda Şuşa Rayon Təhsil Şöbəsi də ümumilikdə 22 ümumtəhsil, 2 məktəbdən kənar tədris müəssisəsini əhatə etməklə fəaliyyət göstərir.

İlk növbədə qeyd edək ki, orta əsrlərdən başlayaraq Azərbaycanda təhsil mollaxana, məktəb və mədrəsələrdə aparılıb. Şuşadakı İbrahim xan məscidinin nəzdində əsası 1801-ci ildə qoyulan məktəb XIX əsrin II yarısınadək fəaliyyət göstərib. Mədrəsələrdə ərəb dili və Quran öyrədilib. Mirzə Şəfi Vazeh də bu məktəblərdə dərs keçib.

Zaqafqaziya məktəblərinin 1829-cu il 2 avqust tarixli Nizamnaməsinə əsasən, 1830-cu il dekabrın 30-da Şuşada Cənubi Qafqazın dünyəvi təhsil verən ilk qəza məktəbi fəaliyyətə başlayıb.[2] O, dövlət idarələri üçün qulluqçular, ilk növbədə isə Azərbaycan və rus dillərinə tərcüməçilər hazırlamaq məqsədilə açılıb. Burada təhsil alanların böyük əksəriyyəti bəy və tacir balaları idi. Məktəb Şuşada olan Bazel alman missionerlərinin cəmiyyəti tərəfindən pulsuz olaraq bir il müddətinə verilmiş binada yerləşib. İki sinif otağından əlavə, burada iki müəllimin yaşaması üçün də yaxşı şərait yaradılıb.

Şuşa qəza məktəbinin birinci sinfinə ilk ildə 19 şagird qəbul olunub. Lakin ildən-ilə şagirdlərin sayı artaraq 1833-cü ildə 27, 1834-cü ildə 44 nəfərə çatıb və ikinci sinif də açılıb. Şuşa qəza məktəbi 1874-cü ilə qədər öz fəaliyyətini davam etdirib və yerini Şuşa şəhər məktəbinə verib.[3] Buranı bitirənlərdən bir çoxları (Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov və başqaları) sonralar Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olublar. Böyük ziyalıların elm öyrətdiyi Şuşa Realnı Məktəbində o dövrün tanınmış maarifçi şəxslərindən Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Malikhaqnəzərov, Haşım bəy Vəzirov dərs deyib. Bu

[1] http://shusha-ih.gov.az/az/news/521.html(15.11.2022).
[2] https://azertag.az/xeber/Susa_mektebleri-1933214(15.11.2022).
[3] https://azedu.az/az/news/36692-susaya-sadiq-ebedi-meseller-mektebler-ve-tedris-merkezleri(15.11.2022).

məktəbin yetirmələri sırasında görkəmli Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, həmçinin tanınmış şəxsiyyətlər Cabbar bəy Vəlibəyov, Qara bəy Əliverdilər, Rüstəm bəy Axundov, Xan Şuşinskininin adlarını qeyd etmək olar. Şuşa sakinləri məktəblərdə ana dilinin öyrənilməsinə xüsusi diqqət yetirirdi.

Bu baxımdan Şuşa məktəbinin müəllimləri xüsusən də ana dilinin uğurlu tədrisi sahəsində Mirzə Həsən bəy Əmirov və Mirzə Aslan bəy Əmirov çox məşhur idilər. Fransız dili bölgə tacirlərinin Fransa ilə ticarət əlaqələri yaratması üçün zəruri idi və əhalinin əlavə vəsaiti hesabına tədris olunurdu. Şəhər məktəbində təhsil pullu idi.Təsis edildiyi ilk illərdə Şuşa şəhər məktəbində 375 nəfər şagird təhsil alırdı. [4]

Bu, Rusiyada dövrünün ən çox şagird kontingenti olan məktəbi idi. Şuşa şəhər məktəbində 1875-ci il mayın 6-da kasıb zadəgan övladlarının təhsil aldıqları konvikt təşkil edildi. Onlar dövlət hesabına pansionda yaşayıb təhsil alırdılar. Şəhər məktəblərinin nəzdində kitabxanalar təşkil edilirdi. Şagird kitabxanasının zənginliyi ilə fərqlənən Şuşa məktəbi tədris vəsaiti və fənn kabinetləri ilə çox yaxşı təchiz olunmuşdu. 1880-ci ildə Şuşa şəhər məktəbinin nəzdində xüsusi musiqi sinifləri açılır. Bu siniflərin Şuşada professional musiqi hazırlığı olan musiqiçilər nəslinin yetişməsində rolu əhəmiyyətli və danılmazdır. Şuşa şəhər məktəbi əsrin sonlarına doğru mövqeyini itirməyə və yerini yeni tipli məktəblərə verməyə başlayır.[5]

Ümumiyyətlə, XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər yaranmağa başlamışdı. Belə məktəblərin inkişafı və maariflənmə səyləri baxımından Qarabağ bölgəsi, nəinki Azərbaycanda, o cümlədən Cənubi Qafqazda da öncüllük edirdi. Böyük ruh yüksəkliyi ilə başlanan bu ənənə XIX əsrin sonlarında daha da güclənməyə doğru gedirdi.Azərbaycanda maarifçiliyin böyük inkişaf yoluna qədəm qoyduğu bu dövrdə dini təhsil sistemindən dünyəvi təhsil sisteminə keçid də gücləndi. Bu dövrdə Azərbaycanda cəmi bir realnı məktəb (Bakıda) və bir klassik progimnaziya (Gəncədə) fəaliyyət göstərirdi. Belə bir mənzərə nə əhalinin orta təhsilə olan ehtiyacını, nə də sənaye və ticarətin artmaqda olan tələbini ödəməyə yetirdi. Zəruri tələb və ehtiyac Şuşada özünü xüsusi olaraq göstərirdi. Burada orta məktəbə olan tələb getdikcə artırdı. Şəhər əhalisi Şuşada progimnaziyanın təsis olunması tələbinin nəticəsiz qalmasını görüb, 1880-ci il iyunun 30-da Peterburqa - Qafqaz komitəsinə müraciət etmişdi. Göstərilən

[4] https://www.muallim.edu.az/news.php?id=14322&lang=(15.11.2022).
[5] https://azedu.az/az/news/36692-susaya-sadiq-ebedi-meseller-mektebler-ve-tedris-merkezleri(15.11.2022).

səylər 1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifli real məktəbin əsasının qoyulmasına gətirib çıxardı. Hazırlıq və üç əsas sinifdən ibarət təşkil edilən bu məktəbə ilk dəfə 159 şagird qəbul edildi. 1886-cı ildə məktəbə 7.500 manat vəsait xərclənmişdi.Şuşa Realnı Məktəbi həqiqətən də dövrünün nümunəvi maarif ocağı sayılırdı. 1890-cı ildə Tiflis məktəblərində alman dili məcburi dil kimi öyrədilirdisə, Şuşa məktəbində bu, könüllülük prinsipi ilə aparılırdı. Yeni açılan bu məktəblərdə ədəbiyyatın tədrisinə xüsusi diqqət yetirilirdi. XX əsrin 20-ci illərindən başlayaraq məktəb çiçəklənmə dövrünə qədəm qoyur - 1927-1928-ci dərs ilindən etibarən yeddiillik məktəbə çevrilir və respublikanın ən yaxşı təhsil ocaqları sırasına daxil olur. Məktəbin Ə. Abbasov, S. Ələsgərov, A.Kazımova kimi məşhur məzunları olub.Sovet dövründə məktəbin fəxri məzunlarından P. Rüstəmov, Sovet İttifaqı Qəhrəmanı X. Məmmədov, elmlər doktorları S. Rüstəmov, V. Yusifzadə, Ə. Rüstəmov, S. Tağıyeva və başqalarının adı fərqlənmişdi. Şuşa Realnı Məktəbin binası 1901-1908-ci illərdə inşa edilib. İşğaldan əvvəl binada Azərbaycan Pedaqoji İnstitutunun filialı fəaliyyət göstərib. Şuşa şəhərinin 08.05.1992-ci il tarixdə erməni terrorçuları tərəfindən işğal edilməsi nəticəsində bina yandırılıb və baxımsız vəziyyətə düşüb.[6]Şuşa məktəblərindən biri də Malıbəyli Qızlar Məktəbi olub. Qori Müəllimlər Seminariyasının məzunu olan Məmməd Qarayevi Bakıdan təyinatla Şuşaya göndəriblər. Bu məktəbin təsisçisi də elə o olub.Məmməd müəllim Malıbəylidə ilk dəfə qızlar məktəbi təşkil edib.

Musiqi mədəniyyətimizin beşiyi sayılan Şuşada xanəndə və çalğıçıların professional məktəbi yaranmışdı. Şuşa ifaçıları ölkə hüdudlarından kənarda belə şan-şöhrət qazanmışdı. İlk musiqi məktəblərinin yaranması ilə Şuşada xalq musiqisi ənənələri yayılır və zənginləşirdi 1882-ci ildən başlayaraq Şuşa "yeni teatr mərkəzinə çevrilir". Şuşalı teatr həvəskarları sırasında "Otello"nun ilk tərcüməçisi, komediyalar müəllifi H. Vəzirov, məşhur xanəndə C. Qaryağdı oğlu, tanınmış ziyalılar S. Vəlibəyov, B. Bədəlbəyov, Ə. Haqverdiyev, F. Köçərli və b. var idi. 1904-cü ildə Şuşa səhnəsində ilk dəfə Şekspirin "Otello" əsəri tamaşaya qoyulub. 1897-ci ildə Şuşada Ə. Haqverdiyev Füzulinin «Leyli və Məcnun», 1902-ci ildə isə Nizaminin "Xosrov və Şirin" poemalarını səhnələşdirmişdir.[7]

Şuşada fəaliyyət göstərmiş məktəblərdən biri də Şuşa Mədəni-Maarif Texnikumudur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyun tarixli qərarı ilə Şuşa Mədəni-Maarif Texnikumu Şuşa Humanitar Kolleci adlandırılmışdır. Nazirlər Kabinetinin 3

[6] https://news.milli.az/culture/136296.html(15.11.2022).
[7] https://news.milli.az/culture/136296.html(15.11.2022).

fevral 2016-cı il tarixli, 30 nömrəli qərarına əsasən isə Şuşa Musiqi Kolleci də Şuşa Humanitar Kollecinə verilmişdir. 2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Şuşa Humanitar Kollecinin 85 illik yubileyi qeyd edilmişdir.[8]

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zamanı gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır:

*"Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik".*[9]

Şuşaya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi və həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Azərbaycan Prezidenti İlham Əliyev qeyd etdiyi kimi, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmiş, 28 il ərzində buna çalışmış lakin nail ola bilməmişlər. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi.

---

[8] https://stm.az/en/news/253/susanin-tehsilimizde-ve-medeniyyetimizde-yeri(15.11.2022).
[9] https://president.az/az/articles/view/50226/print(15.11.2022).

Prezident İlham Əliyev bildirib ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir:

*"Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz".* Dövlət başçısı bildirmişdir ki, ... "*mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Şuşanın əsl tarixi simasının və qədim mədəni abidələrinin bərpası Azərbaycan memarlıq üslubunu əks etdirməli, çox zəngin mədəni həyat olmalı və Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar*".[10]

2021-ci il mayın 12-13-də hər bir azərbaycanlı üçün müqəddəs məkanda, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, bənzərsiz və füsunkar Cıdır düzündə 29 ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalı keçirildi. Vətən uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin əziz xatirəsinə həsr edilmiş möhtəşəm "Xarıbülbül" musiqi festivalı düşmənə, bu müqəddəs şəhərə yad olan ünsürlərə həm də cavab oldu. Nəticədə, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı, Xarıbülbül Qarabağın azadlıq rəmzinə çevrildi. 2021-ci il sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi. Hər il dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin ad günündə qeyd olunan bu tədbir, Şuşada, onun heykəlinin ucaldığı parkda təşkil edildi.

Xatırladaq ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada ucaldılmış bəstəkarın heykəli 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdi. Artıq işğaldan azad edilmiş Şuşa şəhərində görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəli Azərbaycanın mədəniyyət paytaxtında öz əvvəlki yerində ucaldılıb. 2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində böyük fəxr və qürur hissi ilə bütün dünyaya bəyan etdi:

[10]https://www.azerbaijan-news.az/posts/detail/prezident-susanin-berpasi-dircelmesi-isleri-planli-sekilde-aparilmalidir-1611754800(15.11.2022).

"Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".[11]

**Ədəbiyyat**

http://shusha-ih.gov.az/az/news/521.html(15.11.2022).

https://azertag.az/xeber/Susa_mektebleri-1933214(15.11.2022).

https://azedu.az/az/news/36692-susaya-sadiq-ebedi-meseller-mektebler-ve-tedris-merkezleri(15.11.2022).

https://www.muallim.edu.az/news.php?id=14322&lang=(15.11.2022).

https://azedu.az/az/news/36692-susaya-sadiq-ebedi-meseller-mektebler-ve-tedris-merkezleri(15.11.2022).

https://news.milli.az/culture/136296.html(15.11.2022).

https://news.milli.az/culture/136296.html(15.11.2022).

https://stm.az/en/news/253/susanin-tehsilimizde-ve-medeniyyetimizde-yeri(15.11.2022).

https://president.az/az/articles/view/50226/print(15.11.2022).

https://www.azerbaijan-news.az/posts/detail/prezident-susanin-berpasi-dircelmesi-isleri-planli-sekilde-aparilmalidir-1611754800(15.11.2022).

ubai.mfa.gov.az/az/news/3149/eziz-susa-sen-azadsan-eziz-susa-biz-qayitmisiq-eziz-susa-biz-seni-dirceldeceyik-susa-bizimdir-qarabag-bizimdir-qarabag-azerbaycandir(15.11.2022).

[11] ubai.mfa.gov.az/az/news/3149/eziz-susa-sen-azadsan-eziz-susa-biz-qayitmisiq-eziz-susa-biz-seni-dirceldeceyik-susa-bizimdir-qarabag-bizimdir-qarabag-azerbaycandir(15.11.2022).

# *Hər Naxış Bir Tarixdir*

**Kəmalə Qayıbova** *

44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz az qala bir qərinəlik erməni əsarətinə təkcə son qoymadı, eyni zamanda qələbələrlə dolu min illik tariximizi bizə yenidən yaşatdı. Mədəniyyət paytaxtımız olan Şuşamızın işğaldan azad edilməsi mədəni həyatımıza bir Qələbə ab-havası gətirdi. Şuşanın tarixi, mədəniyyəti, adət-ənənələri, mütərəqqi ziyalılarının tanıdılması, onların gənc nəslə aşılanması vacibdir. Tədris etdiyim "İxtisas rəsmi və bədii qrafika", "Geyimin stil tarixi", "Geyimin konstruksiyası və modelləşdirilməsi, "Geyimlərin modelləşdirilməsi və bədii tərtibatı"kimi ixtisas fənləri üzrə mövcud dərsliklərin böyük əksəriyyətində həmin sahələrin tarixi dövrlər üzrə inkişafına xüsusi önəm verilir. Avropada, xüsusi ilə Fransada mövcud olmuş cərəyanlar hökmən önə çəkilir. Qoca Şərq nədənsə hər sahədə "yaddan çıxır", halbuki elə bir elm vəya incəsənət sahəsi yoxdur ki, o başlanğıcını Şərqdən almasın.



*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, tehsilproblemleri@mail. ru*

-Niyə Türk dünyasının adı burda qeyd olunmayıb? - deyə sual verən gəncliyə tariximiz və mədəniyyətimiz haqqında həqiqətləri çatdırmalıyıq, onlara əcdadlarımızın min illər bundan əvvəl başladıqları və bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun rəşadətlə başa çatdırdığı igidlik tariximizi öyrətməliyik.

Bədnam qonşularımızdan fərqli olaraq bizə nə saxta tarix, nə də ki, saxta mədəniyyət lazımdır. Bizim tariximiz göz qabağında- mavi səma altında olub, Qobustan qayalarından başlanır. Mədəniyyətimiz də hardasa bu nəhəng daşlar üzərində əcdadlarımızın çəkdikləri rəsmlərdən başlanır. Bizə uydurulmuş tarix və saxta mədəniyyət lazım deyil, təkcə min illik rəsmlərimiz və xalçalarımız deyil, elə Natəvanın bədii tikmələrə vurduğu rəngarəng naxışlar da kifayət edər ki, sübut edək ki, nə qədər möhtəşəm mədəni irsimiz var! Tarixi abidələri sökmək və ya "erməniləşdirmək", min illər milli mətbəximizi təmsil etmiş "Küftə", "Dolma", "Xəngəl", "Kabab", "Plov" kimi milli xörəklərimizi utanmadan öz adlarına yazmaq istəyən bu ləyaqətsiz insanlar milli naxışlarımıza da yeri gəldikcə sahib çıxmaq istəyirlər.

Əslində milli mənsubiyyəti hələ də dəqiq məlum olmayan ermənilər təkcə yuxularında gördükləri "dənizdən- dənizə ermənistan" xülyaları ilə yaşamırlar. Bədbəxçilik o həddə çatıb ki, dünyanın istənilən yerində olan çox qədim hər nə varsa, utanmadan ermənilərə məxsus olduqlarını iddia edirlər.

Otuz il ərzində işğal altında saxladıqları Azərbaycan torpaqlarındakı gözə ğörünə bilən hər şeyi məhv edən ermənilər təkcə tarixi izləri məhv etməklə kifayətlənmir, mədəniyyətimizə aid incilərə də sahib çıxmaq istəyirdilər. Hər kəsin xatirindədir ki, neçə illərdir ermənilər "Sarı gəlin" adlı xalq mahnımıza sahib çıxmağa can atırlar. Sual olunur-niyə məhz "Sarı gəlin"?... On mindən çox bəstə və ya yaxud mahnının içindən "Sarı Gəlin"in seçilməsi təsadüfdürmü? Əsla yox! ...

Məsələ burasındadır ki, Atəşpərəstlərə məxsus bu qədim mahnı tarixi nöqteyi-nəzərdən dünyanın ən qədim bəstələrindən biridir. Günəşi, atəşi, odu özləri üçün İlahi bilib müqəddəs hesab edən atəşpərəstlərin mahnıda ifadə olunan sadə, lakin elmi cəhətdən olduqca dəyərli fikirləri mahnıya məxsus xalqın da o dövr üçün olduqca böyük inkişafına dəlalət edir. "Saçın ucun burmazlar. Səni mənə verməzlər, Sarı gəlin" cümlələri adi şeir cümlələri deyil. Mahnıdakı Sarı Gəlin Günəş kimi başa düşülür, onu heç kimə vermirlər, o alınıb-satılmır. Onun hörüklərini burub yığmaq mümkün deyil, çünki o, adi hörük deyil, Günəş şüalarıdır. Qədim dövrlərdən bəri olduqca az sayda mahnı və bəstədə elmi fikirlər bu dərəcədə gözəl ifadə

olunub. Əgər onlardan ən qədimi "Sarı gəlin"dirsə ona da "sahib çıxmaq" lazım gəlir. Çünki bu "dünyanın ən qədim xalqı" kimi uydurma bir fikrin təsdiqi üçün göydən düşmə arqumentdir. Mahnı ən qədim mahnıdırsa, deməli onun sahibi olan xalq da ən qədim xalqdır.

Hər bir ziyalımızın xalqımızın mədəni irsini bilməsi və yeri gəldikcə təbliğ etməsi çox vacib məsələlərdən biridir. Şuşanın "Mədəniyyət paytaxtı" elan edilməsi bu sahədə hər bir ziyalıya tariximizi, mədəniyyətimizi öyrənmək, daha dərindən araşdırmaq üçün geniş üfüqlər açdı. Götürək, elə Xan qızı Natəvanın şair, rəssam, bədii tikmə ustası, xeyriyyəçi və sair kimi fəaliyyət göstərdiyi sahələri. Çox yox, 150 il öncə bədnam qonşularımızda müxtəlif mədəniyyət və incəsənət sahələrini bu dərəcədə mükəmməl bilən və sevə-sevə yaşadan bircə nəfər belə xanım olubmu?... Yoxdur.

Gəncliyimizə Xan qızı Natəvanın bədii tikmələrini, bu tikmələrin əsasında doğma Azərbaycan dilini, onun unudulmaqda olan bəzi sözlərini, milli adət-ənənələrimizi öyrənməklə rənglər və naxışlar dünyasını, naxışlarda tarixə dönmüş irsimizi öyrənmək tövsiyyə edilir. Kimdir Natəvan?...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 aprel 2012-ci il tarixində poeziyamızın inkişafında müstəsna xidmətləri olmuş Xurşidbanu Natəvanın 180 illiyinin dövlət səviyyəsində qeyd edilməsi məqsədilə imzaladığı Sərəncamda deyilir:

"*Xurşidbanu Natəvanın parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyatımız tarixində özünəməxsus layiqli yeri vardır. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Natəvan dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınmışdır.* "[1]

Xurşidbanu Natəvanın cəhalət və nadanlığın hökm sürdüyü bir cəmiyyətdə yaratdığı və 25 il rəhbərlik etdiyi "Məclisi-üns" təkcə Azərbaycan ədəbi mühitini formalaşdırmadı, eyni zamanda onun çəkdiyi rəsmlər və bir-birindən gözəl ilmələri də unudulmaz tariximizə çevrildi.

Natəvan millətini sevən, onun qeydinə qalan vətənpərvər bir ana idi. Xan qızının gördüyü işlər onu təkcə Qarabağda deyil, bütün dünyada məşhur etmişdi. Onun haqqında hələ XIX əsrin ortalarında Azərbaycana səfər edən məşhur fransız yazıçısı Aleksandr Düma 1858-ci ildə Rusiya və Qafqaza səfərində Azərbaycan torpağına gəldiyini və hələ səfərdən öncə Azərbaycan haqqında bəzi məlumatlara malik olduğunu yazır:

"*Nə yaxşı ki, mən Sankt-Peterburqdan Azərbaycana gəldim. Əks halda, mən Dərbənddə dayanacaqdım. Mən hələ Azərbaycana, bu Odlar diyarına gəlməzdən əvvəl onun*

[1] http://www.anl.az/down/meqale/525/2012/avqust/258090.htm(12.11.2022).

*Atəşgahı, onun Qarabağının atçılığı, xalçaçılığı, xüsusilə Natəvan xanımın xeyirxah işləri ilə tanış idim".* [2]

1858-ci ildə xoşbəxt bir təsadüf Bakıda məşhur fransız yazıçısı Aleksandr Düma ilə Xurşidbanunu rastlaşdırıb. Natəvanın həyat yoldaşı Xasay xanın fransız dilini yaxşı bilməsi onların arasında dostluq yaradıb. Onlar Abşeronda birgə gəzintiyə çıxıb, ayrılarkən bir-birinə qiymətli hədiyyələr təqdim edib. Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumat da A. Dümanın "Qafqaza səyahət" kitabında öz əksini tapıb. Aleksandr Dümanın "Qafqaz" əsərində Xurşidbanu Natəvan və onun əri Xasay xan Usmiyev barədə xoş sözlər yazılmışdır.

" *Aleksandr Düma polismeyster rəisi Piqulevskinin evində Xasay xan Usmiyevlə və onun xanımı Xurşudbanu, qayınanası Bədircahan bəyim və uşaqları ilə tanış olmuş, ilk təəssüratlarını belə ifadə etmişdir: "İki azərbaycanlı qadından biriQarabağın sonuncu xanı Mehdiqulu xanın arvadı, o biri isə qızı idi. Anaya qırx, qızınaiyirmi yaşdan artıq vermək olmazdı. Hər ikisi milli geyimdə idi. Qız zəngin olan milli geyimdə füsunkar görünürdü.*

*Üç-dörd yaşlı, eynilə anası kimi geyinmiş balaca qız uşağı iri, qara gözlərini təəccüblə bizə zilləyərkən beş-altı yaşında bir oğlan uşağı nənəsinin qucağına sıxılmışdı və təsadüfən, yaxud qeyri-ixtiyari olaraq əli ilə xəncərinin dəstəyindən tutmuşdu.*

*Tiyəsinin dalı-qabağı - hər iki tərəfi kəsən ülgüc kimi iti, həqiqi bir xəncəri fransız qadını heç vəchlə öz uşağının əlinə verməzdi, ancaq bu, azərbaycanlı qadınının öz uşağına verdiyi bir oyuncaq idi".* [3]

Xasay xan Usmiyevin A.Dümaya yazdığı kiçik bir məktubdan onun xanımı Natəvanın əl qabiliyyətindən necə məmnun olduğunu görürük. "*Bir saat sonra ondan kiçik bir məktub aldım. Fransızca mükəmməl tərtib olunmuş bu kiçik məktubda aşağıdakı sözlər yazılmışdı: "Müsyö, Sizin çox gözəl silahlarınız vardır, odur ki bu kolleksiyanıza nəsə əlavə etməyə cəsarətim çatmadı; ancaq xanımım bir pul kisəsini və iki arxalığı qəbul etmənizi xahiş edir. Pul kisəsinin naxışlarını xanım öz əlləri ilə işləmişdir. İmza: knyaz Xasay Usmiyev".*

Bağışlanmış hədiyyənin sənətkarlıqla işlənməsinə heyran qalan yazıçı onu "ən gözəl hədiyyə" adlandırmışdır. A. Düma hədiyyənin qarşılığında Xan qızına fil sümüyündən hazırlanmış şahmat bağışlamışdır.

---

[2] http://www.anl.az/down/meqale/adalet/2012/oktyabr/267351.htm(12.11.2022).
[3]https://www.academia.edu/84237418/The_XXVIII_International_Scientific_Symposium_Karabakh_is_My_Native_Land_dedicated_to_the_190_anniversary_of_Khurshidbanu_Natavan_30_July_2022_ISBN_978_605_71427_9_5_Amsterdam_Holland(12.11.2022).

Xurşidbanu Natəvanın rəssamlıq irsi də olduqca maraqlıdır. Onun qrafiki əsərləri Azərbaycan təsviri sənətinin inkişaf tarixini özünəməxsus bədii xüsusiyyətlərlə yeniləşdirib. 1886-cı ildə hazırladığı və mütəxəssislərin "Gül dəftəri" adlandırdıqları 227 səhifəlik albomda onun sulu boya və karandaşla çəkdiyi müxtəlif qızılgül, bənövşə, qərənfil, yasəmən, lalə, süsən, həmçinin mənzərə və müxtəlif bitki təsvirləri də var. Onların həm rəngarəng motivləri, həm də dəyişkən rəng çalarları insanda müsbət ovqat oyadır.

Xurşudbanu Natəvanın "Üzüm salxımı", "Lalə", "Gül", "Çiçək", "Süsən", "Qərənfil" və s. bu səpgidəki rəsmləri Azərbaycan təsviri sənətində natürmort janrının ilk dəfə tətbiq işartısı olunması baxımından da əhəmiyyətlidir. Xurşudbanu Natəvanın çəkdiyi "Bülbül", "Bənövşə", "Gül", "Qərənfil", "Pərvanə"və s. təsvirlərinin yanında şeirlərini də yerləşdirməklə ədəbiyyatın təsviri incəsənətlə sintezini yaratmağa nail olub Natəvanın çəkdiyi "Bülbül" , "At", "Pərvanə" və digər təsvirlərində Qərb rəssamlığına xas ifadə vasitələrindən geniş istifadə etməsi də diqqət çəkəndir. Albomun cildində rəngli saplar və muncuqlarla işlənmiş bəzək elementləri də diqqət çəkir. Cildin bir tərəfində nərgiz, qızılgül və miladi tarixlə "1886-cı il", o biri tərəfində isə küknar, qovaq, şam ağacı və hicri tarixlə "1304-cü il"sözləri toxunub. Xurşudbanu Natəvan şəhər və dəniz mənzərələrini, ehtimal ki, Bakı və Tiflisə səfərləri zamanı çəkmişdir. Mənzərə janrında çəkilmiş bu əsərlərdə perspektivin və fəza dərinliyinin özünəməxsus tərzdə ifadə olunması da maraqlı haldır. Bu üslubu "Bakı mənzərəsi", "Dağlara yol", "Dəniz kənarı", "Məscidli qala", "Sahil kənarında körpü" və sair əsərlərində də müşahidə etmək olur. Tiflis şəhərində olarkən çəkdiyi "Metex qalası", "Şeyx Sənan dağı", "Narınqala", "Kür qırağı", "Müctəhid bağı" və s. mənzərələri bu şəhərin tarixi baxımından da böyük əhəmiyyət kəsb edir.



Xurşidbanu Natəvanın gözoxşayan tikmələri o vaxtlar müxtəlif sərgilərdə də uğurla nümayiş etdirilib. 1882-ci ildə keçirilən Ümumrusiya sərgisinin Qafqaz şöbəsində

göstərilən sənət nümunələri arasında onun mahud üzərində qızıl-gümüş saplarla toxuduğu tikməsi tamaşaçılar tərəfindən olduqca maraqla qarşılanıb.

Tarix Muzeyinin Etnoqrafiya fondunda mühafizə edilən güləbətin sapla tikdiyi yaxalıq, başmaq, öz dövrü üçün yeni olan "xaç" tikmə üsulu ilə bəzədiyi xurcun, qazantutan və s. Xurşidbanunun bu sənət sahəsindəki yüksək istedadından soraq verir.




Muzeydəki materiallar Xurşidbanu Natəvanı bizə dövrünün bacarıqlı modelyeri kimi də tanıdır. Avropa üslubunda hazırladığı köynək Natəvanın yeganə əl işi deyil. Geyimin tikiş texnologiyası müəllifin yüksək zövqə malik olmasından xəbər verir. Xan qızının şəxsi geyimləri də onun yüksək zövq sahibi olduğunu sübut edir. [4]

Muzeydə qorunan onlarla nimtənə içərisində Natəvana məxsus olanlar digər nümunələrdən fərqlənir. Onun rəssamlıq qabiliyyəti bu əl işlərində də özünü göstərir. Xara parçadan tikilmiş nimtənənin yaxası zanbaq, qolları yelpazə biçimlidir. Nimtənənin astarının parçanın yerliyinin rənginə uyğun seçilməsi geyimin estetik gözəlliyini daha da artırır. Burada saxlanılan arxalıqlarda dövrünə görə qeyri-adi biçim üsullarının olduğunu da görürük. Bu gözəl əl işləri ilə Xurşidbanu Natəvan geyim mədəniyyətimizə yeniliklər gətirmişdir. Həmçinin muzeydəki xurcun, quranqabı, bəzəkli başmaq, yaxalıq, tənbəki kisəsi, süfrə, məfrəş və sairə də bizə Xurşidbanu Natəvandan qalan dəyərli yadigarlardır.

Etnoqrafiya fondunda saxlanılan Natəvanın əl işlərindən ibarət tikmə nümunələri, "Tənbəki kisəsi", "Taxça pərdələri", "Tuman", "NİmtənƏ" və "Başmaq" kimi tikmələr gənclərimizdə

[4] http://azhistorymuseum.gov.az/az/news/4021(12.11.2022).

dekorativ tətbiqi incəsənətə böyük maraq yaradır və bu adlar həm də unudulmaqda olan müxtəlif incəsənət sahəsinə aid sözləri dilimizə yenidən qaytarır.

"*Tənbəki kisəsi*" Bu söz dilimizdə artıq unudulmaq üzrədir. "Tənbəki kisəsi" hazırlamaq dekorativ bəzək nümunəsi kimi əsrlər boyu qız-gəlinlərimizin sevimli məşğuliyyəti olmuşdur. Dekorativ bəzək nümunəsi kimi geniş çeşiddə nümunələri olan"Tənbəki kisəsi" ər evinə gəlin köçən qızların əsas cehiz atributlarından biri olmuşdur. Onların hazırlanmasında Güləbətin və təkəlduz tikmə üsullarından istifadə olunmuşdur.

*"Taxça pərdələr"* Bu söz dilimizdə artıq unudulmaq üzrədir. "Taxça pərdələr" yaşayış evlərinin daxili interyerinə xüsusi önəm verir. Təsviri və tətbiqi sənəti özündə birləşdirən **"**Taxça pərdələr" geniş xalq kütlələrinin məişətini zənginləşdirən milli və olduqca maraqlı sənət nümunəsidir. *"Tuman"*Azərbaycan qadınının üst geyim növü. "Tuman" insanların maddi durumundan asılı olaraq qanovuz, darayı, tirmə və başqa parçalardan hazırlanırdı. Parçanın növü və rəngi seçilərkən hökmən qadının yaş amili nəzərə alınırdı. Yaşlı qadınlar tünd və birrəng, gənc qız və gəlinlər isə rəngli, güllü parçalardan hazırlanan tumanlara üstünlük verirdilər. *"Nimtənə*" Bu söz dilimizdə artıq unudulmaq üzrədir. "Nimtənə*"* ənənəvi qadın geyim nümunəsi olub yun parçadan hazırlanır.

XIX-XX əsrlər Azərbaycan qadınlarının istifadə etdiyi gündəlik geyim nümunəsidir. Nimtənənin qolları və ətəyinin kənarına güləbətin və digər tikməli baftalar əlavə edilir. *"Başmaq*" XIX əsr üçün xarakterik qadın ayaq geyim növü. O vaxtlar ailənin iqtisadi durumuna müvafiq olaraq bir-birindən seçilirdi. Bəzi ailələrdə başmağın daban hissəsinə gümüş və ya qızıldan kəsilən lövhələr əlavə edilir, ətrafına bəzəkli naxışlar salınırdı. Başmağın pəncə hissəsi qalın mahud və ya məxmər parçadan hazırlanırdı. Pəncə hissənin üzəri güləbətin tikmə ilə də bəzədilirdi. Bakı, Şamaxı, Şuşa, Gəncə, Şəki və Ordubad kimi iri sənətkarlıq mərkəzlərinə başmaq hazırlayan ustalar çox məşhur idilər.[5]

Hər naxışı bir tarixə çevrilən ilmələr təkcə unudulmaqda olan bəzi sözləri yenidən dilimizə gətirməyəcək, onlar həm də gələcək nəsillərə keçmişimizi öyrənməkdə olduqca gərəkli vasitə olacaqdır.

[5]https://www.academia.edu/38701159/AMEA_X%C9%99b%C9%99rl%C9%99r_%C4%B0ctimai_Elml%C9%99r_Seriyas%C4%B1_4_2015(12.11.2022).

**Ədəbiyyat**

Xurşidbanu Natəvanın 180 illiyinin dövlət səviyyəsində qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham ƏliyevinSərəncamı. Bakı, 3 aprel 2012-ci il.

Bəylər Məmmədov, " Xurşidbanu Natəvan", Bakı, 2010.

http://www.anl.az/down/meqale/525/2012/avqust/258090.htm(12.11.2022).

http://www.anl.az/down/meqale/adalet/2012/oktyabr/267351.htm(12.11.2022).

https://www.academia.edu/84237418/The_XXVIII_International_Scientific_Symposium_Karabakh_is_My_Native_Land_dedicated_to_the_190_anniversary_of_Khurshidbanu_Natavan_30_July_2022_ISBN_978_605_71427_9_5_Amsterdam_Holland(12.11.2022).

http://azhistorymuseum.gov.az/az/news/4021(12.11.2022).

https://www.academia.edu/38701159/AMEA_X%C9%99b%C9%99rl%C9%99r_%C4%B0ctimai_Elml%C9%99r_Seriyas%C4%B1_4_2015(12.11.2022).

# *Şuşa Öz Tarixi Simasını Bərpa Edır*

***Minayə Orucova****




İkinci Qarabağ müharibəsindən sonra cərəyan edən proseslər Azərbaycanın haqlı olduğunu bütün dünyaya sübut etdi. Vətən müharibəsi dövründə ölkəmizə qarşı səsləndirilən ittihamların əsassızlığı təsdiqləndi. Azərbaycanın diplomatik uğurlarının miqyası daha geniş vüsət aldı. Azərbaycan 44 gündə 30 ilin işğalına, ədalətsizliyə, Dağlıq Qarabağ münaqişəsinə,

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, minayeorujuova@gmail.com*

ikili standartlara əsaslanan yanaşmaya son qoymaqla öz gücünü işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə göstərdi.

Azrbaycan postmünaqişə dövründə Moskva, Soçi və Brüssel görüşləri ilə diktə edən tərəf olduğunu, istər Ermənistanın, istərsə də dünya güclərinin reallıqlarla barışmaq məcburiyyətini sübut etdi. Ermənistan baş nazirinin Soçi və Brüssel görüşlərində irəli sürülən təkliflərə razılığı artıq çıxış yolunun olmadığını ortaya qoydu.

Bu gün işğaldan azad edilmiş ərazilərimiz quruculuq meydanını xatırladır.

Ali Baş Komandan İ. Əliyev çıxışında söylədiyi kimi:

*"Düşmən orada bir daşı daş üstə qoymayıb, bir bina tikməyib. Özləri üçün bir neçə villa tikdirib. Villanın biri o xunta başçısına, biri isə deyilənə görə, Ermənistan rəhbərliyində təmsil olunan zəngin, rüşvətxor məmura məxsusdur. Mənfur düşmən 28 il ərzində orada ondan başqa bir dənə də bina tikməyib. Yollar bərbad, binalar dağılmış, hər tərəf xozanlıq, zir-zibil, çirkin köşklər. Olan-qalanı da dağıdıblar. Bir daşı daş üstə qoymayıblar, ancaq istismar ediblər. Bundan sonra gəlib deyirlər ki, Şuşa erməni şəharidir, onun adını da dəyişdirməyə cəhd ediblər. Ona görə infrastruktur layihələrinin icrası, əlbəttə ki, birinci məsələdir".*[1]

2021-ci ildə ölkə Prezidentinin regionlara 47 səfəri olub ki, onların 32-si işğaldan azad edilmiş ərazilərimizədir. Dövlət başçısının vurğuladığı kimi, dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb. Əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır.

[1] *https://www.azerbaijan-news.az/az/posts/detail/shushanin-berpasi-daim-menim-nezaretimde-olacaq-ve-yax(10.10.2022).*




Böyük qürur hissi ilə qeyd edirik ki, 2022-ci ili “Şuşa İli” elan edilmişdir. Dövlət başçısının bir ildə işğaldan azad edilmiş ərazilərə etdiyi 32 səfərinin 7-si Şuşaya olub. Bu artıq Qarabağın tacı, Azərbaycanın döyünən ürəyi Şuşamızın hər birimiz üçün önəmini açıqlayır. Şuşa bir ildə biri-birindən əhəmiyyətli hadisələrə, tarixi günlərə şahidlik etdi. Ən əsası “Xarıbülbül” musiqi festivalı, Vaqif Poeziya günlərinin keçirilməsi ənənəsi bərpa edildi. Şuşanın Cıdır düzündən səslənən Azərbaycan muğamı bütün dünyaya səs saldı. Möhtərəm Prezidentimiz adgünündə Şuşaya səfəri zamanı “*Şuşa hər birimizi özünə çəkir*” söylədi. Dövlət başçısının bu il Şuşa şəhərinin 270 illiyini nəzərə alaraq və mədəniyyət paytaxtımızın bərpasını sürətləndirmək məqsədilə 2022-ci ili “Şuşa İli” elan etməsi harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları daha da qürurlandırdı. “Şuşa İli” bir daha təsdiqləyir ki, 28 il əsarətdə olsa da heç zaman sınmayan, milli kimliyimizi, qürurumuzu qoruyan Şuşamızda əbədi olacağıq.[2]

İ. Əliyev: “*Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm. Necə ki, əvvəlki dövrlərdə demişdim biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. Demişdim ki, Şuşasız qələbəmiz yarımçıq olacaq ...Biz Ermənistan tərəfindən qurulmuş istehkamları yararaq cənub istiqamətindən işğal edilmiş torpaqlara daxil olduq, onları azad etdik və müxtəlif istiqamətlər üzrə əks-hücuma keçdik. Bunun nəticəsində Cəbrayıl, Füzuli,*

[2]*https://president.az/az/articles/view/55197(10.10.2022).*

*Hadrut, Xocavənd rayonlarının bir hissəsini, Murovdağ yüksəkliyini, Kəlbəcər rayonunun bir hissəsini, Zəngilan, Qubadlı, Laçın rayonlarının cənub hissəsini və Şuşa şəhərini azad etdik. Hədəfimiz Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Biz Kəlbəcər, Laçın, Ağdam rayonlarını bir güllə atmadan geri götürdük. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu. Şuşanın azad olunması günü Zəfər günü elan edildi."*[3]

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaqŞuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.Şuşa böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazıb. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək tariximizə Zəfər Günü kimi həkk olundu.

Prezident İlham Əliyevin məhz zəfər və quruculuq ili olan 2021-ci ilin ardınca 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı bir dahadövlət başçısının qətiyyətinin və uzaqgörənliyinin nəticəsidir. Belə bir Sərəncam, əslində, Azərbaycanın tarixən mədəniyyət paytaxtı olan Şuşanın beynəlxalq aləmdə tanıdılması baxımından olduqca önəmlidir.

Şuşanın Azərbaycan xalqının qan yaddaşında, milli, mənəvi və mədəni düşüncəsində xüsusi yeri var. Şuşa, həmçinin Azərbaycan xalqının mədəniyyət beşiyi, Qarabağın gözüdür. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "*Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur*". Azərbaycanda Şuşa kimi ikinci bir şəhər yoxdur ki, hamını eyni dərəcədə özünə çəksin və insanların milli ruhuna və milli heysiyyatına təsir edə bilsin. Buna görə də Şuşanın təməlinin qoyulmasının 270 illiyi münasibətilə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi ölkə vətəndaşlarının ürəyincə oldu. İlk növbədə məqsəd Qarabağın tarixini dünya ictimaiyyətinə yeni çalarlarla çatdırmaqdır. Prezidentin bu qərarı tarixi, siyasi və mənəvi baxımdan mühüm əhəmiyyətə İl ərzində bütün qurumlar- dövlət, özəl, qeyri-hökumət təşkilatları, media institutları Şuşa şəhərinin Qarabağ xanı Pənahəli xan tərəfindən əsasının qoyulmasının 270 illik yubileyini təntənəli şəkildə qeyd ediləcək. Bu tədbirlərin hər birində Şuşanın yaranması, onun paytaxt və əsas şəhər olaraq Qarabağın və bütövlükdə

[3]https://president.az/az/articles/view/55197(10.10.2022).

Azərbaycanın iqtisadi, mədəni həyatında oynadığı rol, Azərbaycan Ordusunun şəhəri işğaldan azad edərkən göstərdiyi misilsiz qəhrəmanlıq və digər vacib məsələlər haqqında ətraflı məlumat veriləcək.



Şuşa haqqında yeni-yeni kitablar və nəşrlər çap olunacaq, filmlər çəkiləcəkdir. Hazırkı postmünaqişə dövründə bu məlumatların yayılması bir tərəfdən Qarabağın əsl sahibinin kim olduğunu dünya ictimaiyyətinə bir daha təqdim edəcək, digər tərəfdən, uzun illər tarixi saxtalaşdırmağa cəhd edən ermənilər və onların yalanlarını əyani faktlarla ifşa edəcəkdir.

Zəfərimizdən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Şuşada böyük quruculuq işlərinə start verildi. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında həyata keçirilən nəhəng quruculuq işləri sürətlə davam edir.

Azərbaycanda 2022-ci ilin Prezident İlham Əliyev tərəfindən "Şuşa İli" elan edilməsi dünya mədəniyyətinə, eləcə də regional təhlükəsizliyə, eyni zamanda sülhə səslənən növbəti çağırışdır. 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, bir neçə kilsə və monastr, 2 qəsr və 72 mühüm sənət və tarixi abidələrdən ibarət bütün məkan adları azərbaycanlıların adı ilə bağlı, əhalisi yarandığı dövrdən etibarən ancaq azərbaycanlılardan ibarət olan və dövlətimizin böyük səyi nəticəsində 24 oktyabr 2001-ci ildə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-

Mədəni İrsin İlkin siyahısına daxil edilmiş tarixi-memarlıq qoruğuna sahib olan Şuşa şəhəri heçdə təsadüfi deyil ki, 44 günlük İkinci Qarabağ-Vətən Müharibəsinin tamamlanması günü öz dirçəlişinə mədəniyyət paytaxtı kimi başlamışdır.

Noyabrın 7-də Şuşada Radio-Televiziya Yayım Stansiyasının təməlqoyma mərasimi də əlamətdar hadisə idi.Vətən müharibəsində əldə olunmuş qələbədən sonra Şuşa Radio-Televiziya Yayım Stansiyasında ötən il dekabrın 31-dən radio-televiziya yayımlarının təşkili müvəqqəti bərpa edilib. Belə ki, stansiyadan yayımlanan 11 televiziya proqramının Şuşa, Xankəndi şəhərlərində və Xocalı, Ağdam, Bərdə rayonlarında, eləcə də ətraf yaşayış məntəqələrində yayımı təmin olunub. Layihəyə əsasən tikiləcək 130 metrlik metal qüllənin və texniki binanın inşası Azərbaycanın telekommunikasiya sisteminin inkişaf etdiyi ölkələrdən birinə çevrildiyinin daha bir sübutudur.[4] 2022-ci ili Qarabağa qayıdışın önəmli mərhələsinin başlanğıc ili kimi də qəbul edə bilərik. Şuşanın qısa müddətdə bərpası və məskunlaşdırılması Qarabağın təhlükəsizliyinin gücləndirilməsi baxımından çox önəmlidir. Ölkəmizin gücünün və qüdrətinin göstəricisi olaraq Şuşanın tezliklə dirçəldilməsi və məskunlaşdırılması ermənilərin yaşadıqları ətraf kəndlərə, xüsusilə bir addımlıqda olan Xankəndinə hərtərəfli təsir edəcək, bu ərazilərin Azərbaycanın sosial, iqtisadi və hüquqi məkanına uyğunlaşdırılmasına yardımçı olacaq. Azərbaycan və Türkiyə Prezidentlərinin imzaladıqları "Şuşa Bəyannaməsi"ndə əks olunan bir sıra müddəaların, xüsusilə Şuşada Türkiyənin Baş Konsulluğunun açılmasının icrası sürətlənə bilər ki, bu da öz növbəsində bölgənin təhlükəsizliyinə əlavə dividendlər gətirəcəkdir. Bir sözlə, Müzəffər Ali Baş Komandanın 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı İkinci Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Qələbəni iqtisadi, siyasi və diplomatiya müstəvisində daha da möhkəmləndirməyə xidmət edir.

## Ədəbiyyatlar

https://www.azerbaijan-news.az/az/posts/detail/shushanin-berpasi-daim-menim-nezaretimde-olacaq-ve-yax(10.10.2022)

https://president.az/az/articles/view/55197(10.10.2022).

https://president.az/az/articles/view/55197(10.10.2022).

https://xalqqazeti.com/mobile/az/news/89378(10.10.2022).

[4]https://xalqqazeti.com/mobile/az/news/89378(10.10.2022).

# *"Xarıbülbül" Şuşanın Rəmzidir*
# *Azərbaycan Florasının Nadir Bitkisi Xarı Bülbül*
# *Qarabağın Maddi İrsi Kimi...*

**Vüsalə Sadıqova***

"Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur". Ümummilli lider Heydər Əliyev Şuşanın ölkəmiz üçün dəyərini bu sözlərlə ifadə etmişdi. Mədəniyyətimizin beşiyi olan Şuşa Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Şərq ölkələrinin mədəniyyət mərkəzlərindən olan,milli memarlıq üslubu ilə seçilən, incəsənətimizə bəxş etdiyi tarixi şəxsiyyətləri yetişdirən, muğamımızın beşıyi sayılan Azərbaycanın dilbər guşəsi Şuşa şərqlilərə məxsus arxitekturası ilə fərqlənir. Azərbaycanın alınmaz qalası, mədəniyyət məbədi olan bu qədim şəhər özü boyda tarixi abidədir.




Şuşa 1992-ci il mayın 8-də erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, 28 il sonra- 8 noyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatı nəticəsində yenidən düşmən tapdağından azad edilmişdir. Bu sevinci bizə yaşadan

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, vusala.sadqova@bk.ru*

əsgərlərimizə minnətdarıq. Qarabağın tarixi qədim zamanlara söykənir. Bu tarixi yağı düşmən nə qədər məhv etməyə çalışsa da, bacara bilmədi.

Şuşa dağlarında "Xarıbülbül" adlanan qeyri-adi bir gül yetişir ki, dillərə dastan, əfsanə olan xarıbülbül gülü Şuşanın rəmzi, təbətin möcüzəsidir. Xarıbülbül yalnız Şuşa məhəbbətindən cücərir. Bu bitkinin əsas məskəni Şuşanın Cıdır düzüdür. Bugül Şuşanın milli simvoludur. Xarıbülbül sanki gülün üzərinə qonmuş bülbülü xatirladır. "Xar" sözü tikan mənasını verir, yəni xarıbülbülün hərfi mənası "tikanlı bülbül" deməkdir. Şuşa dağlarında bitən bu bitkinin digər adı isə Qafqaz Qaş səhləbidir. Bülbülün bağrının altindakı gül al-qırmızı rəngə boyanıb. Xarıbülbül haqqında bir cox rəvayətlər mövcuddur. Bununla bağlı xalq mahnısı elə o vaxtdan yaranıb, həmin ovqata köklənib.

Vətən bağı al-əlvandır,
Yox içində "Xarıbülbül"
Ömür sürməli dövrandır,
Səsin gəlsin, barı bülbül.[1]



Dünyanın hec bir yerində rast gəlinməyən xarıbülbül təbətin ən böyük möcüzələrindən biridir. Azərbaycanın Qarabağ bölgəsində yaşayan əhali bu gülə hər zaman xüsusi münasibət bəsləyib. Xarıbülbülün təsvirinə Azərbaycan xalçalarında rast gəlmək mümkündür.

"Xarıbülbül" təbiətə verdiyi gözəlliyi ilə yanaşı müalicə əhəmiyyətli bitkidir. "Xarıbülbül" dən xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində də geniş istifadə edilir.

Tarix boyu Qarabağa qonaq gələnlər hər zaman xarıbülbülü seyrə cıxıb.Qarabağda bu gülün şöhrəti o qədər səs salıb ki, hətta onun şəninə müsabiqələr keçirilib, festivallar təşkil edilib. Qeyd edək ki, "Xarıbülbül" Beynəlxalq festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Festival hər il may ayında

---

[1]https://www.youtube.com/watch?v=DjsTDrVariM(10.10.2022).

Yaponiya, ABŞ, Türkiyə,Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan, SSRİ ölkələrinin iştirakı ilə keçirilib və təkcə Azərbaycanda deyil, bütün dünyada ən vacib mədəniyyət tədbirlərindən biri hesab olunurdu.




Bu günlərdə Azərbaycan prezidenti İlham Əliyevin Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etməsi, Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalını yenidən bərpa etməsi ölkənin mədəni həyatında əlamətdar hadisələrdən biridir. 2021 –ci ilin yanvarında Azərbaycan prezidenti İlham Əliyev Şuşada Xarıbülbül festivalının dirçəldilməsinin zəruriliyini xatırlatmış və bu folklor festivalının ənənəsinin yaxın vaxtlarda yenidən yaradılmasının zəruriliyini qeyd etmişdir. "Xarıbülbül" festivalı 2021 –ci il mayın 12-si və 13-də Heydər Əliyev fondunun təşkilatçılığı ilə Cıdır düzündə baş tutmuşdur.[2]

Xarı Bülbülün əzəməti, məğrurluğu, haqsızlığa qarşı əyilməz duruşu onu əfsanədən qələbə simvoluna çevirməyə başladı.2020- ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ müharibəsi dövründə həyatını itirən şəhidlərin xatirəsinin anılmasında xarıbülbül nişanəsi müharibənin simvoluna çevrildi. Mədəniyyətdə, incəsənətdə və ədəbiyyatda "xarıbülbül" ifadəsi həmişə Qarabağın rəmzi kimi mənalandırılıb. Bu gün isə "xarıbülbül" daha çox İkinci Qarabağ müharibəsində şəhid olan əsgərlərin xatirəsinin, həmçinin Azərbaycan Ordusunun zəfər simvolu kimi tanınır.

İndi Qarabağımız kimi xarıbülbülümüz də azadlıqdadır. Qürbət cənnət olsa da, Vətən ola bilməz. Bu, özünü zaman-zaman təsdiq etmiş həqiqətdir. Bütün canlılar qəriblikdə sıxılır, darıxır. Yaradılış hər zaman Vətən havasına möhtacdır. Doğma torpaqdan havalanan bir əsim yel də onların dərdinə dərman ola bilər. Biz inanırıq ki, Qarabağ həsrətli Xarıbülbül Azərbaycan

---

[2] https://president.az/az/articles/view/51478(12.12.2022).

Ordusunun qələbəsi nəticəsində illər sonra yenidən ruhlanacaq, çiçəklənməyə başlayacaq və öz nəfəsi ilə doğma torpaqlarımızı isidəcəkdir!

**Ədəbiyyatlar**

https://www.youtube.com/watch?v=DjsTDrVariM(10.10.2022).

https://president.az/az/articles/view/51478(12.12.2022).

# *Şuşa Fatehi Mixaylo*

***Türkan Hüseynova*** *



*Vətən mənə oğul desə nə dərdim.*

*Mamır olub qayasında bitərdim.* M.Araz.(1)

Hər bir insanın qiyməti onun vətənə, millətə, insanlığa xidmətindədir. Vətənpərvərlik hissi hələ lap kiçik yaşlarından ailədə, bağçada, məktəbdə formalaşır. Bu hiss əlimizə qələm alıb yazmağa başladığımız, öyrəndiyimiz ana, vətən kəlməsindən boy atır. Müqəddəs vətən sevgisi insanları fədakarlıq etməyə, özünü odun-alovun içərisinə atmağa sövq edir. Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir. Bu torpaq Babəklərin, Cavanşirlərin, Koroğluların vətənidir. Qarabağ savaşı bir daha göstərdi ki, Azərbaycan igidlər diyarıdır.Vətən uğrunda,

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, turkanhüseynova84@gmail.com*

Qarabağın tacı Şuşa uğrunda mübarizəyə qalxan, zəfər tarixini yazan belə cəsur oğullardan biri Mixaylo ləqəbli Mehti Yalçın oğlu Şıxəliyevdir. Mehti 1996-cı il 16 fevralda Hacıqabul rayonunun Meyniman kəndində doğulub. O 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərində savaşıb. 2016-cı ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olub. Mehti 44 günlük Vətən müharibəsinin cəsur qəhrəmanı, Qarabağın tacı olan Şuşa uğrunda döyüşlərdə igidliklə vuruşan, mərd oğullarımızdandır.

Zirvəyə gedən yol vətənə sevgidən başlanır. Bu yol ancaq Vətəni, torpağı, milləti canından çox sevməkdən keçir. Mehti kimi cəsur oğullar sevgi ilə adlarını vətənimizin, dövlətimizin tarixinə qızıl hərflərlə yazmaq şərəfinə nail oldular. Beləcə, 30 il səbr edən Azərbaycan xalqının dözümü 27 sentyabr, 2020-ci il sabahı daşdı. Vətənin dar günündə 26 yaşlı Mehti azğın düşmən tərəfindən zəbt edilmiş torpaqlarımız uğrunda döyüşlərə atıldı. Əsgər olmağın, şərəf işi olduğunu, vətən uğrunda can verməyin səadətini anlayan Mehti düşməndən fərqli olaraq niyə və nəyin uğrunda mübarizə apardığını bilirdi. O, öz müqəddəs vətən torpaqları uğrunda savaşırdı. Öz halal dədə -baba yurdunu, müqəddəs vətən torpağını yağı düşməndən xilas etmək uğrunda silaha sarıldı. Bu yolda şəhid olmağı özünə şərəf saydı. Şuşanın düşmən işğalından azad edilməsi ən mühün tarixi hadisə vəböyük hərbi qələbə oldu. Şuşa döyüşündə qəhrəman oğullar sıldırım dağlardan, meşələrdən, cığırlardan keçərək torpaqları qarış-qarış azad edərək xalqımıza misilsiz qələbə qazandırdılar.Ali Baş Komandan İlham Əliyev nitqində dəfələrlə söyləmişdi :

*... "Bu yeni nəsil müharibə üsuludur hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbiçilərimizin qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış, azad edə-edə bu qələbəni, bu zəfəri xalqımıza nəsib etdilər. Ona görə də bu qələbənin birinci qəhərmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir."*[1]

Dünya hərb tarixində Şuşanın azad olunması xüsusi yer tutur. Bu zəfəri Azərbaycana vətən uğrunda ölümə gedən, ölümdən doğulan, ən uca zirvə olan Şəhidlik zirvəsinə ucalan Şuşa fatehi Mixaylo - Mehti kimi igid oğullar qazandırdı. Düşmənlərin "möcüzə", "sehr" adlandırdığı Şuşa döyüşü Azərbaycan oğullarının Şuşaya necə gedib çıxıdqlarını hələ də dərk etməməsi şübhəsiz ki, Mehti kimi oğulların misilsiz qəhrəmanlığının nəticəsi idi. Bu tarixə yeni

[1] http://qazax-ih.gov.az/az/news/3499.html(15.11.2022).

bir zəfər tarixini yazan türk oğlunun dastanıdır. Bu bir əbədiyyət nəğməsidir. Yeddi noyabr tarixində Şuşada ilk azan səsi oxundu. Uca tanrıya yüksələn bu müqəddəs səsin gücü şir ürəkli qəhrəmanımız Mehtini düşmənə qarşı daha güclü, daha əzmli olmağa səslədi. Bu müqəddəs səs "Vətən səni çağırır, – Mehti! "-deyirdi. Bu səsin çağırışı Mehtini 30 illik bir həsrətə son qoymağa çağırırdı.




30 ildir ki, onu yağı düşmənin əsarətindən, tapdağından xilas edəcək qəhrəman oğlunun yolunu gözləyən müqəddəs Vətən torpağı çağırırdı. Bu səs Mehtini : "Necə dözək bu dərdə ?... Düşmən gəzir Şuşada "– deyə vətənin harayına səsləyirdi. Bu səs Şuşa fatehi ermənilərin qorxulu röyası "Mixaylo" nu mənfur düşməndən qisas almağa səsləyirdi. Mehti doğma vətəni-Şuşanı sıldırım qayalardan aşaraq, cırmaq-cırmaq, axan qanıyla alırdı. Təsadüfi deyil ki, dünya hərb mərkəzləri XXI -əsrdə belə bir döyüşlərə şahidlik etmədiyini, gələcək hərb dərsliklərində Şuşa əməliyyatının öyrənilməsini xüsusilə vurğulamışlar. Mixaylo "Təki, vətən sağ olsun," - deyə bu yolda ölməyin şərəf işi olduğunu göstərdi. O Suqovuşan, Murovdağ, Cəbrayıl, Füzuli, Laçın, Qubadlı, Kəlbəcər uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıqlar göstərir. Şuşa

döyüşlərində Mehti yaralı döyüş yoldaşlarını xilas edərkən yanına düşən mina mərmisindən yaralanır. Bir gün yaralı qalan Mehti qələbəyə saatlar qalmış şəhidlik zirvəsinə qovuşur. "Mixaylo" cəsur igid Mehti qəhrəmanlığı ilə Azərbaycan xalqının hər bir vətəndaşının ürəyində özünə taxt qurur. Bu Azərbaycan Türk oğlunun qəhrəmanlıq dastanıdır. Mehti Şıxəliyev göstərdiyi şücaətlərə görə "Azərbaycan ordusunun 100 illiyi", yubiley medalı, şəhadətindən sonra isə "Qarabağ ordeni", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olumasına görə" medalları ilə təltif edilir. Mehti kimi igid oğullarımızın şücaəti, mübarizəsi gələcək nəsillər üçün əsl ibrət dərsi, qəhrəmanlıq tarixidir. Hər bir gənc qəhrəmanlarını tanımalı, onların keçdiyi şərəfli döyüş yolundan vətənə məhəbbəti, sədaqəti, öyrənməlidir. Şuşanın azad olunması uğrunda qazanılan qələbə gənc nəsillərə örnək olan Mehti kimi saf qanlı, cəsur ürəkli, qeyrətli oğulların qazandığı misilsiz bir qələbə idi. Ruhun şad olsun!

**Ədəbiyyatlar**

http://qazax-ih.gov.az/az/news/3499.html(15.11.2022).

https://alp.az/susa-fatehi-ermenilerin-qorxulu-royasi-olan-mixaylo-foto

https://www.memmedaraz.az/?menu=474

https://www.youtube.com/watch?v=S4y-hKzZXhs

.